# ÜMUMİ TARİX
# 6




## Metodik vəsait

AİDƏ MƏMMƏDOVA

Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün

# ÜMUMİ TARİX fənni üzrə dərsliyin

# METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **aspoligraf.ltd@gmail.com** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

“ASPOLİQRAF”

## KİTABIN İÇİNDƏKİLƏR

6-cı sinif “Ümumi tarix” fənn kurikulumunun məzmun standartları..........5
Fənlərarası inteqrasiya..........................................................................7
Standartların reallaşdırılması, illik planlaşdırma və
inteqrasiya cədvəli..............................................................................10
Təlimin təşkilində istifadə olunan forma və üsullar ..............................12

## İBTİDAİ DÖVR

1. İbtidai icma quruluşunun yaranması və inkişafı ...............................28
2. İbtidai icma quruluşunun dağılması.....................................................31

## QƏDİM MİSİR VƏ ÖN ASİYA

3. Qədim Misir dövləti................................................................................33
4. Qədim Misirdə mədəniyyət ....................................................................35
5. Qədim şumerlilər ...................................................................................37
6. Babil dövləti ..........................................................................................40
7. Finikiya .................................................................................................43
8. Assur dövləti .........................................................................................46
9. Midiya dövləti........................................................................................49
10. Əhəmənilər dövləti ..............................................................................51
11. Parfiya dövləti.....................................................................................53

## QƏDİM TÜRKLƏR. QƏDİM ÇİN VƏ HİNDİSTAN

12. Qədim türklər.......................................................................................55
13. İskit dövlətləri.....................................................................................57
14. Böyük Hun dövləti ...............................................................................60
15. Qədim Çin.............................................................................................63
16. Qədim Hindistan ..................................................................................66

## QƏDİM YUNANISTAN

17. Avropada ən qədim dövlət. Qədim yunan şəhər-dövlətləri ..................69
18. Yunanlar işğalçılara qarşı. Afina quldarlıq demokratiyası .................72
19. Qədim Yunanıstan mədəniyyəti ............................................................75
20. Yunan şəhər-dövlətlərinin tənəzzülü. Makedoniya dövlətinin güclənməsi....78

## QƏDİM ROMA

21. Qədim Roma Respublikasının yaranması (1-ci dərs) ..........................81
21. Qədim Roma Respublikasının yaranması (2-ci dərs) .........................84
22. Respublikanın sonu.
Roma imperiyasının yaranması və süqutu ...........................................86
23. Qədim Roma mədəniyyəti .....................................................................89
Dərs nümunələri.........................................................................................92
Tarixə aid rəvayətlər..................................................................................99
Ən mühüm tarixi hadisələr.......................................................................112
İş vərəqlərindən nümunələr .....................................................................121
Summativ qiymətləndirmə üçün test nümunələri ....................................123
İstifadə olunmuş ədəbiyyat.......................................................................127

***Əziz müəllimlər!***

Kurikulum sənədi əsasında yeni dərslik siyasəti yeni təlim standartlarının, təlim strategiyalarının, qiymətləndirmə mexanizmlərinin reallaşmasına zəmin yaratmışdır. Bu məqsədlə müəllim fəaliyyətini istiqamətləndirmək üçün hazırlanmış metodik vəsait mühüm əhəmiyyət kəsb edir.

Nəticəyönümlü xarakteri və şəxsiyyətyönümlü mahiyyəti özündə əks etdirən, kurikulum standartlarına əsaslanan bu metodik vəsait, güman edirik ki, müəllimlərə az da olsa yol göstərən bir vəsait olacaq.

Bu metodik vəsaitdə istiqamətverici materiallar, mövzuların tədrisi texnologiyası, əlavə resurslar, illüstrasiyalar, xəritələr, iş vərəqləri, sxematik cədvəllər, söz assosiasiyaları, diaqramlar, tarixi sənədlər, inteqrasiya və s. əlavə resurslar verilmişdir.

Metodik vəsaitdə, ilkin olaraq, təlim nəticələrini əldə etməyə istiqamət verən məzmun standartları öz əksini tapmışdır. Məzmun standartlarından doğan alt-standartlar əsasında müəllim öz fəaliyyətini qurur. Təlim nəticəsinin reallaşması üçün müəllim istiqamətlənir. Müəllim öz biliyi və təcrübəsinə əsaslanaraq motivasiya qurmalıdır. Motivasiya maraqlı və cəlbedici olmalı, şagirdləri düşünməyə sövq etməli, müstəqil və yaradıcı təfəkkürü inkişaf etməyə yönəlməlidir. Ona görə də təqdim olunan metodik vəsaitdə verilən illüstrasiyalar onların yaş xüsusiyyətinə uyğun və onları fəaliyyətə, tədqiqata yönəldən istiqamətdə qoyulub.

Müəllim illüstrasiyaları elə seçməlidir ki, şagirdlərin tədqiqat aparmağa imkanları olsun. Müəllim, eyni zamanda şagirdlərin cavablarını dəstəkləməli və onları istiqamətləndirməlidir.

Motivasiya zamanı təfəkkürün hərəkətə gətirilməsi şagirdlərin bilikləri əsasında tədqiqat sualının formalaşmasına imkan yaradır. Şagirdlərin marağı əsasında onların tədqiqat fəaliyyəti daha da artır.

İllüstrasiyalara əsasən şagirdlər tarixi zaman və tarixi məkanı müəyyən edə bilir. Zaman oxunun tərtib olunması şagirdlərin fəallığını gücləndirən amillərdən biridir. Bundan başqa, sxem, cədvəl, xəritə, xronoloji testlərlə iş mövzunun daha səmərəli mənimsənilməsinə kömək edən əsas vasitələrdir. Tarixi mövzularla bağlı rollu oyunların səhnələşdirilməsi, şəxsiyyətlərin dialoqu və monoloqu biliklərin daha dərindən dərk edilməsinə və şagirdlərin yaddaşında həmişəlik qalmasına, həkk olunmasına səbəb olur.

Siz tədqiqat sualları olaraq dərslikdə qrup üçün verilən tapşırıqlardan da istifadə edə bilərsiniz. Bu tapşırıqlar elə tərtib olunmuşdur ki, onların qruplar tərəfindən işlənməsi və təqdim edilməsi mövzunun tam açılmasına şərait yaradır.

Eləcə də mənbələr və sənədlər üzrə tapşırıqlar şagirdlərdə tarixi hadisələrin təhlili vərdişlərini inkişaf etdirmək qabiliyyətini formalaşdırır. Xronoloji hesablamaların aparılması, xəritə üzərində iş onlarda təlim nəticəsini daha da reallaşdırır.

Metodik vəsaitdə göstərildiyi kimi, şagirdlər müəllimin istiqamətləndirici suallarının köməyi ilə ümumiləşdirici nəticəyə gəlirlər. Çalışmaq lazımdır ki, ümumiləşdirilmiş biliklər yığcam, aydın və sadə, başadüşülən şəkildə ifadə olunsun. Ümumiləşdirici nəticədə tədqiqat sualının cavabı əks olunsun. Çünki tədqiqat sualının cavabı, ümumiləşdirici bilik yeni biliyi əks etdirən təlimin nəticəsidir.

Metodik vəsaitdə son olaraq şagirdlərin yaradıcı tətbiqetmə imkanları yoxlanıldıqdan sonra qiymətləndirmə aparılır. Şagirdlərin cavabları həm fərdi şəkildə, həm də qrup fəaliyyəti zamanı qiymətləndirilir. Hər iki halda əvvəlcədən qiymətləndirmə meyarları müəyyən olunur. Qiymətləndirmə meyarları məzmun standartlarından (alt-standartdan) doğur. Qruplar üçün müəyyən edilmiş meyarların özünəməxsus meyarları vardır ki, bu da metodik vəsaitdə öz əksini tapmışdır.

Qrup işi zamanı həm istedadlı, həm də zəif şagirdlər öz səviyyələrinə uyğun olaraq, tapşırıqların yerinə yetirilməsində iştirak edirlər. Cütlük şəklində də şagirdlər bir-birinə kömək edərək fikir mübadiləsi edə bilirlər.

Müxtəlif üsullardan istifadə etməklə yaradılan qrupların (kiçik qruplar, adətən, 4–5 nəfərdən ibarət) tərkibi daim dəyişməlidir. Şagirdlər öz səviyyələrinə uyğun olaraq, qruplarda öz imkanlarını göstərirlər. Qruplar şagirdlərdə problemləri birgə həll etməyi, kollektivçilik hissləri, bir-birini dinləmə mədəniyyəti formalaşdırır.

Evə verilən tapşırıqlar şagird təfəkkürünü inkişaf etdirməklə bərabər, müstəqil, yaradıcı düşüncəyə şərait yaradır və praktik bacarığa malik vətəndaş tərbiyə etməyə kömək edir.

İnternet materialları və müxtəlif mənbələr əsasında verilmiş tapşırıqların yerinə yetirilməsi şagirdlərin müstəqil tədqiqatçılıq qabiliyyətini inkişaf etdirir.

*Vəsaitdə qrup tapşırıqları ilə bərabər, kollektiv iş də yerləşdirilmişdir. Müəllimlər, yeri düşdükcə, şagirdlərin biliyini möhkəmləndirmək üçün, qalan vaxt ərzində şagirdləri yaradıcı işə cəlb etmək üçün onlardan istifadə edə bilər.*

*Vəsaitin sonunda verilmiş xronoloji hadisələr və illüstrasiyalar yaradıcı mətnlərin hazırlanmasında köməkçi vasitə ola bilər.*

## 6-cı SİNİF "ÜMUMİ TARİX" FƏNN KURİKULUMUNUN MƏZMUN STANDARTLARI

***6-cı sinfin sonunda şagird:***

- tarixdə il hesabından istifadə edir;
- mühüm hadisələrin xronoloji çərçivəsini müəyyən edir;
- qədim insanların həyatında təbii-coğrafi şəraitin rolunu müəyyənləşdirir;
- dövlətlərin yaranmasını, onların siyasi quruluşunu, sosial-iqtisadi münasibətləri tarixi bilik mənbələri əsasında izah edir;
- tarixi şəxsiyyətlərin həyat və fəaliyyətini təsvir edir;
- mədəniyyətin yaranması və inkişafını insanların həyatında baş verən dəyişikliklərlə əlaqələndirir.

***Məzmun xətləri üzrə əsas və altstandartlar***

**1. Tarixi zaman**

Şagird:

*1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.*

1.1.1. Tarixdə il hesabından istifadə edir;

1.1.2. İbtidai icma cəmiyyəti və quldar dövlətlərin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir;

1.1.3. Müxtəlif ölkələrdə baş vermiş mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyən edir.

**2. Tarixi məkan**

Şagird:

*2.1. Tarixi hadisə, proses və təzahürlərin baş verdiyi təbii-coğrafi şəraitlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

2.1.1. Ən qədim insan məskənlərinin, ilk sivilizasiyaların, dövlətlərin yaranması və inkişaf amillərini izah edir;

2.1.2. Təbii-coğrafi şəraiti əks etdirən xəritə əsasında hadisələrin baş verdiyi tarixi məkanı təsvir edir.

**3. Dövlət**

Şagird:

*3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

3.1.1. Qədim dövlətlərin (Misir, Şumer, Babil, Assur, İskit, Midiya, Əhəməni, Hun, Çin, Parfiya, Hindistan, Yunanıstan və Roma dövlətləri)

yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir;

3.1.2. Mənbələr əsasında qədim dövlətlərlə bağlı məlumatlar toplayır və təqdim edir.

**4. Şəxsiyyət**

Şagird:

*4.1.Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*

4.1.1. Tarixi şəxsiyyətləri (I Tutmos, III Tutmos, II Ramzes, Hammurapi, Aşşurbanipal, II Sarqon, II Kir, I Dara, Mete xaqan, İskəndər, Sin Şixuandi, Aşoka, Solon, Mitridat, Perikl, Yuli Sezar, Oktavian Avqust, Konstantin) müəyyənləşdirir;

4.1.2. Mənbələr əsasında qədim dövrün tarixi şəxsiyyətləri haqqında məlumatlar toplayır, təqdim edir.

**5. Mədəniyyət**

Şagird:

*5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.*

5.1.1. Mədəniyyətin ayrı-ayrı sahələrinin insanların həyat tərzi ilə əlaqələrini izah edir;

5.1.2. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə münasibət bildirir;

5.1.3. Mədəniyyətlərə, mədəniyyətlərarası əlaqələrə dair məlumat toplayır, təqdim edir.

## FƏNLƏRARASI İNTEQRASİYA

## TARİXİ ZAMAN

***1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.***

1.1.1. Tarixdə il hesabından istifadə edir.

*Az-t. 1.1.1.; 1.1.2.;*
*İnf. 1.2.1.*

1.1.2. İbtidai icma cəmiyyəti və quldar dövlətlərin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir.

*H-b. 1.3.1.*
*C. 3.2.4.*

1.1.3. Müxtəlif ölkələrdə baş vermiş mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivəsini müəyyən edir.

*Az-t. 1.1.2.*

## TARİXİ MƏKAN

***2.1. Tarixi hadisə, proses və təzahürlərin baş verdiyi təbii-coğrafi şəraitlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.***

2.1.1. Ən qədim insan məskənlərinin, ilk sivilizasiyaların, dövlətlərin yaranması və inkişaf amillərini izah edir.

*Az-t. 2.1.1.;*
*C. 3.1.2.;*
*Az-d. 2.2.3.*

2.1.2. Təbii-coğrafi şəraiti əks etdirən xəritə əsasında hadisələrin baş verdiyi tarixi məkanı təsvir edir.

*C. 3.2.3.;*
*Az-t. 2.1.2.;*
*İnf. 3.2.3.*

## DÖVLƏT

***3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlarını nümayiş etdirir.***

3.1.1. Qədim dövlətlərin (Misir, Şumer, Babil, Assur, İskit, Midiya, Əhəməni, Hun, Çin, Parfiya, Hindistan, Yunanıstan və Roma dövlətləri) yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir.

*Az-t. 3.1.1.;*
*Ə. 2.2.1.;*
*H-b. 1.3.1.; 1.3.2.*

3.1.2. Mənbələr əsasında qədim dövlətlərlə bağlı məlumatlar toplayır və təqdim edir.

*İnf. 1.2.3.; 3.2.3.;*
*Ə. 2.2.1.;*
*Az-t. 3.1.2.; 3.1.3.*
*Az.-d. 1.2.1.*

## ŞƏXSİYYƏT

***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***

4.1.1. Tarixi şəxsiyyətləri (I Tutmos, III Tutmos, II Ramzes, Hammurapi, Aşşurbanipal, II Sarqon, II Kir, I Dara, Mete xaqan, İskəndər, Sin Şixuandi, Aşoka, Solon, Mitridat, Perikl, Yuli Sezar, Oktavian Avqust, Konstantin) müəyyənləşdirir.

*Az-d. 2.2.3.;*
*Ə. 2.2.1.;*
*Az-t. 4.1.1.*

4.1.2. Mənbələr əsasında qədim dövrün tarixi şəxsiyyətləri haqqında məlumatlar toplayır, təqdim edir.

*Az-t. 4.1.2.;*
*Ə. 2.2.1.;*
*İnf. 3.2.3.;*
*Az-d. 1.2.1.*

# MƏDƏNİYYƏT

***5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.***

5.1.1. Mədəniyyətin ayrı-ayrı sahələrinin insanların həyat tərzi ilə əlaqələrini izah edir.

*Az-d. 1.2.4.;*
*Ə. 2.1.3.;*
*Az-t. 5.1.1.*

5.1.2. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə münasibət bildirir.

*Az-d. 1.2.4.;*
*Ə. 3.1.2.;*
*Az-t. 5.1.2.*

5.1.3. Mədəniyyətlərə, mədəniyyətlərarası əlaqələrə dair məlumat toplayır, təqdim edir.

*Az-t. 5.1.3.;*
*İnf. 3.2.1.;*
*Az-d. 1.2.1.;*
*Ə. 3.1.2.*

*Azərbaycan tarixi – Az-t.*
*Azərbaycan dili – Az-d.*
*Ədəbiyyat – Ə.*
*İnformatika – İnf.*
*Coğrafiya – C.*
*Həyat bilgisi – H-b.*

## STANDARTLARIN REALLAŞDIRILMASI, İLLİK PLANLAŞDIRMA VƏ İNTEQRASİYA CƏDVƏLİ

| Sıra №-si | Standartların reallaşdırılması | Mövzular | İnteqrasiya | Saat |
|---|---|---|---|---|
| 1. | | Diaqnostik qiymətləndirmə | | 1 |
| **İBTİDAİ DÖVR** | | | | |
| 2. | 1.1.2.; 2.1.1. | İbtidai icma quruluşunun yaranması və inkişafı | Az-t.1.1.1.; C. 1.1.1. | 1 |
| 3. | 1.1.1.; 1.1.2. | İbtidai icma quruluşunun dağılması | Az-t.1.1.1., 1.1.2.; C. 1.1.1. | 1 |
| 4-5. | Layihə: Daş dövrünün Azərbaycanda və dünya dövlətlərində müqayisəli təhlili | | | 2 |
| 6. | KSQ | | | 1 |
| **QƏDİM MİSİR VƏ ÖN ASİYA** | | | | |
| 7. | 2.1.2.; 3.1.1.; 3.1.2. | Qədim Misir dövləti | Az-t. 2.1.2.; 3.1.1. | 1 |
| 8. | 5.1.3. | Qədim Misirdə mədəniyyət | Az-t. 5.1.3.; Az-d. 1.2.1. | 1 |
| 9. | 1.1.2.; 3.1.1.; 5.1.3. | Qədim şumerlilər | Az-t. 3.1.1.; 5.1.3. | 1 |
| 10. | 1.1.2.; 4.1.1.; 5.1.3. | Babil dövləti | Az-t. 3.1.2.; 5.1.2. | 1 |
| 11. | KSQ | | | 1 |
| 12. | 1.1.2.; 5.1.3. | Finikiya | Az-t. 1.1.1.; 1.1.2.; 3.1.3. | 1 |
| 13. | 1.1.2.; 3.1.1.; 5.1.3. | Assur dövləti | Az-t. 3.1.1.; 5.1.3. | 1 |
| 14. | 3.1.1.; 5.1.3. | Midiya dövləti | Az-t. 3.1.1.; 4.1.2.; 5.1.3. | 1 |
| 15. | 3.1.1.; 4.1.2. | Əhəmənilər dövləti | Az-t. 1.1.2.; 2.1.2. | 1 |
| 16. | 2.1.1.; 3.1.2. | Parfiya dövləti | Az-t. 2.1.1.; 3.1.2.; 3.1.3.; Ə. 3.1.2. | 1 |
| 17. | KSQ | | | 1 |

| Sıra №-si | Standartların reallaşdırılması | Mövzular | İnteqrasiya | Saat |
|---|---|---|---|---|
| **QƏDİM TÜRKLƏR. QƏDİM ÇİN VƏ HİNDİSTAN** | | | | |
| 18. | 3.1.2 | Qədim türklər | Ə. 3.1.2.; Az-t. 3.1.2.; 3.1.3. | 1 |
| 19. | 1.1.2.; 2.1.1.; 3.1.2. | İskit dövlətləri | Az-t. 3.1.2. Ə. 3.1.2. | 1 |
| 20. | 3.1.1.; 3.1.2. | Böyük Hun dövləti | Az-t. 3.1.1.; 3.1.2.; 3.1.3.; Ə. 3.1.2.; İnf. 3.2.3. | 1 |
| 21. | 3.1.1.; 4.1.1.; 5.1.3. | Qədim Çin | Az-t. 3.1.1.; 5.1.3.; Az-d. 1.2.1. | 1 |
| 22. | 2.1.1.; 3.1.1.; 4.1.1. | Qədim Hindistan | Az-t. 2.1.1.; 4.1.1.; Ə. 2.1.3. | 1 |
| 23. | KSQ | | | 1 |
| **QƏDİM YUNANISTAN** | | | | |
| 24. | 3.1.1.; 4.1.1. | Avropada ən qədim dövlət. Qədim yunan şəhər-dövlətləri | Az-t. 3.1.1.; 4.1.1.; H-b. 2.1.1.; 2.1.2.; 2.2.1.; Az-d. 2.2.3. | 1 |
| 25. | 1.1.3.; 3.1.1.; 4.1.2. | Yunanlar işğalçılara qarşı. Afina quldarlıq demokratiyası | Az-t. 3.1.1.; 4.1.2. | 1 |
| 26. | 5.1.3. | Qədim Yunanıstan mədəniyyəti | Az-t. 5.1.3.; Ə. 3.1.2. | 1 |
| 27. | 1.1.2.; 4.1.1.; 5.1.2. | Yunan şəhər-dövlətlərinin tənəzzülü. Makedoniya dövlətinin güclənməsi | Az-t. 3.1.1. | 1 |
| 28. | Layihə: Azərbaycan ərazisində yunan mədəniyyətinin izləri | | | 1 |
| 29. | KSQ | | | 1 |
| **QƏDİM ROMA** | | | | |
| 30–31. | 2.1.1.; 2.1.2.; 3.1.1.; 4.1.1.; 4.1.2. | Qədim Roma Respublikasının yaranması | Az-t. 2.1.1.; 3.1.1.; 4.1.1. | 2 |
| 32. | 1.1.2.; 4.1.1. | Respublikanın sonu. Roma imperiyasının yaranması və süqutu | Az-t. 2.1.1.; 4.1.1. | 1 |
| 33. | 5.1.3. | Qədim Roma mədəniyyəti | Az-t. 5.1.3. | 1 |
| 34. | KSQ | | | 1 |

## TƏLİMİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNAN FORMA VƏ ÜSULLAR

Standartlar nəticəyönümlü və şagirdyönümlü olduğundan onların reallaşdırılmasında fəal təlim metodlarından istifadə edilməsi məqsədəuyğun hesab edilir. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Şagirdlərin parta arxasında oturaraq kitab oxuması, iş vərəqlərini doldurması, müəllimi dinləməsi ilə yanaşı, eyni zamanda kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərməsi onun əsas əlamətlərindən hesab edilir. Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək, mülahizələr irəli sürmək və onları əsaslandırmaq imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artırırlar.

***Fəal təlim metodlarının xarakterik xüsusiyyətləri:***

1. Diqqət, ilk növbədə, şagird şəxsiyyətinin formalaşdırılmasına yönəlir.
2. Müəllim təlim fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
3. Problemin həlli prosesində şagirdlər fəal tədqiqatçı olurlar.
4. Bilik və bacarıqlar şagirdlər tərəfindən müstəqil əldə edilir.
5. Müəllim–şagird, şagird–şagird arasında əməkdaşlıq üçün şərait yaranır.
6. Dərslərin inteqrativ təşkilinə üstünlük verilir.
7. Qeyri-standart dərslərin tətbiqinə geniş yer verilir.

***Fəal təlimin planlaşdırılmasında mühüm məqamlar:***

Fəal dərsi səmərəli təşkil etmək üçün ilk növbədə, müəllimin planlaşdırma bacarığı olmalıdır. O dərs dediyi fənn üzrə bütün mərhələləri aydın təsəvvür edə bilməli, onlara aid perspektiv və cari planlar hazırlamağı

bacarmalıdır. Bu zaman aşağıdakı sualların cavablarını özü üçün konkretləşdirməlidir.

- Nə öyrəniləcək?
- Necə öyrəniləcək?
- Hansı şəraitdə öyrəniləcək?
- Nəticələr necə qiymətləndiriləcək?

Dərs planlaşdırılarkən hansı təlim standartının (standartlarının) reallaşdırılması müəyyənləşdirilməli, ona (onlara) uyğun təlim məqsədi (təlim məqsədləri), müvafiq metod və vasitələr seçilməlidir.

Fəal dərsin planında aşağıdakıların nəzərə alınması didaktik cəhətdən əhəmiyyətli hesab edilir.

1. Mövzunu müəyyənləşdirmək.
2. Standartı konkretləşdirmək.
3. Dərsin məqsədini (məqsədlərini) müəyyən etmək.
4. Dərsin motivasiyasını işləyib hazırlamaq.
5. Tədqiqat sualını müəyyənləşdirmək.
6. Aparılacaq tədqiqatın mərhələlərini planlaşdırmaq və bu zaman aşağıdakıları dəqiqləşdirmək:
   - Tədqiqat üçün tapşırıqları;
   - İş üsulları və formalarını;
   - Məlumat mənbələrini.
7. Müzakirə üçün suallar hazırlamaq.
8. İdeyaları və alınacaq nəticələri qısaca ifadə etmək.
9. Dərsin hər mərhələsinə sərf olunacaq vaxtı müəyyənləşdirmək.
10. Qiymətləndirmə standartlarına əsasən vasitələr hazırlamaq.
11. Dərs üçün lazım olan resursları (təchizatı) müəyyən etmək.

***Fəal dərsin mərhələləri:***

**1-ci mərhələ: Motivasiya, problemin qoyulması**

Hər bir tədqiqat problemi müəyyənləşdirməklə başlayır. Əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün, ilk növbədə, tədqiqat sualının formalaşdırılması lazım gəlir. Çünki tədqiqat sualı yeni biliklərin kəşf olunmasında bələdçi kimi çıxış edir.

Bu mərhələ şagirdləri düşünməyə, idraki fəallığa sövq etdiyindən həm də **motivasiya** adlandırılır. Bu prosesdə uşaq öz fikrini “Zənnimcə”, “Mənə belə gəlir ki”, “Mən belə hesab edirəm ki” sözlərindən istifadə etməklə ifadə edir.

Motivasiyanın uğurlu alınması üçün aşağıdakı şərtlərə əməl olunması tövsiyə edilir:

1. Motivasiya üçün seçilən material qeyri-adi, maraqlı olmalı;
2. Fərziyyələri yoxlamaq, tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməli;
3. Müəllim şagirdlərə yönəldici suallar verməli, fərziyyələri irəli sürərkən onları həvəsləndirməli;
4. Tədqiqat sualı təlim standartlarına əsasən müəyyənləşdirilməli və dərsin məqsədinə yönəldilməlidir.

**2-ci mərhələ: Tədqiqatın aparılması**

Dərsin məqsədinə və tədqiqat sualına uyğun iş üsulları seçilir. Tədqiqat sualına cavab verməyə kömək edəcək faktları tapmaq üçün məqsədyönlü iş aparılır. Şagirdlərə müxtəlif çalışmalar verilir. Beləliklə, tədqiqat sualına cavab tapmaq üçün zəmin yaranır. Toplanmış faktlar əsasında təqdimatlar hazırlanır.

***Tədqiqatın nəticələri aşağıdakı təqdimat formalarında ümumiləşdirilir:***

- ifadə yazılar, təsvirlər, əsərlər, şeirlər, esselər;
- sxemlər, cədvəllər, qrafiklər;
- illüstrasiyalar, kitablar, qəzetlər;
- nağıllar, tapmacalar, atalar sözləri, zərbi-məsəllər, uydurmalar, yanıltmaclar;
- təcrübələr, eksperimentlər;
- maketlər, modellər, rəmzlər;
- layihələr;
- qaydalar, qanunauyğunluqlar;
- səhnələşdirmələr;
- nəğmələr, musiqilər;
- referatlar;
- krossvordlar və s.

Tədqiqat müxtəlif formalarda: kollektivlə, kiçik qruplarda, cütlük şəklində və fərdi qaydada aparıla bilər.

**3-cü mərhələ: Məlumatın mübadiləsi**

Tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra müəllim tapşırığın icrasının başa çatdığını bildirir. Bundan sonra şagirdlər informasiyanın təqdimatına başlayır, əldə etdikləri yeni informasiyaları digər iştirakçılarla bölüşürlər. Həmin təqdimatların əks olunduğu iş vərəqləri lövhədən asılır.

**4-cü mərhələ: İnformasiyanın müzakirəsi**

Mövcud mərhələnin məqsədi yeni əldə edilmiş informasiyanı sistemləşdirmək və qrupların hazırladıqları təqdimatlar arasındakı əlaqəni üzə çıxarmaqdır.

Bu mərhələdə müəllim köməkçi suallardan istifadə etməklə əldə olunmuş faktların məqsədyönlü müzakirəsini təşkil edir. Məlumat, sxem, qrafik, cədvəl, təsnifat və s. formalarda təqdimatlar dinlənilir. Nəticədə tədqiqat sualına cavab aydınlaşır.

Müzakirə prosesində müəllim öz fikirlərini şagirdlərə zorla qəbul etdirməməlidir.

**5-ci mərhələ: Nəticə və ümumiləşdirmə**

Nəticəyə gəlmək üçün müəllim şagirdlərin köməyi ilə əldə olunan bilgiləri ümumiləşdirir, əldə edilmiş ideyanın tədqiqat sualı ilə (o bu suala cavab verirmi?) və şagirdlərin ilkin fərziyyələri ilə (bunların arasında düzgün olanları varmı?) müqayisəsini təşkil edir.

**6-cı mərhələ: Yaradıcı tətbiqetmə**

Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini artırır. Bu məqsədlə şagirdlərə praktik tapşırıqlar verilir.

**7-ci mərhələ: Ev tapşırıqları**

Dərsdə alınmış bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi üçün ən geniş yayılmış sərbəst iş forması ev tapşırıqlarıdır. Fəal təlim prosesində belə tapşırıqlardan istifadə olunur. Onların daha çox tədqiqat və yaradıcılıq elementləri (müxtəlif yaradıcı işlər, referatlar, layihələr, tədqiqatlar və s.) ilə zəngin olmasına diqqət yetirilir.

**Qiymətləndirmə**

Qiymətləndirmə şagirdlərin təlimdəki nailiyyətlərinin dəyərləndirilməsi prosesidir.

Qiymətləndirmə konkret meyarlar üzrə aparılmalıdır. Müəllim şagirdləri əvvəlcədən bu meyarlarla tanış etməlidir.

**Refleksiya**

Refleksiya – təlim prosesinin bütün mərhələlərini təhlil etməyə və onu dərindən başa düşməyə imkan verir.

Sagirdlərə dərs zamanı təlim fəaliyyətini izləməyə kömək edə biləcək bir neçə sual verməklə (məsələn: Biz nəticəyə necə gəlib çıxdıq? Biz nə etdik? Qarşıya qoyulmuş problemin həllində sizə nə kömək etdi? və s.) onların fikirlərini sistemləşdirmək mümkün olur. Nəticədə şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini bir daha nəzərdən keçirir.

**İş formaları**

İş formaları dedikdə fərdi, cütlərlə, kiçik qruplarla və kollektiv iş nəzərdə tutulur. Kiçik qruplarla və cütlərlə iş fəal təlim formaları hesab edilir.

***Cütlərlə iş***

Dərs prosesində şagirdlər iki-iki işləyir, təlim tapşırıqlarının yerinə yetirilməsində birgə fəaliyyət göstərirlər. Bu onlara bir-birini daha yaxşı başa düşməyə, əməkdaşlıq etməyə, məsuliyyətlərini dərk etməyə imkan yaradır.

***Kiçik qruplarla iş***

Şagirdlər (3–6 nəfər) kiçik qrupda birləşir və hər hansı problemi həll etmək üçün birgə fəaliyyətə cəlb olunurlar. Qrup işi şagirdlərə öz fikirlərini söyləməyə və başqalarını dinləməyə, özünün və digərlərinin işini qiymətləndirməyə imkan yaradır. Bundan əlavə, onlar eyni bir məsələ ilə bağlı müxtəlif baxış və yanaşmaların olması barədə təsəvvürə yiyələnirlər.

## *FƏAL TƏLİM ÜSULLARI*

Fəal təlim zamanı istifadə olunan üsullar təlim strategiyalarının qurulmasında və təhsilin həyata keçirilməsində əhəmiyyətli yer tutur. Pedaqoji ədəbiyyatlarda onun müxtəlif növlərinin olduğu göstərilir. Məsələn, beyin həmləsi, BİBÖ, klaster (şaxələndirmə), anlayışın çıxarılması, söz assosiasiyaları, müzakirə, akvarium, rollar üzrə oyun, Venn diaqramı, layihələrin hazırlanması və s.

**Beyin həmləsi**

Bu üsul əqli hücum da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirirlər.

**BİBÖ (KWL)**

**BİBÖ – Bilirəm/İstəyirəm bilim/Öyrəndim**

BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır:

1. Problem müəllim tərəfindən elan edilir.
2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: – Bilirəm/İstəyirəm bilim/Öyrəndim.




3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyirlər və cavablar birinci sütunda qeyd olunur.
4. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır.
5. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.

**Auksion**

Müəllim öyrənilən məsələni müəyyən edərək şagirdləri auksionun keçirilmə qaydaları haqqında təlimatlandırır. Öyrənilən əşya və ya hadisənin xüsusiyyətləri ardıcıl şəkildə adlandırılır.

Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir. Hər bir fikirdən sonra müəllim sayır: “Bir, iki”. Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu təklif verən qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini dinləyir.

Oyunda axırıncı mümkün cavabı verən şagird “Auksion”u qazanır.

**Klaster (şaxələndirmə)**

Müəllim tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yazılmış anlayışla bağlı söz və ya ifadələr söyləmək şagirdlərə tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz, onunla əlaqəli sözlər xətlərlə birləşdirilir. Vaxt bitənə qədər mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır.

**Suallar**

Suallar dərs prosesində tədqiqatların səmərəli qurulmasını stimullaşdırır. Şagirdlərin idrak fəallığının artırılmasında böyük rol oynayır.

Sualların sayının 4–5 arasında olması məqsədəuyğundur. Sualların qoyuluşu tənqidi təfəkkürün inkişafına doğru yönəldilməli, məntiqi ardıcıllıq gözlənilməli, məzmunla və mövzu ilə bilavasitə əlaqəli olmalıdır.

**Mühazirə**

Mühazirə məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa mühazirələr 10–15 dəqiqə ərzində aparılır.

Mühazirə ilə bağlı aşağıdakı məsələlərə nəzər yetirmək məqsədəmüvafiqdir:

- Mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək;
- Plan tərtib etmək və onu şagirdlərə paylamaq (və ya lövhədə yazmaq);
- Əyani və texniki vasitələrdən istifadə etmək.

Müəllim mühazirə prosesini verbal (suallar vermək) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) tənzimləməlidir.

**Anlayışın müəyyən edilməsi**

Bu üsul oyun-tapmaca formasında keçirilir və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədə kart asır, onun arxasında şagirdlərin tapacağı anlayışı yazır. Kartın yazı olmayan tərəfini şagirdlərə göstərir və gizlədilmiş anlayışın xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq, gizlədilmiş anlayışı tapırlar.

Əgər şagirdlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni xüsusiyyətlər sadalayır.

Şagirdlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacanın tapılıb-tapılmamasını hamıya çatdırır və kartlarda yazılan sözləri açıqlayır.

**Söz assosiasiyaları**

Bu üsuldan istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (və ya söz birləşməsi) lövhəyə yazılır. Şagirdlər həmin söz ilə bağlı ilk xatırladıqları fikirləri söyləyirlər və həmin fikirlər müəllim tərəfindən lövhədə qeyd edilir. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

**Müzakirə**

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid "Nə baş verdi? Nə üçün baş verdi? Bu başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə, həmin obraz nə hiss etdi? Siz bu şəraitdə nə hiss edərdiniz? Bu, düz idimi? Nə üçün?" kimi suallardan istifadə olunur.

**Akvarium**

Bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. Akvarium bir neçə variantda keçirilə bilər.

***"Akvarium"un keçirilməsinin 1-ci variantı:***

Şagirdlərin köməyi ilə diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və s.) müəyyən edilir. Şagirdlər 2 qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Dairədən kənardakı stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir.

Müəyyən olunmuş mövzu üzrə birinci qrup diskussiya aparır. 15–20 dəqiqədən sonra diskussiya dayandırılır, "xarici dairənin" iştirakçıları diskussiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.

***"Akvarium"un keçirilməsinin 2-ci variantı:***

"Daxili dairənin" iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir və birinci variantdan fərqli olaraq, iştirakçılar bu zaman yalnız problemin "lehinə" olan dəlilləri söyləyirlər.

Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər, dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar. 15–20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar.

Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil.

**Rollar üzrə oyun**

Rollar üzrə oyun hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözü ilə baxmaq imkanı verir.

Müəllim rollu oyunlardan istifadə edərkən əldə etmək istədiyi məqsədi, oyunun mövzusunu, ssenarisini və oyunda iştirak edəcək obrazları əvvəlcədən müəyyənləşdirir, ifa olunacaq rolların mətni yazılmış kartlar hazırlayır. Rollar bölüşdürüldükdən sonra digər şagirdlərdən kimin aparıcı, kimin müşahidəçi olacağını planlaşdırır.

Hazırlaşmaq üçün şagirdlərə vaxt verir.

Oyun nümayiş etdirildikdən sonra müəllim qoyulmuş problemlə bağlı müzakirə təşkil edir.

Şagirddə formalaşdırılan bacarıqlar:

– Rola girmək və rolunu yaxşı "ifa etmək";
– Tənqidi və yaradıcı təfəkkürün inkişafı;
– Əməkdaşlıq;
– İdarəetmə və öyrətmə bacarıqları.

**Venn diaqramı**




Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

***Venn diaqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır:***

- Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir;
- Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanır);
- 1-ci və 3-cü dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.

Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır).

Müqayisə olunan obyektlər təsvir edilir (fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur).

Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

**Layihələrin hazırlanması**

Layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmağa, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağa kömək edir. Bu üsul, həmçinin şagirdlərin

bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait yaradır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir.

Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Problem, həmçinin sinif tərəfindən "əqli hücum" üsulu ilə seçilə bilər.

Problem konkret olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.), bunları əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa qrup şəklində) müəyyən edirlər.

İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özü cavabdehdirlər.

Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

**Sorğu vərəqləri və müsahibə**

Bu üsullar araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır.

***Sorğu vərəqi*** araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldururlar.

***Müsahibə*** isə araşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır.

Bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlərin gözlənilməsi məqsədəmüvafiq hesab edilir:

- Problemi müəyyən etmək;
- İşi təşkil etmək (sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq);
- Məlumatları toplamaq (sualların cavablarını toplamaq);
- Əldə edilmiş məlumatları təhlil etmək və ümumiləşdirmək.

**"Qərarlar ağacı"**

Bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.

Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilir. 4–6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onları "+" və ya "–" işarəsinin qarşısında müvafiq qaydada qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.

Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

| Problem | | | |
|---|---|---|---|
| Problemin həlli yollarının mənfi və müsbət tərəfləri | Problemin həlli yolları | | |
| | 1-ci həll yolu | 2-ci həll yolu | 3-cü həll yolu |
| + | | | |
| – | | | |
| Qərar: | | | |

**Problemli vəziyyət**

Bu üsul tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir.

Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4–5 nəfərlik qruplara bölünürlər. Problemli vəziyyət əks olunmuş iş vərəqləri uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır.

**Ziqzaq**

Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır.

Şagirdlər dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər yenidən nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır.

Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir.

Ekspert qrupları onlara verilən hissəni oxumalı, məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır.

Müəllim informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verə bilər.

**Karusel**

Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazırlar. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. "Karusel" kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir.

**Debat** – Özündə hər hansı bir mövzunun formal müzakirəsini ehtiva edir, lakin bu digər müzakirələrdən onunla fərqlənir ki, şagirdlər fikirlərinə görə qruplara ayrılıb həmin fikri müdafiə etməlidirlər. Debat arqument, əsaslandırma, tənqidi yanaşmanı tələb etdiyi üçün məntiqi-riyazi təfəkkürlü şagirdlər bu üsulu daha çox sevir.

Necə tətbiq etməli? Debatda bir komanda (qrup) verilən fərziyyələri (fikri), digəri isə təkzib edən arqumentlər gətirilməlidir. Çıxış zamanı qrup nümayəndələrindən arqumentləri dinləmək və onlara suallar hazırlamaq və arqumentə qarşı əks-arqument gətirmək tələb olunur. Şagirddə formalaşdırılan bacarıqlar:

– dinləyib-anlama;
– nəticəçıxarma;
– ümumiləşdirmə;
– sual tərtibetmə və sualvermə;
– təhliletmə;
– əsaslandırma;
– mövzunun araşdırılması;
– əsas anlayışlarla iş;
– arqumentlərlə iş;
– natiqlik məharəti;
– qərar qəbuletmə bacarığı.

Debatın müxtəlif formaları vardır. Müəllim məqsədəuyğun olaraq istədiyi formadan istifadə edə bilər.

**Frayer modeli**

Bu, söz analizi aparmaq və söz ehtiyatı yaratmaq üçün istifadə edilən iş vərəqidir. Bu dördbucaqlı model şagirdlərə bir sözü və ya konsepsiyanı onun:

1) tərifini verməklə;
2) vacib xüsusiyyətlərini sadalamaqla;

3) nümunələrini göstərməklə;

4) qeyri-nümunələri göstərməklə müəyyənləşdirmək imkanı verir.

Bu model vasitəsilə şagirdlər müəyyən bir konsepsiyanı anladıqlarına əmin olur və həmin konsepsiyanı digər konsepsiyalardan fərqləndirə bilərlər. Şagirdlər xüsusiyyətləri təhlil etməklə onu nümunə tətbiq etməlidirlər.

Şagirdlər iş vərəqini izah etdikdən sonra müəllim oxu materiallarından seçdiyi söz siyahısını onlara təqdim edirlər. Şagirdlər bu sözləri gözdən keçirirlər. Daha sonra şagirdlərə və ya şagird cütlərinə bu sözlərdən biri seçilib verilir. Onlar bu sözü seçilmiş oxu mətni tərkibində yenidən gözdən keçirilir və həmin sözü iş vərəqindəki kateqoriyalara uyğun təyin etməyə başlayırlar. Şagirdlərin inkişaf etdirdiyi bacarıqlar:

– əvvəlki biliklə yeni biliyi əlaqələndirmək;
– təhlil etmək;
– məntiqi təfəkkür;
– əməkdaşlıq (cütlərlə olduqda)

**Zaman oxu**

| | Tarixdə il hesabı ilə bağlı | | |
|---|---|---|---|
| | minilliklər | | yüzilliklər |
|  | ... ... ... ... ... ... 11 10 9 8 7 6 5 4 3 2 1 | 0 | 1 2 3 4 5 6 7 8 9 10 11 ... ... ... ... ... ... 2020 |
| | **Eramızdan əvvəl (e.ə.)** | | **Bizim era (b.e.)** |

*Zaman ölçüləri:*

era, əsr, il, yarım il, rub, gün 1 əsr=100 il; 1 rüb=25 il; 1 minillik=10 əsr; 1500=XV əsr; 1609=XVII əsr

*Tarixi məsələlər.*

*Zamanla bağlı:*

İslam aləmində hicri təqvimdən istifadə olunur. Bu təqvimin ilkin başlanğıcı miladi təqvimin 622-ci ilindən – yəni Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçməsindən – hicrət etməsindən hesablanır. Hicri təqvimində Ay ili əsas götürülür. Ay ili 354 günə nərabərdir.

**1. Miladi təqvimdən hicri təqvimə keçmək üçün:**

$$\text{Hicri} = \text{Miladi} - 622 + (\text{Miladi} - 622) : 33$$

**2. Hicri təqvimdən miladi təqvimə keçmək üçün:**

Miladi = (Hicri – Hicri : 33) + 622

Məsələn, müstəqil Azərbaycan Respublikası 1991-ci ildə yaranmışdır. Hicri təqvimlə bu neçənci ildə baş vermişdi?

1991 – 622 x (1991 – 622) : 33 = 1369 + 41 = 1410

Deməli, Azərbaycan Respublikası hicri təqvimi ilə 1410-cu ildə qurulmuşdur.

Və ya əksinə 1410-cu ildə baş vermiş hadisəni miladi təqvimə çevirmək üçün:

(1410 – 1410 : 33) + 622 = 1991

3. Müxtəlif tarixi hadisələr arasında zamanı müəyyən etmək üçün:

1. Eyni eralarda baş vermişsə, çıxılır.

2. Müxtəlif eralarda baş vermişdə, toplanır.

**Blum taksonomiyası**

Əvvəlki versiya (1956) Yeni versiya (2001)




Blum 1956-cı ildə İdrak taksonomiyasını və təlim nailiyyətlərinin səviyyələrini müəyyənləşdirən mərhələlərini işləyib hazırlamışdır. 1990-cı ildə tələbələri Anderson və Krasvol bu yanaşmanı daha da təkmilləşdirmiş, 2001-ci ildə prosesi yekunlaşdırmışlar.

I mərhələ – Xatırlamaq. Əvvəl əldə etdiyi bilikdən fakt, termin və məlumatları xatırlamaq, yada salmaqdır.

II mərhələ – Anlamaq. Xatırladığı məlumat, fakt konsepsiyadan məna çıxarmaq və öz əvvəlki bilikləri ilə “yeni bilik” arasında əlaqə qurmaqdır.

III mərhələ – Tətbiq etməkdir. Bu mərhələdə hər hansı bir problemi həll etmək üçün prosedurlardan istifadə olunur. Yəni şagird anladığı məlumatı icra edə bilməli, tətbiq etməlidir.

IV mərhələ – Təhlil etmək. Yəni şagirdlər hansısa məlumatı ayrı-ayrı hissələrə bölüb onların fərqini, əlaqəsini müəyyənləşdirir.

V mərhələ – Dəyərləndirmək. Bu mərhələdə meyarlar və standartlar əsasında mühakimə etmək, dəyərləndirmək tələb olunur.

VI mərhələ – Yaratmaq. Şagirdlər əldə etdiyi məlumatlardan istifadə edərək yeni bir məhsul, yeni bir mətn yarada bilirlər.

***Qeyd:*** Bütün mərhələlər eyni dərəcədə əhəmiyyətlidir. Şagird hər hansı bir konsepti anlamadan öncə xatırlamalı, tətbiq etmədən öncə anlamalı, təhlil etmədən öncə tətbiq etməli, dəyərləndirmədən öncə təhlil etməli, yaratmadan öncə dəyərləndirməlidir. Yəni bütün mərhələlər vacib və bir-biri ilə sıx əlaqəlidir.

# İBTİDAİ DÖVR

## 1. İBTİDAİ İCMA QURULUŞUNUN YARANMASI VƏ İNKİŞAFI

**Standartlar:** 1.1.2.; 2.1.1.
**Məqsəd:**
1. İbtidai icma cəmiyyətinin meydana gəlməsinin ilk dövrünü fərqləndirir;
2. İbtidai icma quruluşunun inkişafına təsir edən amilləri izah edir;

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, auksion, klaster (şaxələndirmə)
**İnteqrasiya:** Az-t. 1.1.1.; C. 1.1.1.
**Resurslar:** İKT, dərslik, xəritə, şəkil və illüstrasiyalar, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:**











– Bu illüstrasiyalar haqqında nə deyə bilərsiniz? – Ən qədim insanların həyat tərzlərini necə təsəvvür edirsiniz? – Onlar hansı dövrü əks etdirir?

Şagirdlər öz fərziyyələrini irəli sürürlər.

***Tədqiqat sualı:*** İbtidai icma cəmiyyətinin inkişafına hansı amillər təsir göstərmişdir?

Bu suala cavab axtarmaq üçün qruplarla iş aparılır. Onlara tapşırıqlar verilir.

**I qrup –** Ən qədim insanların həyat tərzini ilk dövrlərlə müqayisə edin.

**II qrup –** İbtidai insanların həyatında mühüm rol oynamış əmək alətlərinin xüsusiyyətlərini sadalayın.

**III qrup –** Odun əldə olunması ilə ibtidai insanların həyatında olan yenilikləri əvvəlki dövrlərlə müqayisə edib dəyərləndirin.

**IV qrup –** Əkinçiliyin ilkin məkanını xəritədə müəyyən etməklə inkişaf xüsusiyyətlərini müəyyən edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Mənbələrdən düzgün istifadə | Təqdim-etmə | Tapşırıq vaxtında yerinə yetirilib | Əmək-daşlıq | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Nəticədə şagirdlər ibtidai icma quruluşunun mərhələlərini, Daş dövrünün mərhələlərini, odun, ox və kamanın kəşfi, əkinçilik, maldarlıq, sənətkarlığın, dəriişləmə, dulusçuluq, sümükişləmə, daşişləmə sənətlərinin inkişafını və dövr haqqında bilikləri mənimsəyirlər.

***Yaradıcı tətbiqetmə:*** Auksion üsulundan istifadə edərək ibtidai icma quruluşuna xas olan xüsusiyyətləri ardıcıl olaraq adlandırır. Müəllim qaydaları elan edir. Öyrənilən hadisənin xüsusiyyətlərini ardıcıl şəkildə söyləyin. Hamı növbə ilə ibtidai icma quruluşuna aid xüsusiyyətləri sayır. Hər bir fikirdən sonra müəllim sayır: “Bir, iki”. Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu xüsusiyyəti sayan qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini dinləyir. Bundan sonra tapşırıq verilir.

Klaster üsulundan istifadə edib Daş dövrünün mərhələlərini fərqləndirin.



***Ev tapşırığı:*** İbtidai icma quruluşunun son mərhələləri haqqında məlumat toplayın.

***Refleksiya və qiymətləndirmə:*** Şagirdlər fərdi şəkildə qiymətləndirilir. Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə – məsələn, biz nəticəyə necə gəlib çıxdıq? Necə nail olduq? Qarşıya qoyulan problemin həllində sizə nə kömək etdi? – kimi suallar verməklə şagirdlərin fikirlərini sistemləşdirmək mümkün olur.

***Qiymətləndirmə meyarları:***

1) fərqləndirmə;

2) izahetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İbtidai icma cəmiyyəti haqqında qısa məlumat verir. | İbtidai icma cəmiyyətinin meydana gəlməsini bilir, ilk dövrünü fərqləndirə bilmir. | İbtidai icma cəmiyyətinin meydana gəlməsinin ilk dövrünü əsasən fərqləndirir. | İbtidai icma cəmiyyətinin meydana gəlməsini və ilk dövrünü asanlıqla fərqləndirir. |
| İbtidai icma quruluşunun inkişafına təsir edən amilləri köməklə izah edir. | İbtidai icma quruluşunun inkişafını təsvir edir, lakin inkişafa təsir edən amilləri izah edə bilmir. | İbtidai icma quruluşunun inkişafına təsir edən amilləri məhdud şəkildə izah edir. | İbtidai icma cəmiyyətinin meydana gəlməsinə və inkişafına dair geniş məlumat toplayır və inkişafa təsir edən amilləri izah edir. |

## 2. İBTİDAİ İCMA QURULUŞUNUN DAĞILMASI

**Standartlar:** 1.1.1.; 1.1.2.
**Məqsəd:**
1. Tarixdə il hesabından istifadə edir;
2. İbtidai icma cəmiyyətinin inkişafı və tənəzzülü dövrlərini fərqləndirir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, Venn diaqramı
**İnteqrasiya:** Az-t. 1.1.1.; 1.1.2.; C. 1.1.1.
**Resurslar:** İKT, dərslik, xəritə, şəkil və sxemlər

**Dərsin mərhələləri**
**Motivasiya:** İbtidai icma quruluşunun dağılmasına dair elektron vəsaitə baxılır. Baxdığınız elektron vəsait, şəkil və sxemlər haqqında hansı mülahizələr irəli sürə bilərsiniz?





***Tədqiqat sualı:*** İbtidai icma quruluşunun inkişafı və dağılmasının səbəbləri hansılardır?

Qruplarla iş aparılır. Onlara üzərində tapşırıqlar olan iş vərəqləri paylanır.

**I qrup –** Xış əkinçiliyi ilə toxa əkinçiliyini müqayisə edin.

**II qrup –** Birinci və ikinci ictimai əmək bölgüsünü müqayisə edin. Venn diaqramından istifadə edin. Zaman oxu üzərində bu əmək bölgülərinin baş verdiyi dövrü qeyd edin.

| | Qədim dövr | |
|---|---|---|
|  | **Minilliklər** | **Əsrlər** |
| | ... ... ... 100 ... ... ... ... ... 35 ... ... 12 11 10 9 8 7 6 5 4 3 2 1 | 1 2 3 4 5 6 |
| | **Eradan əvvəl (e.ə.)** | **Bizim era (b.e.)** |

**III qrup –** İbtidai icma quruluşunun dövrləşməsi cədvəli əsasında orta daş dövründən tunc dövrünə qədər baş vermiş yenilikləri təqdim edin.

**IV qrup –** İlk insan kollektivlərini (ulu icma, qəbilə icması, tayfa) müqayisə edin.

**V qrup –** Tünc dövründə bərabərsizliyin yaranması səbəblərini izah edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qrup-lar | Əməkdaşlıq | Təqdimat. Faktların əhatəliyi və dəqiqliyi | Mənbələr-dən düzgün istifadə | Tapşırıqla-rın vaxtın-da yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |
| V | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Şagirdlər metal alətlərin və xışın kəşfiylə əmək məhsuldarlığının artmasını, bunun bərabərsizliyin yaranmasına və ibtidai icma quruluşunun dağılmasına, tayfa ittifaqlarının meydana gəlməsinə səbəb olmasını mənimsəyir və dövrlər üzrə fərqləndirirlər.

***Yaradıcı tətbiqetmə:*** Venn diaqramı ilə qəbilə icmasını qonşuluq icması ilə müqayisə edin.




***Ev tapşırığı:*** İlkin dövlətin əlamətlərini əks etdirən sxemi tamamlayın.




***Refleksiya və qiymətləndirmə:***

***Qiymətləndirmə meyarları:***

1) istifadəetmə; 2) fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Baş vermiş hadisələri ardıcıllıqla sadalayır, zaman oxunda müəyyən edə bilmir. | Hadisələri bilir, il hesabından istifadə edib məsələ qura bilmir. | Tarixdə il hesabından istifadə edə bilir. | İbtidai icma quruluşunun dövrlərini sadalayır, fərqləndirir və tarixdə il hesabından istifadə edir. |
| İbtidai icma cəmiyyəti, inkişafı və tənəzzülü dövrlərini köməklə fərqləndirir. | İbtidai icma cəmiyyəti haqqında tarixi faktları bilir, inkişafı və tənəzzülü dövrlərini çətinliklə fərqləndirə bilir | İbtidai icma cəmiyyətinin inkişafını məhdud şəkildə bilir və tənəzzülü dövrlərini fərqləndirir. | İbtidai icma cəmiyyəti, inkişafı və tənəzzülü dövrlərini tam şəkildə bilir və fərqləndirir. |

## 3. QƏDİM MİSİR DÖVLƏTİ

**Standartlar:** 2.1.2.; 3.1.1.; 3.1.2.
**Məqsəd:**
1. Xəritə əsasında hadisələrin baş verdiyi Misirin təbii coğrafi şəraitini təsvir edir;
2. Qədim Misir dövlətinin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir;
3. II Ramzesin fəaliyyətini qiymətləndirir.

**Təlim forması:** qruplarla iş, kollektiv iş
**Təlim üsulu:** beyin həmləsi, müzakirə
**İnteqrasiya:** Az-t. 2.1.2.; 3.1.1.
**Resurslar:** İKT, dərslik, xəritə, illüstrasiyalar, marker

**Dərsin mərhələləri**
**Motivasiya:**

– Bu xəritə və illüstrasiyalar haqqında nə deyə bilərsiniz? Onlar hansı dövlətin tarixini əks etdirir? Əhalinin həyat tərzi haqqında hansı təsəvvürlər yaradır?

Şagirdlər öz fərziyyələrini söyləyirlər.

***Tədqiqat sualı:*** Misir dövlətinin yaranması və inkişafına təsir göstərən amillər hansılardır?

Bu suala cavab tapmaq üçün qruplarla iş aparılır. Qruplara aşağıdakı tapşırıqlar əks olunan iş vərəqləri paylanılır.

**I qrup** – Qədim Misirdə əhalinin təsərrüfat həyatının coğrafi mövqeyi ilə bağlılığını təsvir edin.

**II qrup** – Qədim Misirdə dövlətin yaranmasında nomların oynadığı rolu sxemlə təqdim edin.

**III qrup** – Qədim Misirdə idarəetməni təsvir edin.

**IV qrup** – Qədim Misir əhalisinin təbəqələşməsini təsvir edin.

**V qrup** – II Ramzesi dəyərləndirin.



***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır, təqdim edir və cavablar oxunur.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Əmək-daşlıq | Faktların əhatəliyi və dəqiqliyi | Mənbə-lərdən düzgün istifadə | Tapşırıq-ların vaxtında yerinə yetiril-məsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |
| V | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Nəticədə şagirdlər müəllimin köməyi ilə Qədim Misirin coğrafi mövqeyi, dövlətin yaranması, idarəedilməsi, fironların fəaliyyətini, qonşu tayfa və dövlətlərlə münasibətini araşdıraraq, nəticəyə gəlirlər ki, Misir Şərqdə ən inkişaf etmiş, ilk quldar dövlət olmuşdur.

***Yaradıcı tətbiqetmə:***

Verilmiş sözlərdən istifadə edərək mətn tərtib edib, təqdim edin.

Misirdə əhali, fironlar, azad adamlar, kiçiklər, “canlı ölülər”, I Tutmos, III Tutmos, II Ramzes

***Ev tapşırığı:*** Açar sözlərdən, İnternet materiallarından və digər mənbələrdən istifadə edərək Qədim Misir dövləti haqqında məlumatlar toplayıb, təqdimat hazırlayın.

***Refleksiya və qiymətləndirmə:*** Şagirdlər fərdi şəkildə qiymətləndirilir.

***Qiymətləndirmə meyarları:***

1) təsviretmə; 2) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tarixi məkanı tanıyır. | Tarixi məkanı tanıyır, xəritədə köməklə təsvir edə bilir. | Xəritədə tarixi məkanı əsasən təsvir edir. | Xəritədə tarixi məkanı təsvir edir. |
| Sosial-iqtisadi münasibətləri köməklə təsvir edir. | Dövlətin idarə edilməsi haqqında bilir, sosial-iqtisadi münasibətləri təsvir edə bilmir. | Sosial-iqtisadi münasibətləri təsvir edir. | Zəngin məlumatla idarəetmə və sosial-iqtisadi münasibətləri asanlıqla təsvir edir. |
| Köməklə II Ramzes haqqında məlumat toplayır. | II Ramzes haqqında qısa məlumat bilir. | II Ramzes haqqında məlumat toplayır, onun hakimiyyəti dövrünü dəyərləndirir. | II Ramzes haqqında məlumat toplayır, dəyərləndirir, təqdimat edir. |

# 4. QƏDİM MİSİRDƏ MƏDƏNİYYƏT

**Standartlar:** 5.1.3.
**Məqsəd:**
1. Misir mədəniyyətinə dair məlumat toplayır, təqdim edir.

**Təlim forması:** kollektiv və qrup işi
**Təlim üsulu:** beyin həmləsi, mühazirə, müzakirə
**İnteqrasiya:** Az-t. 5.1.3.; Az-d. 1.2.1.
**Resurslar:** dərslik, xəritə, iş vərəqləri, İKT, mühazirə materialı

**Dərsin mərhələləri**
**Motivasiya:**










– İllüstrasiyalar əsasında Qədim Misir mədəniyyəti haqqında mülahizələr irəli sürün və onları əsaslandırın.

Şagirdlər öz bilikləri əsasında fərziyyələrini söyləyirlər.

Müəllim mühazirə üsulundan istifadə edərək şagirdlərə lazımi məlumat verir.

Misir piramidaları haqqında sənədli filmə baxılır. Müəllim suallarla sinfə müraciət edir:

– Misir piramidaları və onların inşa olunması haqqında verilən məlumatlara əsasən nə deyə bilərsiniz? Bu piramidaların yerləşdiyi məkanı xəritədə göstərin.

***Tədqiqat sualı:*** Misir mədəniyyətinin, sivilizasiyasının inkişaf xüsusiyyətləri insanların həyat tərzi ilə bağlı necə inkişaf etmişdi?

Suala cavab tapmaq üçün qruplara müraciət olunur. Qruplar aşağıdakı tapşırıqlar əsasında öz tədqiqatlarını aparırlar.

**I qrup –** İllüstrasiyalar əsasında “Qədim Misirdə din” adlı təqdimat edin.

**II qrup –** Misirdə firon hakimiyyətinin necə ilahiləşdirilməsi barədə məlumatı təqdim edin.

**III qrup –** Misirdə yazı və incəsənət. İllüstrasiyalar əsasında təqdim edin.

**IV qrup –** Misirdə elm sahələrində qazanılan uğurları araşdırın və təqdim edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər. Cavablar oxunur.

| Qruplar | Əməkdaşlıq | Təqdimat | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

***Ümumiləşdirmə və nəticə:*** Verilmiş cavablar əsasında Misir sivilizasiyasının xarakterik cəhətləri, piramidaların, yazının, elmin, ədəbiyyatın, incəsənətin, dinin formalaşması, Nil vadisində təsərrüfatın inkişafı, bərabərsizlik, din və dövlətin vahidliyi mənimsənilir.

***Yaradıcı tətbiqetmə:*** **“**Qədim Misirin dünya elm və mədəniyyəti xəzinəsinə verdiyi töhfələr” başlıqlı cədvəl tərtib edin.

***Ev tapşırığı:*** Qədim “Misir yazısı” haqqında mətn tərtib edin.

***Refleksiya və qiymətləndirmə:*** Şagirdlər fərdi şəkildə qiymətləndirilir.

***Refleksiya:*** Təlim prosesinin bütün mərhələlərini təhlil etməyə və onu dərindən başa düşməyə imkan verir. Məsələn: Misir mədəniyyəti və elmini öyrənmək üçün sizə nə kömək etdi? Hansı üsullardan istifadə etdiniz? Nəticəyə nail oldunuzmu?

***Qiymətləndirmə meyarları:***

1) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Misir mədəniyyətinə aid məlumat toplayır, təqdimat edə bilmir. | Misir mədəniyyətinə aid məlumat toplayır, köməklə təqdimat edir. | Misir mədəniyyətinə aid məlumat toplayır, təqdimat edir. | Misir mədəniyyətinə dair zəngin məlumat toplayır, təqdimat edir. |

# 5. QƏDİM ŞUMERLİLƏR

**Standartlar:** 1.1.2.; 3.1.1.; 5.1.3.

**Məqsəd:**

1. Şumer şəhər-dövlətlərinin meydana gəlməsi və inkişafının dövrlərini fərqləndirir;
2. Şumer şəhər-dövlətlərinin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir;
3. Şumer mədəniyyətinə, mədəniyyətlərarası əlaqələrə dair məlumat toplayır, təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş

**Təlim üsulu:** beyin həmləsi, mühazirə, Venn diaqramı

**İnteqrasiya:** Az-t. 3.1.1.; 5.1.3.

**Resurslar:** xəritə, dərslik, İKT, iş vərəqləri

**Dərsin mərhələləri**

**Motivasiya:**

– Xəritə və illüstrasiyalar hansı qədim xalqın tarixindən məlumat verir?

– Onlar sizdə hansı təsəvvürlər oyatdı?

Şagirdlər öz fərziyyələrini söyləyirlər. Müəllim mühazirə üsulundan istifadə edərək onların bilgilərini zənginləşdirir.

***Tədqiqat sualı:*** Şumer sivilizasiyasının yaranması və inkişafı nə ilə bağlı idi?

Suala cavab tapmaq üçün qruplara aşağıdakı suallarla müraciət olunur.



**I qrup –** Mesopotamiyanın təbiətinin burada məskunlaşan qədim əhaliyə verdiyi imkanları təsvir edin.

**II qrup –** Şumer şəhər-dövlətlərinin yaranmasını və idarə olunmasını təsvir edin.

**III qrup –** Şumerlilərin mədəniyyəti haqqında məlumat toplayın, təqdim edin.

**IV qrup –** Şumer tanrıları haqqında məlumat toplayın və təqdim edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər, cavablar diqqətlə dinlənilir.

***Məlumatın müzakirəsi:*** Cavablar müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Qarşılıqlı dinləmə mədəniyyəti | Əməkdaşlıq | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Təqdimat | Nəticə |
|---|---|---|---|---|---|---|
| I | | | | | | |
| II | | | | | | |
| III | | | | | | |
| IV | | | | | | |

Kollektiv iş həyata keçirilir.

1. Venn diaqramı əsasında Misirdə və Şumerdə dövlətin idarə olunmasını müqayisə edin.




2. Zaman oxunda Şumer dövlətinin yaranma tarixini qeyd edin.

| Qədim dövr | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Minilliklər | | | | | | | | | | | | | | | | | | | | | | | | Əsrlər | | | | | |
| 24 | 23 | 22 | 21 | 20 | 19 | 18 | 17 | 16 | 15 | 14 | 13 | 12 | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Eradan əvvəl (e.ə.) | | | | | | | | | | | | | | | | | | | | | | | | Bizim era (b.e.) | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Şagirdlər tərəfindən Mesopotamiyanın təbii şəraitinin qədim əhaliyə verdiyi imkanlar, şəhər-dövlətlərin yaranması, idarə olunması və inkişafı, mədəniyyətin yüksəlməsi və dini-ideoloji görüşlərin formalaşması mənimsənilir.

***Yaradıcı tətbiqetmə:*** "Misir və Şumer şəhər-dövlətində yazı" adlı mətn tərtib edin.

***Ev tapşırığı:*** Qədim Mesopotamiya haqqında məlumat toplayın.

***Refleksiya və qiymətləndirmə:***

***Qiymətləndirmə meyarları:***

1) dövrləri fərqləndirmə;
2) təsviretmə;
3) məlumat toplayıb təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şumer şəhər-dövlətləri haqqında məlumat toplayır. | Şumer şəhər-dövlətlərinin meydana gəlməsini, inkişaf dövrlərini çətinliklə fərqləndirə bilmir. | Şumer şəhər-dövlətlərinin meydana gəlməsi dövrlərini fərqləndirir. | Şumer şəhər-dövlətlərinin meydana gəlməsi dövrləri haqqında məlumat verir və onların yaranma dövrlərini fərqləndirir. |
| Yalnız sosial-iqtisadi münasibətlər haqqında məlumat toplayır. | İdarəetmə qaydalarını təsvir edir, sosial-iqtisadi münasibətləri təsvir edə bilmir. | İdarəetmə qaydalarını və sosial-iqtisadi münasibətləri təsvir edir. | İdarəetmə qaydalarını və sosial-iqtisadi münasibətləri geniş məlumatla təsvir edir. |
| Şumer mədəniyyətinə dair məlumat toplayır. | Şumer mədəniyyətinə, mədəniyyətlərarası əlaqələrə dair məlumat toplayır, məlumatı təqdim edə bilmir. | Şumer mədəniyyətinə, mədəniyyətlərarası əlaqələrə dair məlumat toplayır, təqdim edir. | Şumer mədəniyyətinə, mədəniyyətlərarası əlaqələrə dair zəngin məlumat, illüstrasiyalar toplayır və təqdim edir. |

# 6. BABİL DÖVLƏTİ

**Standartlar:** 1.1.2.; 4.1.1.; 5.1.3.
**Məqsəd:**
1. Babil dövlətinin meydana gəlməsi və inkişafı dövrlərini müəyyən edir;
2. Hammurapini tarixi şəxsiyyət kimi dəyərləndirir;
3. Babil mədəniyyətinə dair məlumat toplayır, təqdim edir.

**Təlim forması:** qruplarla və cütlərlə iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t. 3.1.2.; 5.1.2.
**Resurslar:** xəritə, dərslik, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:** Dəclə–Fərat, Vavilon, Bab-ili, Babil, Hammurapi




– Gördüyünüz rəsmlərin mövzuyla əlaqəsi nədir?

– Xəritə üzərində yazılmış sözlər və illüstrasiyalar hansı qədim dövlət haqqında məlumat verir? Siz bu barədə nə deyə bilərsiniz? Müəllimin qısa mühazirəsi dinlənilir. Təqdimat aparılması üçün materiallar paylanır.

***Tədqiqat sualı:*** Qədim Babil dövlətinin yaranması və inkişafı hansı amillərlə bağlıdır?

Qruplarla iş aparılır. Aşağıdakı tapşırıqlar əsasında iş vərəqləri tərtib olunur və qruplara paylanır.

**I qrup –** Misir və Babil dövlətlərinin yaranması dövrünü müqayisə edin. Zaman oxu üzərində qeyd edin.

| Qədim dövr | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Minilliklər | | | | | | | | | | | | | | | | | | | | | | | | Əsrlər | | | | | |
| 24 | 23 | 22 | 21 | 20 | 19 | 18 | 17 | 16 | 15 | 14 | 13 | 12 | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Eradan əvvəl (e.ə.) | | | | | | | | | | | | | | | | | | | | | | | | Bizim era (b.e.) | | | | | |

**II qrup –** Hammurapi görkəmli tarixi şəxsiyyətdir – dəyərləndirin.

**III qrup –** Babilin Hammurapi dövründə idarə olunmasının dövlətin sosial-iqtisadi münasibətlərinə müsbət təsir göstərməsini əsaslandırın.

**IV qrup –** Babil mədəniyyətinə dair məlumat toplayıb, təqdim edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Əməkdaşlıq | Təqdimat | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Nəticədə şagirdlər mənimsəyirlər ki, su və karvan yolları üzərində yerləşən Babil yüksək sivilizasiyaya malik qədim quldar dövlət olmuşdur. Hələ e.ə II minillikdə qanunlarla idarə olunan bu dövlətdə mədəniyyət (memarlıq, incəsənət, ədəbiyyat, yazı) inkişaf etmişdi.

***Yaradıcı tətbiqetmə:*** "Hammurapi qanunları və Babil əhalisinin həyat tərzi" mövzusunda hekayə qurun.

***Ev tapşırığı:*** İnternet materiallarından və digər mənbələrdən istifadə edərək "Babil mədəniyyəti"ni dəyərləndirin.

***Refleksiya və qiymətləndirmə:*** Şagirdlər fərdi şəkildə qiymətləndirilir.

***Qiymətləndirmə meyarları:***
1) fərqləndirmə
2) müəyyənetmə;
3) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Babil dövləti haqqında məlumat bilir. | Babil dövləti haqqında məlumatı var, lakin meydana gəlməsi və inkişaf dövrünü fərqləndirə bilmir. | Babil dövlətinin meydana gəlməsi və inkişafı dövrlərini müəyyən edir. | Babil dövlətinin meydana gəlməsi və inkişafı haqqında geniş məlumat toplayır və dövrləri fərqləndirir. |
| Hammurapi qanunlarını bilir. | Hammurapinin kim olduğunu bilir, lakin onu tarixi şəxsiyyət kimi dəyərləndirə bilmir. | Hammurapini tarixi şəxsiyyət kimi dəyərləndirir. | Hammurapini tarixi şəxsiyyət kimi asanlıqla müəyyənləşdirir. |
| Babil mədəniyyəti haqqında köməklə məlumat verir. | Babil mədəniyyətinə dair məlumat toplayır, lakin onu təqdim edə bilmir. | Babil mədəniyyətinə dair məlumat toplayır və təqdim edir. | Babil mədəniyyətinə dair zəngin məlumat toplayır və sərbəst şəkildə təqdimat edir. |

# 7. FİNİKİYA

**Standartlar:** 1.1.2.; 5.1.3.
**Məqsəd:**
1. Finikiyanın şəhər-dövlətlərinin yaranması və inkişafı dövrlərini fərqləndirir;
2. Finikiya mədəniyyətinə aid məlumat toplayıb, təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t. 1.1.1.; 1.1.2.; 3.1.3.
**Resurslar:** İKT, xəritə, dərslik, iş vərəqi

**Dərsin mərhələləri**
**Motivasiya:**





| Hərfin adı | Hərfin görünüşü | Hərfin tələffüzü |
|---|---|---|
| alef | 𐤀 | , |
| bet | 𐤁 | b |
| qimel | 𐤂 | q |
| dalet | 𐤃 | d |
| qe | 𐤄 | x |
| vav | 𐤅 | v |
| zain | 𐤆 | z |
| xet | 𐤇 | x |
| tet | 𐤈 | t |
| iod | 𐤉 | y |
| кaf | 𐤊 | к |
| lamed | 𐤋 | l |
| mem | 𐤌 | m |
| nun | 𐤍 | n |
| sameк | 𐤎 | s |
| ain | 𐤏 | , |
| pe | 𐤐 | p |
| şade | 𐤑 | ç |
| кof | 𐤒 | к |
| reş | 𐤓 | p |
| şin | 𐤔 | , |
| tav | 𐤕 | , |

Müəllim sinfə müraciət edərək soruşur:
– Bu illüstrasiyalar hansı ölkənin tarixi haqqında məlumat verir?
– Onlar qədim dövlətə aid olan hansı xüsusiyyətləri göstərir.
– Bu haqda nə bilirsiniz?

Şagirdlər öz fərziyyələrini söyləyirlər.

Müəllim şagirdləri dinləyir. Lazım olduqda yardımçı suallar verir. Müəllimin qısa mühazirəsi dinlənilir. Təqdimat aparmaq üçün material paylanır.

***Tədqiqat sualı:*** Qədim dövlətlər arasında Finikiya hansı xüsusiyyətləri ilə seçilirdi? Finikiyalılar nələrə qadir idilər?

Suala cavab tapmaq üçün qruplara tapşırıqlar təqdim edilir.

**I qrup –** Finikiyanın təbiətinin onun əhalisinə verdiyi imkanları şərh edin.

**II qrup –** Finikiya şəhərlərinin inkişaf səviyyəsini fərqləndirin.

**III qrup –** Finikiya mədəniyyətinə dair məlumat toplayın və təqdim edin.

**IV qrup –** Finikiya əlifbasının əhəmiyyətini izah edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qiymətləndirmə aparılır.

| Qruplar | Tapşırıq tam yerinə yetirilib | Əməkdaşlıq | Faktların əhatəliyi və dəqiqliyi | Təqdim-etmə | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Nəticədə şagirdlər mənimsəyirlər ki, Finikiyanın coğrafi mövqeyi onlara yaxşı dənizçilər, gəmiqayıranlar olmağa imkan vermişdir. Şəhərlər, sənətkarlıq, yazı yaranmış, başqa xalqlarda da yazının inkişaf etməsinə imkan yaratmışdır.

***Yaradıcı tətbiqetmə:*** Finikiya əlifbası. Finikiya əlifbası hansı xalqların əlifbalarına təsir göstərmişdi? Mətn tərtib edin.

***Ev tapşırığı:*** İnternet materiallarından və digər mənbələrdən istifadə edərək “Finikiya dənizçiləri” haqqında material toplayın.

***Refleksiya və qiymətləndirmə:***

***Refleksiya:*** Hansı yollarla Finikiya tarixinə dair məlumat əldə etdiniz?

– Bu problemin həllində sizə nə istiqamət verdi?

– Nəticəni necə əldə etdiniz?

***Qiymətləndirmə meyarları:***

1) fərqləndirmə;

2) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Finikiya şəhərlərini tanıyır və xəritədə müəyyən edir. | Finikiya şəhərləri haqqında zəif məlumatı vardır, lakin inkişaf dövrlərini fərqləndirə bilmir. | Finikiya şəhər-dövlətlərinin inkişaf və tənəzzül dövrlərini fərqləndirir. | Finikiya şəhər-dövlətlərinin yaranması və inkişafı, tənəzzül dövrləri haqqında geniş məlumat verir və dövrləri asanlıqla fərqləndirir. |
| Finikiya yazısı haqqında bilir. | Finikiya mədəniyyətinə aid material toplayır, lakin təqdimat edə bilmir. | Finikiya mədəniyyətinə aid məlumat toplayır, təqdimat edir. | Finikiya mədəniyyətinə dair zəngin məlumat toplayır və sərbəst təqdimat edir. |

# 8. ASSUR DÖVLƏTİ

**Standartlar:** 1.1.2.; 3.1.1.; 5.1.3.
**Məqsəd:**
1. Assur dövlətinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir;
2. Assur dövlətinin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir;
3. Assur dövlətinin mədəniyyəti və mədəniyyətlərarası əlaqələrinə dair məlumat toplayıb, təqdim edir.

**Təlim formaları:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, BİBÖ, Venn diaqramı
**İnteqrasiya:** Az-t. 3.1.1.; 5.1.3.
**Resurslar:** İKT, dərslik, xəritə, illüstrasiyalar, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:**




– Bu hərbi dəstə hansı ölkəyə aiddir? Bu ordu nəyə qadir ola bilərdi? Onların yürüşləri haqqında nə deyə bilərsiniz?

***Tədqiqat sualı:*** Assur dövlətinin qüdrətinin artmasının səbəbləri nələrdi?

Assur tarixi ilə bağlı şagirdlərin biliklərini aşkarlamaq üçün müəllim BİBÖ üsulundan istifadə edir. Şagirdlərin ilkin olaraq bildikləri I sütuna, II sütuna isə bilmək istədikləri yerləşdirilir.

| ***Bilirəm*** | ***İstəyirəm bilim*** | ***Öyrəndim*** |
|---|---|---|
| | | |

Aşağıdakı tapşırıqlar əsasında tədqiqat aparılır.

**I qrup** – Assur dövlətinin yaranmasını, inkişafını və tənəzzül dövrlərini fərqləndirin.

**II qrup** – Assur ordusunu təsvir edin və onun yürüş etdiyi ölkələri müəyyən edin.

**III qrup** – Assur mədəniyyəti və Aşşurbanipalın gil kitabələri haqqında məlumat toplayın, təqdim edin.

**IV qrup** – "Assur dövlətinin süqutu ilə bağlı" – məlumat toplayın, təqdim edin.

***Məlumatın mübadiləsi:*** Cavablar müəyyən olunmuş zaman ərzində işlənir və təqdim olunur. Cavablar diqqətlə dinlənilir.

***Məlumatın müzakirəsi:*** Cavablar müzakirə olunur. Əlavələr edilir.

Müəyyən olunmuş meyarlar əsasında qruplar qiymətləndirilir.

| **Qruplar** | **Əməkdaşlıq** | **Təqdimat/ Faktların əhatəliyi və dəqiqliyi** | **Mənbələrdən düzgün istifadə** | **Tapşırıqların vaxtında yerinə yetirilməsi** | **Nəticə** |
|---|---|---|---|---|---|
| **I** | | | | | |
| **II** | | | | | |
| **III** | | | | | |
| **IV** | | | | | |

Dərsin sonunda həmin cədvələ yenidən diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri III sütunda qeyd edilir.

***Ümumiləşdirmə və nəticə:*** Assur dövlətinin coğrafi mövqeyi, yaranması, işğalları qonşu dövlətlərlə münasibəti və onun Babil–Midiya tərəfindən süquta uğradıldığı şagirdlər tərəfindən mənimsənilir.

***Yaradıcı tətbiqetmə:*** Şumer–Assur; Babil–Assur dövlətlərini müqayisə edin.







Tapşırıq cütlərlə iş formasında yerinə yetirilir.
***Ev tapşırığı:*** Assur–Midiya münasibətləri haqqında material toplayın.
***Refleksiya və qiymətləndirmə:***
***Qiymətləndirmə meyarları:***
1) fərqləndirmə;
2) təsviretmə;
3) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Assur dövləti haqqında müəyyən məlumatı var, lakin dövlətin meydana gəlməsi, inkişafı və tənəzzül dövrlərini fərqləndirə bilmir. | Assur dövlətinini meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini köməklə fərqləndirir. | Assur dövlətinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir. | Assur dövlətinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini zəngin məlumatlara əsasən fərqləndirir. |
| Assur dövlətinin idarəetmə qaydalarını təsvir edir, sosial-iqtisadi münasibətləri təsvir edə bilmir. | Assur dövlətinin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri köməklə təsvir edir | Assur dövlətinin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri məhdud şəkildə təsvir edir. | Assur dövlətinin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri geniş məlumatla təsvir edir. |
| Assur dövlətinin mədəniyyətinə dair məlumat toplayır, təqdim edə bilmir. | Assur dövlətinin mədəniyyəti və mədəniyyətlərarası əlaqələrinə dair məlumat toplayır, köməklə təqdim edir. | Assur dövlətinin mədəniyyəti və mədəniyyətlərarası əlaqələrinə dair məlumat toplayır və çətinliklə təqdim edir. | Assur dövlətinin mədəniyyəti və mədəniyyətlərarası əlaqələrinə dair zəngin məlumat və illüstrasiyalar toplayır, yüksək səviyyədə təqdim edir. |

# 9. MİDİYA DÖVLƏTİ

**Standartlar:** 3.1.1.; 5.1.3.
**Məqsəd:**
1. Midiya dövlətinin yaranmasını təsvir edir;
2. Midiya mədəniyyətinə dair məlumat toplayır, təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, BİBÖ
**İnteqrasiya:** Az-t. 3.1.1.; 4.1.2.; 5.1.3.
**Resurslar:** İKT, dərslik, xəritə, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:**

Müəllim sinfə müraciətlə soruşur:
– Astiaq kimdir? Onun haqqında nə bilirsiniz?
Müəllimin mühazirəsi dinlənilir. Şagirdlərə tədqiqat materialı paylanır.
Problem müəllim tərəfindən elan edilir.
Necə oldu ki, Midiya dövləti geniş ərazili bir imperiyaya çevrildi?
Lövhədə 3 sütundan ibarət BİBÖ cədvəli qurulur:

| ***Bilirəm*** | ***İstəyirəm bilim*** | ***Öyrəndim*** |
|---|---|---|
| | | |

***Tədqiqat sualı:*** Midiya dövləti qüdrətli imperiyaya necə çevrildi?
Qruplara tapşırıqlar paylanır.
**I qrup –** Midiya dövlətinin yarandığı tarixi dövrü təsvir edin.
**II qrup –** Midiya işğallarına məruz qalmış əraziləri xəritədə müəyyən edin.
**III qrup –** Midiya dövlətinin süqutunu təsvir edin.
**IV qrup –** "Midiya mədəniyyəti və Midiyada din" haqqında məlumat toplayın və təqdim edin.

***Məlumatın mübadiləsi.*** Qruplar müəyyən olunmuş vaxtda cavabları hazırlayır, təqdim edirlər.

***Məlumatın müzakirəsi.*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur digər qruplar tərəfindən əlavələr edilir.

Müəllim tərəfindən müəyyən olunmuş meyarlar əsasında qiymətləndirmə aparılır.

| Qruplar | Əməkdaş-lıq | Təqdimat | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Nəticədə Midiya dövlətinin yaranması, inkişafı, təsərrüfat həyatı, işğalları, süqutu, mədəniyyəti və dini-ideoloji görüşləri haqqında bilgilər şagirdlər tərəfindən mənimsənilir.

Cədvələ diqqət yetirilir, mövzu ilə bağlı öyrəndikləri 3-cü sütunda qeyd olunur.

***Yaradıcı tətbiqetmə:*** – Midiya dövlətinin tarixində mühüm rol oynamış şəxsiyyətlərdən biri ilə bağlı mətn tərtib edin.

***Ev tapşırığı:*** İnternet materiallarından və digər mənbələrdən istifadə edərək Midiya–Əhəməni münasibətləri haqqında məlumat toplayın.

***Refleksiya və qiymətləndirmə:***

1) təsviretmə;

2) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Midiya dövləti haqqında müəyyən məlumatı var, lakin dövlətin yaranmasını təsvir edə bilmir. | Midiya dövlətinin yarandığı şəraiti və tarixi hadisələri köməklə təsvir edir. | Midiya dövlətinin yarandığı şəraiti və tarixi hadisələri təsvir edir. | Midiya dövlətinin yarandığı şəraiti və tarixi hadisələri müqayisəli təsvir edir. |
| Midiya mədəniyyətinə dair məlumatlar toplayır, təqdim edə bilmir. | Midiya mədəniyyətinə dair məlumat toplayır və köməklə təqdim edir. | Midiya mədəniyyətinə dair məlumat toplayır və təqdim edir. | Midiya mədəniyyətinə dair zəngin məlumat toplayır və təqdim edir. |

# 10. ƏHƏMƏNİLƏR DÖVLƏTİ

**Standartlar:** 3.1.1.; 4.1.2.
**Məqsəd:**
1. Əhəmənilər dövlətinin yaranması, idarəetmə qaydaları və sosial-iqtisadi münasibətlərini təsvir edir;
2. Mənbələr əsasında II Kir, I Dara haqqında məlumatlar toplayır, təqdim edir.

**Təlim forması:** qrup işi, fərdi iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t. 1.1.2.; 2.1.2.
**Resurslar:** dərslik, xəritə, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:**





– Bu tarixi şəxsiyyətlər kimlərdir?
– Onlar haqqında nə deyə bilərsiniz?
Şagirdlər öz fərziyyələrini irəli sürürlər.
***Tədqiqat sualı:*** Əhəmənilər dövləti necə yarandı və imperiyaya çevrildi?
Qruplarda tədqiqat apararaq suala cavab axtarılır. Aşağıdakı suallar iş vərəqində əks olunur:
**I qrup –** II Kirin Midiya torpaqları hesabına Əhəməni dövlətinin ərazisini genişləndirdiyini izah edin.
**II qrup –** Əhəməni dövlətinin işğal etdiyi əraziləri xəritədə müəyyən edin.
– Əhəmənilər dövlətinin yaranması və süqutunu zaman oxu üzərində təsvir edin.

<table>
<tr><th colspan="30">Qədim dövr</th></tr>
<tr><th colspan="24">Minilliklər</th><th colspan="6">Əsrlər</th></tr>
<tr><td>24</td><td>23</td><td>22</td><td>21</td><td>20</td><td>19</td><td>18</td><td>17</td><td>16</td><td>15</td><td>14</td><td>13</td><td>12</td><td>11</td><td>10</td><td>9</td><td>8</td><td>7</td><td>6</td><td>5</td><td>4</td><td>3</td><td>2</td><td>1</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td></tr>
<tr><td colspan="24">Eradan əvvəl<br>(e.ə.)</td><td colspan="6">Bizim era<br>(b.e.)</td></tr>
</table>

– Bu dövlət neçə il mövcud olmuşdur? (Xronoloji məsələ)

**III qrup –** Qaumata haqqında məlumat toplayın və təqdim edin.

**IV qrup –** I Dara haqqında məlumat toplayın və təqdim edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Təqdimat | Nəticə |
|---|---|---|---|---|
| I | | | | |
| II | | | | |
| III | | | | |
| IV | | | | |

***Ümumiləşdirmə və nəticə:*** II Kirin hakimiyyətə gəlməsi ilə Əhəmənilər dövlətinin yaranması, II Kirin, Kambizin istilaları və Əhəmənilər imperiyasının yaranması, I Dara islahatları və Makedoniyalı İskəndərin bu dövləti süquta uğratması şagirdlər tərəfindən mənimsənilir.

***Yaradıcı tətbiqetmə:*** Kambiz haqqında təqdimat edin.

***Ev tapşırığı:*** İnternet materiallarından və digər mənbələrdən istifadə edərək Əhəmənilər dövlətinin süqutu haqqında materiallar toplayın, dəyərləndirin.

***Refleksiya və qiymətləndirmə:***

***Qiymətləndirmə meyarları:***

1) təsviretmə;

2) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əhəmənilər dövləti haqqında ümumi bilikləri var, lakin dövlətin yaranmasını, idarəetmə qaydalarını və sosial-iqtisadi münasibətlərini təsvir edə bilmir. | Əhəmənilər dövlətinin yaranması, idarəetmə qaydalarını, şərh etsə də, sosial-iqtisadi münasibətlərini köməklə təsvir edir. | Əhəmənilər dövlətinin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir. | Əhəmənilər dövlətinin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini zəngin məlumatla təsvir edir. |
| II Kir və I Dara haqqında məlumat toplayır, lakin təqdim edə bilmir. | II Kir haqqında təqdimat edir. | II Kir və I Dara haqqında məlumat toplayır, təqdim edir. | II Kir və I Dara haqqında asanlıqla zəngin məlumat toplayır, müqayisələr apararaq təqdim edir. |

# 11. PARFİYA DÖVLƏTİ

**Standartlar:** 2.1.1.; 3.1.2.
**Məqsəd:**
1. Parfiya dövlətinin yaranması və inkişaf amillərini izah edir;
2. Mənbələr əsasında Parfiya ilə bağlı məlumatlar toplayır, təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t. 2.1.1.; 3.1.2.; 3.1.3.; Ə. 3.1.2.
**Resurslar:** dərslik, paylayıcı material, iş vərəqləri, xəritə

**Dərsin mərhələləri**
**Motivasiya:**

Müəllim şagirdlərə dərsliyin 54-cü səhifəsindəki xəritəyə baxmağı təklif edir. Sonra kiçik bir mühazirə oxunur, şagirdlər bu dövlət haqqında müəyyən məlumat alırlar və onlara paylayıcı materiallar təqdim olunur.

***Tədqiqat sualı:*** Qüdrətli Parfiya dövləti necə yarandı?

Qruplarla iş aparılır. Verilmiş suallar və tapşırıqlar əsasında qruplar tədqiqat aparırlar.

**I qrup –** Parfiya dövlətinin hansı şəraitdə yarandığını izah edin.

– Zaman oxunda bu dövlətin yarandığı dövrü qeyd edin.

<table>
<tr><th colspan="30">Qədim dövr</th></tr>
<tr><th colspan="24">Minilliklər</th><th colspan="6">Əsrlər</th></tr>
<tr><td>24</td><td>23</td><td>22</td><td>21</td><td>20</td><td>19</td><td>18</td><td>17</td><td>16</td><td>15</td><td>14</td><td>13</td><td>12</td><td>11</td><td>10</td><td>9</td><td>8</td><td>7</td><td>6</td><td>5</td><td>4</td><td>3</td><td>2</td><td>1</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td></tr>
<tr><th colspan="24">Eradan əvvəl<br>(e.ə.)</th><th colspan="6">Bizim era<br>(b.e.)</th></tr>
</table>

**II qrup –** Mitridat və onun işğalları haqqında məlumat toplayıb təqdim edin.

**III qrup –** Parfiya–Roma yaxınlaşmasını izah edin.

**IV qrup –** Parfiyada sosial-iqtisadi münasibətləri izah edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Qarşılıqlı dinləmə mədəniyyəti | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Təqdimat | Nəticə |
|---|---|---|---|---|---|---|
| I | | | | | | |
| II | | | | | | |
| III | | | | | | |
| IV | | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Şagirdlər Parn qəbilələrinin təsərrüfat həyatı, Parfiya dövlətinin yaranması, Roma dövləti ilə münasibətləri, Parfiya mədəniyyəti ilə tanış olurlar.

***Yaradıcı tətbiqetmə:*** Parfiya dövlətinin tarixini əks etdirən cədvəli tamamlayın.

| Əsasını hansı qəbilələr qoydu | Nə vaxt yarandı | Dövlətin əsasını kim qoydu | İşğal etdiyi torpaqlar | "Şahlar şahı", "Böyük" adlanırdı | Rəqibi olan dövlət | Hansı ərazilərə nəzarət edirdilər | Hansı dövlət ilə iqtisadi əlaqə saxlayırdılar |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |

***Ev tapşırığı:*** "Azərbaycan – Parfiya münasibətləri" haqqında mətn tərtib edin.

***Refleksiya və qiymətləndirmə:***

***Qiymətləndirmə meyarları:***

1) izahetmə;

2) məlumat toplama və təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Parfiya dövləti haqqında müəyyən məlumatı vardır, lakin dövlətin yaranmasını, inkişaf amillərini izah edə bilmir. | Parfiya dövlətinin yaranması və inkişafı amillərini köməklə izah edir. | Parfiya dövlətinin yaranması və inkişaf amillərini izah edir. | Parfiya dövlətinin yaranması və inkişaf amillərini zəngin faktlarla izah edir. |
| Mənbələr əsasında Parfiya ilə bağlı məlumat toplayır, təqdim edə bilmir. | Mənbələr əsasında Parfiya haqqında məlumat toplayır, köməklə təqdim edir. | Mənbələr əsasında Parfiya ilə bağlı məlumat toplayır və təqdim edir. | Mənbələr əsasında Parfiya ilə bağlı zəngin məlumat toplayır və təqdim edir. |

# 12. QƏDİM TÜRKLƏR

**Standartlar:** 3.1.2.
**Məqsəd:**
1. Mənbələr əsasında qədim türk dövlətləri haqqında məlumat toplayır, təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Ə. 3.1.2.; Az-t. 3.1.2.; 3.1.3.
**Resurslar:** dərslik, xəritə, mühazirə mətni, illüstrasiya, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:**








Pazırıq kurqanlarından tapılan bu maddi mədəniyyət nümunələrində, sizcə, hansı xalqların həyatından, tarixindən bəhs edilə bilər?

Şagirdlər öz fərziyyələrini söyləyirlər.

Mühazirə üsulundan istifadə edilir. Şagirdlərə mövzu haqqında məlumat verilir.

***Tədqiqat sualı:*** Mərkəzi Asiyada hansı qədim türk dövlətləri mövcud olmuşdu?

Suala qruplar cavab axtarır.

**I qrup –** Qədim türklərin köç istiqamətlərini və qədim türk tayfalarının məşğuliyyətlərini müəyyən edin (Xəritədə göstərin).

**II qrup –** Zaman oxu üzərində vahə dövlətlərinin yaranma tarixini qeyd edin və yerini xəritədə göstərin.

| Qədim dövr | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Minilliklər | | | | | | | | | | | | | | | | | | | | | | | | Əsrlər | | | | | |
| 24 | 23 | 22 | 21 | 20 | 19 | 18 | 17 | 16 | 15 | 14 | 13 | 12 | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Eradan əvvəl (e.ə.) | | | | | | | | | | | | | | | | | | | | | | | | Bizim era (b.e.) | | | | | |

**III qrup –** Qədim türk dövlətlərinin yarandığı tarixi şəraiti təsvir edin.

**IV qrup –** Qədim türk mədəniyyətinin xüsusiyyətlərini müəyyən edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər. Cavablar oxunur.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Mənbələrdən düzgün istifadə | Təqdimat | Əmək-daşlıq | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Şagirdlər tərəfindən qədim türklərin köç istiqamətləri, əhalinin məşğuliyyəti vahə dövlətlərin yarandığı tarixi şərait və onların mədəniyyətləri barədə məlumat mənimsənilir və təqdim olunur.

***Yaradıcı tətbiqetmə.*** Qədim vahə dövlətləri – Baktriya, Xarəzm, Margiana, Soqdiana haqqında mətn tərtib edin.

***Ev tapşırığı:*** Qədim Türküstan tarixi haqqında əlavə material toplayın.

***Refleksiya və qiymətləndirmə:***

***Qiymətləndirmə meyarları:***

1) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Məlumat toplayır, təqdim edə bilmir. | Məlumat toplayır, köməklə təqdim edir. | Məlumat toplayır, çətinliklə təqdim edir. | Məlumat toplayır və sərbəst təqdim edir. |

# 13. İSKİT DÖVLƏTLƏRİ

**Standartlar:** 1.1.2.; 2.1.1.; 3.1.2.
**Məqsəd:**
1. İskit dövlətlərinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir;
2. İskit dövlətlərinin yaranması və inkişaf amillərini izah edir;
3. İskit dövlətləri ilə bağlı məlumatlar toplayır və təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t.3.1.2.; Ə. 3.1.2.
**Resurslar:** dərslik, xəritə, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:**





Bu illüstrasiyalar haqqında nə deyə bilərsiniz? Onlar kimlərin tarixi haqqında məlumat verir?

***Tədqiqat sualı:*** Mərd, qorxmaz türk mənşəli iskit, kimmer, sakların uğurlarını onların həyat tərzi ilə necə əlaqələndirmək olar?

Suala cavab tapmaq üçün qruplara aşağıdakı suallarla müraciət olunur:

**I qrup –** İskit–kimmer–sak tayfalarının yaratdığı dövlətləri və onların inkişaf xüsusiyyətlərini fərqləndirin.

**II qrup –** İskit–kimmer–sakların təsərrüfat həyatı haqqında məlumat toplayıb təqdim edin.

**III qrup –** İskit–kimmer–sakların qonşu dövlətlərlə münasibətinə dair məlumat toplayıb təqdim edin.

**IV qrup –** İskit mədəniyyəti haqqında məlumat toplayıb təqdim edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Əməkdaşlıq | Faktların əhatəliyi və dəqiqliyi | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Şagirdlər nəticəyə gəlirlər ki, İskitlərin köçü, yeni münbit torpaqlarda məskunlaşması, yerli əhali ilə qaynayıb-qarışması onların təsərrüfat həyatını daha da zənginləşdirmişdir. Onların Van və Urmiya gölləri, Don və Dunay çayları arasında dövlət – padşahlıqlar yaratması döyüşkən, mərdtəbiətli olmaları və hərbi qüdrətinin artması ilə bağlı olmuşdur. İskitlər yalnız döyüşlərdə uğur qazanmamışlar. Onlar həm də böyük bir mədəniyyətin yaradıcısıdırlar.

***Yaradıcı tətbiqetmə:*** “İskit döyüşçüləri döyüş meydanında” adlı hekayə qurun.

***Ev tapşırığı:*** Zaman oxu üzərində İskit padşahlıqlarının yaranma tarixlərini və süqut etmələrini təsvir edin.

| Qədim dövr | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Minilliklər | | | | | | | | | | | | | | | | | | | | | | | | Əsrlər | | | | | |
| 24 | 23 | 22 | 21 | 20 | 19 | 18 | 17 | 16 | 15 | 14 | 13 | 12 | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Eradan əvvəl (e.ə.) | | | | | | | | | | | | | | | | | | | | | | | | Bizim era (b.e.) | | | | | |

***Refleksiya və qiymətləndirmə:***
***Qiymətləndirmə meyarları:***
1) dövrləri fərqləndirmə;
2) izahetmə;
3) məlumat toplayıb, təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İskit dövlətləri haqqında ümumi bilikləri vardır, lakin iskit dövlətlərinin meydana gəlməsi və süqutu dövrünü fərqləndirə bilmir. | İskit dövlətlərinin meydana gəlməsini şərh edir, lakin tənəzzülü dövrlərini köməklə fərqləndirir. | İskit dövlətlərinin meydana gəlməsi və tənəzzülü dövrlərini fərqləndirir. | Zəngin faktlar əsasında İskit dövlətlərinin meydana gəlməsi və tənəzzülü dövrlərini asanlıqla fərqləndirir. |
| İskit dövlətlərinin yaranmasını bilir, lakin onların meydana gəlməsi və inkişaf amillərini izah edə bilmir. | İskit dövlətinin yaranmasını şərh edir, lakin inkişaf amillərini köməklə izah edir. | İskit dövlətlərinin yaranması və inkişaf amillərini izah edir. | İskit dövlətlərinin yaranmasına və inkişafına dair zəngin məlumat toplayır, yaranma və inkişaf amillərini izah edə bilir. |
| İskit dövlətləri haqqında məlumatlar toplayır, təqdim edə bilmir. | İskit dövləti haqqında məlumat toplayır, köməklə təqdim edir. | İskit dövlətləri ilə bağlı məlumatlar toplayır və təqdim edir. | İskit dövlətləri ilə bağlı zəngin məlumat, illüstrasiyalar toplayır və təqdimat edir. |

# 14. BÖYÜK HUN DÖVLƏTİ

**Standartlar:** 3.1.1.; 3.1.2.
**Məqsəd:**
1. Hun dövlətinin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir;
2. Hun dövləti ilə bağlı məlumat toplayır və təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t. 3.1.1.; 3.1.2.; 3.1.3.; Ə. 3.1.2.; İnf. 3.2.3.
**Resurslar:** dərslik, xəritə, iş vərəqləri, illüstrasiya

**Dərsin mərhələləri**
**Motivasiya:**





– Bu illüstrasiyalar haqqında nə deyə bilərsiniz?
– Bu cür məişət şəraiti hansı xalqa xasdır?

***Tədqiqat sualı:*** Hun dövlətinin yaranması, imperatorluğa çevrilməsi və parçalanması amilləri hansılardır?

Tədqiqat aparmaq, suala cavab tapmaq üçün qruplara aşağıdakı tapşırıqlar təqdim olunur.

**I qrup –** Hun dövlətinin yaranmasını və qonşularla münasibətini təsvir edin.

**II qrup –** Çinlilərin hunlara qarşı müdafiə divarları inşa etməsinin səbəblərini araşdırın, məlumat toplayıb təqdim edin.

**III qrup –** Hun imperatorluğunun parçalanmasının səbəbini izah edin. Böyük Hun imperiyasının yaranması və parçalanmasını zaman oxu üzərində qeyd edin.

| Qədim dövr | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Minilliklər | | | | | | | | | | | | | | | | | | | | | | | | Əsrlər | | | | | |
| 24 | 23 | 22 | 21 | 20 | 19 | 18 | 17 | 16 | 15 | 14 | 13 | 12 | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Eradan əvvəl (e.ə.) | | | | | | | | | | | | | | | | | | | | | | | | Bizim era (b.e.) | | | | | |

**IV qrup –** Hunların dini inancları haqqında məlumat toplayıb, təqdim edin.

Müəllim kiçik mühazirə ilə şagirdlərin məlumatlarını zənginləşdirir.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayıb təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Təqdimetmə | Əmək-daşlıq | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Hun tayfalarının məşğuliyyəti, dövlət və imperiya yaratmaları, hun ordusunun qorxmazlığı təsvir edilir. Birliyin olmaması imperiyanı parçalayır. Bütün bunlar şagirdlər tərəfindən mənimsənilir.



***Yaradıcı tətbiqetmə:*** Şəklə əsasən hunların həyat tərzini təsvir edin.

***Ev tapşırığı:*** "Hun-Çin münasibətləri" haqqında məlumat toplayın.

***Refleksiya və qiymətləndirmə:***
***Qiymətləndirmə meyarları:***
1) təsviretmə;
2) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hun dövləti haqqında məlumatı vardır, lakin dövlətin yaranması, idarə olunması, sosial-iqtisadi münasibətlərini təsvir edə bilmir. | Hun dövlətinin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini köməklə təsvir edir. | Hun dövlətinin yaranmasını, idarəetmə qaydalarını təsvir edir. | Hun dövlətinin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini geniş məlumat, xəritə və illüstrasiyalar əsasında təsvir edir. |
| Hun dövləti ilə bağlı məlumat toplayır, lakin təqdim edə bilmir. | Hun dövləti ilə bağlı məlumat toplayır və köməklə təqdim edir. | Hun dövləti ilə bağlı məlumatlar toplayır, təqdim edir. | Hun dövləti ilə bağlı mənbələrdən məlumat toplayır və sərbəst şəkildə təqdim edir. |

# 15. QƏDİM ÇİN

**Standartlar:** 3.1.1.; 4.1.1.; 5.1.3.
**Məqsəd:**
1. Qədim Çin dövlətinin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir;
2. Sin Şixuandini tarixi şəxsiyyət kimi müəyyən edir;
3. Çin mədəniyyətinə dair məlumat toplayıb təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, auksion
**İnteqrasiya:** Az-t. 3.1.1.; 5.1.3.; Az-d. 1.2.1.
**Resurslar:** dərslik, xəritə, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:**








– Bu illüstrasiyalar hansı dövlətin tarixi və mədəniyyəti haqqında məlumat verir? Onlar haqqında nə deyə bilərsiniz?

***Tədqiqat sualı:*** Çin böyük imperiyaya, Şərqin mədəni ölkəsinə necə çevrildi?

Tədqiqat sualına cavab tapmaq üçün aşağıdakı tapşırıqlarla qruplara müraciət olunur.

**I qrup –** Sin Şixuandinin Çin dövlətçiliyi tarixində rolunu müəyyən edin. – Sin imperiyasının yaranması və süqutunu zaman oxu üzərində təsvir edin.

<table>
<tr><th colspan="30">Qədim dövr</th></tr>
<tr><th colspan="24">Minilliklər</th><th colspan="6">Əsrlər</th></tr>
<tr><td>24</td><td>23</td><td>22</td><td>21</td><td>20</td><td>19</td><td>18</td><td>17</td><td>16</td><td>15</td><td>14</td><td>13</td><td>12</td><td>11</td><td>10</td><td>9</td><td>8</td><td>7</td><td>6</td><td>5</td><td>4</td><td>3</td><td>2</td><td>1</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td></tr>
<tr><td colspan="24">Eradan əvvəl<br>(e.ə.)</td><td colspan="6">Bizim era<br>(b.e.)</td></tr>
</table>

**II qrup –** Çinlilərin hunlarla münasibətini təsvir edin.

**III qrup –** Çində xalq üsyanlarını təsvir edin.

**IV qrup –** Çinin dünya mədəniyyətinə verdiyi töhfələr haqqında məlumat toplayıb təqdim edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Əməkdaşlıq | Faktların əhatəliyi və dəqiqliyi | Təqdimetmə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Şagirdlər Çin ərazisində sinifli cəmiyyətin meydana gəlməsi, dövlətin imperiyaya çevrilməsi, xalq hərəkatının baş verməsi, hunlarla münasibəti, Çin mədəniyyəti, Konfutsi təliminin mahiyyətini mənimsəyirlər.

***Yaradıcı tətbiqetmə:*** Auksion keçirilir:

– “Qədim Çindən danışarkən nələri xatırlayırıq?” – şagirdlər Çinlə bağlı öyrəndikləri hadisə və əşyanın xüsusiyyətini ardıcıl şəkildə adlandırır. Müəllim sayır: 1, 2, ....... sonuncu savab verən qalib gəlir.

***Ev tapşırığı:*** “İpək yolu və Azərbaycan” haqqında mətn tərtib edin.

***Refleksiya və qiymətləndirmə:***
***Qiymətləndirmə meyarları:***
1) təsviretmə;
2) müəyyənetmə;
3) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qədim Çin dövləti haqqında təsəvvürləri vardır, lakin Çin dövlətinin yaranması, idarəetmə qaydaları, sosial-iqtisadi münasibətləri təsvir edə bilmir. | Çin dövlətinin yaranması idarəetmə qaydalarını şərh edir, lakin sosial-iqtisadi münasibətləri köməklə təsvir edir. | Çin dövlətinin yaranması, idarəetmə qaydaları və sosial münasibətləri təsvir edir. | Çin dövlətinin yaranması, idarəetmə qaydaları və sosial-iqtisadi münasibətləri haqqında zəngin məlumat toplayır və təsvir edir. |
| Sin Şixuandinin Çin hökmdarı olduğunu bilir, lakin onu tarixi şəxsiyyət kimi müəyyən edə bilmir. | Sin Şixuandini köməklə tarixi şəxsiyyət kimi müəyyən edir. | Sin Şixuandini tarixi şəxsiyyət kimi müəyyən edir. | Sin Şixuandi haqqında geniş məlumat toplayır və tarixi şəxsiyyət kimi asanlıqla müəyyən edir. |
| Çin mədəniyyətinə dair məlumat toplayır, lakin təqdim edə bilmir. | Çin mədəniyyətinə dair məlumat toplayır, köməklə təqdim edir. | Çin mədəniyyətinə dair məlumat toplayır, təqdim edir. | Çin mədəniyyətinə dair zəngin məlumat toplayır, sərbəst təqdim edir. |

# 16. QƏDİM HİNDİSTAN

**Standartlar:** 2.1.1.; 3.1.1.; 4.1.1.
**Məqsəd:**
1. Hindistan dövlətinin yaranması və inkişaf amillərini təsvir edir;
2. Qədim Hindistanda idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri müəyyən edir;
3. Tarixi şəxsiyyət kimi Aşokanın Hindistan tarixində rolunu təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t. 2.1.1.; 4.1.1.; Ə. 2.1.3.
**Resurslar:** xəritə, paylayıcı material, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:**




– Bu xəritə və illüstrasiyalar hansı dövlətin tarixindən bəhs edir? Bu dövlət haqqında nə bilirsiniz?

Müəllim mühazirə üsulundan istifadə edir.

Şagirdlərə paylayıcı materiallar verilir.

***Tədqiqat sualı:*** Asiya qitəsinin cənubunda meydana gələn Hindistan dövləti hansı inkişaf xüsusiyyətləri ilə seçilirdi?

Qruplara iş vərəqində aşağıdakı sual və tapşırıqlar verilir:

**I qrup –** Hindistanda vahid dövlətin meydana gəlməsində Aşokanın rolunu müəyyənləşdirin.

**II qrup –** Hindistanda insanların kastalara bölünməsini və onun sosial həyata təsirini izah edin.

**III qrup –** Hindistan memarlığının inkişaf xüsusiyyətlərini izah edin.

**IV qrup –** Hindistanın dünya mədəniyyətinə verdiyi töhfələri müəyyən edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Tapşırıq tam yerinə yetirilib | Əməkdaşlıq | Faktların əhatəliyi və dəqiqliyi | Təqdimat | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Hindistanın təbii-coğrafi şəraiti, Hind və Qanq çaylarının, faydalı qazıntıların mövcudluğunun insanların təsərrüfat həyatına, mədəniyyətinin inkişafına təsiri, insanların kastalara bölünməsi, vahid dövlətin yaranması, Makedoniyalı İskəndərin uğursuz yürüşü, mədəniyyətdə olan yeni uğurlar, dini təlim haqqında və s. biliklər mənimsənilir.

***Yaradıcı tətbiqetmə:*** "Hindistanın dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi incilər" adlı cədvəl tərtib edin.

***Ev tapşırığı:*** Aşoka haqqında məlumat toplayın və mətn tərtib edin.

***Refleksiya və qiymətləndirmə:***
***Qiymətləndirmə meyarları:***
1) izahetmə;
2) təsviretmə;
3) müəyyənləşdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qədim Hindistan haqqında təsəvvürləri vardır, lakin dövlətin yaranması və inkişaf amillərini izah edə bilmir. | Qədim Hindistanda dövlətinin yaranması və inkişaf amillərini köməklə izah edir. | Qədim Hindistanda dövlətin yaranması və inkişaf amillərini izah edir. | Qədim Hindistanda dövlətin yaranması və inkişaf amillərini zəngin məlumat, xəritə əsasında izah edir. |
| Qədim Hindistanda əhalinin kastalara bölündüyünü bilir, lakin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edə bilmir. | Qədim Hindistanda idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri köməklə təsvir edir. | Qədim Hindistanda idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir. | Qədim Hindistanda idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri çoxsaylı faktlarla təsvir edir. |
| Aşokanın Hindistan dövlətinə başçılıq etdiyini bilir, lakin onu tarixi şəxsiyyət kimi müəyyənləşdirə bilmir. | Köməklə Aşokanı tarixi şəxsiyyət kimi müəyyən edə bilir. | Aşokanı tarixi şəxsiyyət kimi müəyyən edə bilir. | Tarixi şəxsiyyət kimi Aşokanın Hindistan tarixində oynadığı rolu mənbələr əsasında müəyyənləşdirir. |

# QƏDİM YUNANISTAN

## 17. AVROPADA ƏN QƏDİM DÖVLƏT. QƏDİM YUNAN ŞƏHƏR-DÖVLƏTLƏRİ

**Standartlar:** 3.1.1.; 4.1.1.
**Məqsəd:**
1. Yunan şəhər-dövlətlərinin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir;
2. Solonun Yunanıstan tarixində rolunu müəyyənləşdirir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t. 3.1.1.; 4.1.1.; H-b. 2.1.1.; 2.1.2.; 2.2.1.; Az-d. 2.2.3.
**Resurslar:** xəritə, dərslik, illüstrasiyalar, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:**






– Gördüyünüz bu şəkillər, sizcə, hansı dövlətə, hansı mədəniyyətə aiddir?
– Bu barədə nə bilirsiniz?
Müəllim mühazirə üsulundan istifadə edir. Məqsəd şagirdlərin təsəvvürlərini genişləndirmək, zənginləşdirməkdir.

***Tədqiqat sualı:*** Yunanıstanda ilkin sivilizasiya və şəhər-dövlətlər nə zaman və necə yarandı?

Suala cavab tapmaq üçün qruplarla iş aşağıdakı tapşırıqlar əsasında aparılır:

**I qrup –** Krit və Mikena mədəniyyətlərini dəyərləndirin. Yunanıstan tarixində rolunu təsvir edin. Mövcud olduğu dövrü zaman oxunda qeyd edin.

<table>
<tr><th colspan="30">Qədim dövr</th></tr>
<tr><th colspan="24">Minilliklər</th><th colspan="6">Əsrlər</th></tr>
<tr><td>24</td><td>23</td><td>22</td><td>21</td><td>20</td><td>19</td><td>18</td><td>17</td><td>16</td><td>15</td><td>14</td><td>13</td><td>12</td><td>11</td><td>10</td><td>9</td><td>8</td><td>7</td><td>6</td><td>5</td><td>4</td><td>3</td><td>2</td><td>1</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td></tr>
<tr><th colspan="24">Eradan əvvəl<br>(e.ə.)</th><th colspan="6">Bizim era<br>(b.e.)</th></tr>
</table>

**II qrup –** Solonun Yunanıstan tarixində yerini müəyyənləşdirin.

**III qrup –** Yunan şəhər-dövlətlərində idarəetmə qaydalarını və sosial-iqtisadi münasibətləri təsvir edin.

**IV qrup –** Sparta şəhər-dövlətinin yaranmasını, idarəetmə qaydasını təsvir edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər. Cavablar oxunur.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Təqdimat | Əməkdaşlıq | Faktların əhatəliyi və dəqiqliyi | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Yunanıstanda qədim Krit, Mikena mədəniyyətlərinin, şəhər-dövlətlərin yaranması, idarəetmə, aristokrat və demos arasında mübarizə, dorilərin Lakonika və Messeniyanı ələ keçirmələri, Sparta dövlətinin yaranması şagirdlər tərəfindən mənimsənilir.

***Yaradıcı tətbiqetmə:*** “Afina demosunun həyatı” adlı mətn tərtib edin.

***Ev tapşırığı:*** Cədvəli tamamlayın:

| Yunanıstan tarixində baş vermiş ən mühüm hadisələr | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Hansı tayfalar yaşamışlar** | **Hansı qitədə yerləşir** | **Ən qədim mədəniyyətlər** | **Yunan şəhər-dövlətləri** | **Varlılar adlanırdı** | **Kasıblar adlanırdı** | **İdarə üsulu** | **Afinada bütün məsələləri həll edirdi (VII əsr)** | **Hərbi başçı adlanırdı** | **Dorilərin Cənubi Yunanıstanda tutduqları vilayətlər** | **Demosla aristokratları barışdırdı** |
| | | | | | | | | | | |

***Refleksiya və qiymətləndirmə:***
***Qiymətləndirmə meyarları:***
1) təsviretmə;
2) müəyyənləşdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yunan şəhər-dövlətlərini tanıyır. | Yunan şəhər-dövlətlərinin yaranmasını şərh edir, idarəetmə qaydalarını köməklə təsvir edir. | Yunan şəhər-dövlətlərinin yaranması, idarəetmə qaydalarını təsvir edir. | Yunan şəhər-dövlətlərinin yaranması, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri çoxsaylı faktlarla təsvir edir. |
| Tarixi şəxsiyyət olan Solon haqqında məlumat toplayır. | Köməklə tarixi şəxsiyyət kimi Solonun Yunanıstan tarixində oynadığı rolu müəyyən edir. | Tarixi şəxsiyyət kimi Solonun Yunanıstan tarixində oynadığı rolu əsasən müəyyən edir. | Zəngin məlumat toplayaraq tarixi şəxsiyyət olan Solonun Yunanıstan tarixində oynadığı rolu müəyyən edir. |

## 18. YUNANLAR İŞĞALÇILARA QARŞI. AFİNA QULDARLIQ DEMOKRATİYASI

**Standartlar:** 1.1.3.; 3.1.1.; 4.1.2.
**Məqsəd:**
1. Yunanıstanda baş vermiş mühüm hadisələrin xronoloji çərçivələrini müəyyən edir;
2. Dövlətin yaranması, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir;
3. Mənbələr əsasında tarixi şəxsiyyətlər haqqında məlumatlar toplayır və təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t.3.1.1.; 4.1.2.
**Resurslar:** xəritə, dərslik, illüstrasiyalar, iş vərəqləri

**Dərsin mərhələləri**

**Motivasiya:**
Müəllim sinfə müraciətlə soruşur: "Marafon qaçışı" idman yarışı haqqında nə bilirsiniz?




Şagirdlərin fərziyyələri dinlənilir. Marafon qaçışının uzaq məsafələrə qaçış üzrə yarış olması qənaətinə gəlinir.

Müəllim şagirdlərə müraciət edir: – Biz bugünkü mövzunu öyrənəndə həm də bu yarışın tarixi haqqında, onun necə yaranması barədə məlumat alacağıq. Çünki Marafon qaçışı tarixi bir hadisə ilə bağlı yaranmışdır.

***Tədqiqat sualı:*** E.ə. V əsrdə Yunanıstan Aralıq dənizi hövzəsində hakim dövlətə necə çevrildi?

Tədqiqat sualına cavab axtarmaq üçün qruplara müraciət olunur.

Aşağıdakı suallar və tapşırıqlar onlara verilən iş vərəqində əks olunur.

**I qrup –** Aralıq dənizi və Qara dəniz sahillərində yaranan yunan koloniyalarını təsvir edin.

**II qrup –** Marafon döyüşünü təsvir edin. Fermopil keçidinin tutulmasının nəticəsini müəyyən edin. (Xəritə ilə iş)

**III qrup –** Salamin və Plateya döyüşünün nəticəsinin yunan şəhər-dövlətlərinin həyatında oynadığı rolu müəyyən edir.
Zaman oxu üzərində yunan–Əhəməni müharibələrinin baş verdiyi dövrü qeyd edin.

| Qədim dövr | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Minilliklər | | | | | | | | | | | | | | | | | | | | | | | | Əsrlər | | | | | |
| 24 | 23 | 22 | 21 | 20 | 19 | 18 | 17 | 16 | 15 | 14 | 13 | 12 | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Eradan əvvəl (e.ə.) | | | | | | | | | | | | | | | | | | | | | | | | Bizim era (b.e.) | | | | | |

**IV qrup –** E.ə. V əsrdə Yunanıstanda idarəetmə. Təsvir edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Təqdimat | Əməkdaşlıq | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Şagirdlər mənimsədilər ki, yunanlar yeni torpaqlarda məskunlaşaraq Qara dənizdən İspaniyaya qədər ərazidə koloniyalar saldılar. Yu-

nan–İran müharibələri baş verdi. Bu müharibələrdə vətənə məhəbbət, vətən torpağını qorumaq, yadlara verməmək hissi, yunan donanmasının üstünlükləri onun qələbə çalması ilə nəticələndi. Yunanıstan hərbi dəniz ittifaqı, Afinanın qüdrəti e.ə. V əsrdə yüksəlmişdi.

***Yaradıcı tətbiqetmə:*** Perikl haqqında mətn tərtib edin.

***Ev tapşırığı:*** İnternet materialları və digər mənbələr əsasında "Yunan–Əhəməni müharibələri" haqqında material toplayın.

***Refleksiya və qiymətləndirmə:***

***Qiymətləndirmə meyarları:***

1) müəyyənetmə;
2) təsviretmə;
3) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yunanıstanda baş vermiş hadisələrin baş verməsini bilir, lakin onların xronoloji çərçivələrini müəyyən edə bilmir. | Yunanıstanda baş vermiş hadisələrin xronoloji çərçivələrini köməklə müəyyən edir. | Yunanıstanda baş vermiş hadisələrin xronoloji çərçivələrini çətinliklə müəyyən edir. | Yunanıstanda baş vermiş hadisələrin xronoloji çərçivələrini müəyyən edir. |
| Afina şəhər-dövlətin yaranmasını bilir, lakin idarə edilməsi qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edə bilmir. | Afina şəhər-dövlətin yaranması, idarə edilməsi qaydalarını şərh edir, sosial-iqtisadi münasibətləri köməklə təsvir edir. | Afina şəhər-dövlətin yaranması, idarə edilməsi qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir. | Afina şəhər-dövlətin yaranması, idarə edilməsi qaydaları, sosial-iqtisadi münasibətləri faktlarla təsvir edir. |
| Perikl haqqında məlumat toplayır, amma təqdim edə bilmir. | Perikl haqqında məlumat toplayır və köməklə təqdim edir. | Perikl haqqında məlumatları toplayır və əsasən təqdim edir. | Perikl haqqında zəngin məlumatları toplayır və sərbəst təqdim edir. |

# 19. QƏDİM YUNANISTAN MƏDƏNİYYƏTİ

**Standartlar:** 5.1.3.
**Məqsəd:**
1. Qədim yunan mədəniyyətinə dair məlumat toplayır və təqdim edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, müzakirə
**İnteqrasiya:** Az-t. 5.1.3. Ə. 3.1.2.
**Resurslar:** İKT, dərslik, xəritə, iş vərəqləri

**Dərsin mərhələləri**
**Motivasiya:**









Teatr, skena, dekorasiya, orkestr, komediya, tragediya, akropol, aqora, dorik, ionik, botanika, fizika, Olimpiya oyunları

– Bu illüstrasiyalar və sözlər haqqında nə deyə bilərsiniz?

Şagirdlərin fərziyyələri dinlənilir. Sözlərin və illüstrasiyaların qədim yunan mədəniyyəti ilə bağlı olması qənaətinə gəlinir.

***Tədqiqat sualı:*** Yunan mədəniyyəti dünya mədəniyyəti xəzinəsinə hansı töhfələri vermişdir?

Qruplarla iş aparılır. İş vərəqində aşağıdakı suallar əks olunur:

**I qrup –** "Yunanıstanda din" məlumat toplayın və təqdim edin.

**II qrup –** "Teatrın ilk vətəni Yunanıstan sayılır" araşdırın və təqdim edin.

**III qrup –** Yunan memarlığı, heykəltəraşlığı və rəssamlığı haqqında məlumat toplayın, təqdim edin.

**IV qrup –** Olimpiya yarışları haqqında məlumat toplayın və təqdim edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Əməkdaşlıq | Faktların əhatəliyi və dəqiqliyi | Təqdimat | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Şagirdlər e.ə. V əsrdə Yunanıstanda məktəb, elm, incəsənət, memarlıq – şəhər mədəniyyətinin inkişafında olan böyük uğurlar, bu mədəniyyət və sivilizasiyanın digər dövlətlər tərəfindən mənimsənilməsi, yazı, teatr, memarlıq, Olimpiya oyunları barədə məlumat toplayır və təqdim edirlər.

***Yaradıcı tətbiqetmə:*** "Olimpiya oyunları". Verilmiş şəkillər əsasında hekayə qurun.





***Ev tapşırığı:***

***Xronoloji məsələləri həll edin.***

1. "İliada" və "Odisseya" poemalarının yaranması ilə qələmə alınması arasından ötən zamanı hesablayın.
2. İlk yunan tamaşalarının yarandığı mühiti təsvir edin.
3. Yunanıstanda bu gün tarix elminin neçə yaşı olduğunu hesablayın.
4. İlk Olimpiya oyunlarının keçirilməsindən neçə il ötdüyünü hesablayın.
5. Yunanıstan tarixində baş vermiş Olimpiya oyunlarının keçirildiyi vaxtı zaman oxunda qeyd edin.

<table>
<tr><th colspan="30">Qədim dövr</th></tr>
<tr><th colspan="24">Minilliklər</th><th colspan="6">Əsrlər</th></tr>
<tr><td>24</td><td>23</td><td>22</td><td>21</td><td>20</td><td>19</td><td>18</td><td>17</td><td>16</td><td>15</td><td>14</td><td>13</td><td>12</td><td>11</td><td>10</td><td>9</td><td>8</td><td>7</td><td>6</td><td>5</td><td>4</td><td>3</td><td>2</td><td>1</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td></tr>
<tr><td colspan="24">Eradan əvvəl<br>(e.ə.)</td><td colspan="6">Bizim era<br>(b.e.)</td></tr>
</table>

***Refleksiya və qiymətləndirmə:***
***Qiymətləndirmə meyarları:***
1) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qədim yunan mədəniyyəti haqqında məlumat toplayır, amma təqdim edə bilmir. | Qədim yunan mədəniyyəti haqqında məlumat toplayır, köməklə təqdim edir. | Qədim yunan mədəniyyəti haqqında məlumat toplayır və təqdim edir. | Qədim yunan mədəniyyəti haqqında zəngin məlumat, çoxsaylı illüstrasiyalar toplayır və asanlıqla təqdim edir. |

# 20. YUNAN ŞƏHƏR-DÖVLƏTLƏRİNİN TƏNƏZZÜLÜ. MAKEDONİYA DÖVLƏTİNİN GÜCLƏNMƏSİ

**Standartlar:** 1.1.2.; 4.1.1.; 5.1.2.
**Məqsəd:**
1. Yunan şəhər-dövlətlərinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir;
2. Tarixi şəxsiyyət – Makedoniyalı İskəndərin tarixdə oynadığı rolu müəyyənləşdirir;
3. Yunan mədəniyyətinin Şərq ölkələrində mədəniyyətin inkişafına təsirinə münasibət bildirir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə, söz assosiasiyası
**İnteqrasiya:** Az-t. 3.1.1.
**Resurslar:** xəritə, dərslik, iş vərəqi

**Dərsin mərhələləri**
**Motivasiya:**



| E.ə. 331 | E.ə. 330 | E.ə. 323 |
|---|---|---|

Azərbaycan tarixi dərslərindən bu tarixlərdə baş vermiş hadisələri xatırlayın. Bu şəkil və tarixlər nəyi ifadə edir? Şagirdlərin cavabları dinlənilir. Şəkildə təsvir olunanların və tarixi hadisələrin Makedoniyalı İskəndərlə bağlı olması müəyyən edilir.

***Tədqiqat sualı:*** Makedoniyalı İskəndər imperiyası necə yarandı?

Tədqiqat aparmaq üçün şagirdlər qruplara ayrılır:

**I qrup** – Yunan şəhər-dövlətlərinin tənəzzül edib Makedoniyanın hakimiyyəti altına düşməsini şərh edin.
**II qrup** – Makedoniyalı İskəndərin Şərq yürüşü barədə danışın.
**III qrup** – İskəndər ordusu tərəfindən tutulan ölkələri müəyyən edin.
**IV qrup** – İskəndəriyyə şəhərini təsvir edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Müzakirələr sona çatanda müəllim şagirdlərə aşağıdakı sualları cavablandırmağı təklif edə bilər:

1. Əhəmənilər və Makedoniyalı İskəndər imperiyalarını xəritədə göstərin.
2. Tarixi şəxsiyyət kimi İskəndəri xarakterizə edin.
3. İskəndər imperiyası ərazisində mədəniyyət və mədəniyyətlərarası əlaqələrdən nə deyə bilərsiniz? Meyarlar əsasında qruplar qiymətləndirilir.

| **Qruplar** | **Əmək-daşlıq** | **Təqdimat** | **Mənbələrdən düzgün istifadə** | **Tapşırıqların vaxtında yerinə yetirilməsi** | **Nəticə** |
|---|---|---|---|---|---|
| **I** | | | | | |
| **II** | | | | | |
| **III** | | | | | |
| **IV** | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Şagirdlər mənimsədilər ki, yunan şəhər-dövlətləri bir vaxt öz aralarında ittifaq yaradaraq Əhəmənilərə qalib gəlmişdilərsə, indi onlar arasındakı rəqabət və müharibələr dövlətlərin zəifləməsinə və onların Makedoniya tərəfindən işğalına səbəb olmuşdur. Sonra digər torpaqlar – Finikiya, Misir, Mesopotamiya, Əhəməni torpaqları və Hindistana qədər olan ərazilər Makedoniyalı İskəndərin yaratdığı imperiyaya qatıldı.

İskəndər imperiyasının tərkibinə qatılan ölkələrə yunan mədəniyyətinin müsbət təsiri oldu.

***Yaradıcı tətbiqetmə:*** Makedoniyalı İskəndər, Qranik–İss–Qavqamel döyüşləri, İskəndəriyyə mayakı, musey, perqament sözlərindən istifadə edərək mətn tərtib edin.

***Ev tapşırığı:*** Əhəmənilər imperiyası və Makedoniyalı İskəndər imperiyasının yaranması və süqut etməsi səbəblərini göstərən cədvəli tamamlayın.

| **İmperiyalar** | **Yarandı** | **Süqut etdi** |
|---|---|---|
| | | |

***Refleksiya və qiymətləndirmə:***
***Qiymətləndirmə meyarları:***
1) fərqləndirmə;
2) müəyyənləşdirmə;
3) münasibət bildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yunan şəhər-dövlətləri haqqında bilir, yaranması və tənəzzül dövrlərini fərqləndirə bilmir. | Yunan şəhər-dövlətlərinin inkişafını, şərh edir, tənəzzül dövrlərini çətinliklə fərqləndirir. | Yunan şəhər-dövlətlərinin inkişafını, tənəzzül dövrlərini fərqləndirir. | Çoxsaylı faktlarla yunan şəhər-dövlətlərinin inkişafını və tənəzzül dövrlərini asanlıqla fərqləndirir. |
| Tarixi şəxsiyyət olan İskəndər haqqında məlumatı vardır, lakin onun tarixdə rolunu müəyyənləşdirə bilmir. | Makedoniyalı İskəndər haqqında məlumatı toplayıb şərh edir, lakin onun tarixdə oynadığı rolu köməklə müəyyən edir. | Makedoniyalı İskəndər haqqında məlumat əsasında onun tarixdə rolunu müəyyən edir. | Makedoniyalı İskəndər haqqında zəngin məlumat və xəritə əsasında onun tarixdə rolunu asanlıqla müəyyən edir. |
| Yunan mədəniyyəti barədə məlumatı vardır, lakin onun Şərq ölkələrinə təsirinə münasibət bildirə bilmir. | Yunan mədəniyyətinin Şərq ölkələrinə təsirinə köməklə münasibət bildirir. | Yunan mədəniyyətinin Şərq ölkələrinin mədəniyyətinə təsirinə münasibət bildirir . | Faktlarla yunan mədəniyyətinin Şərq ölkələrində mədəniyyətin inkişafına müsbət təsirini qeyd etməklə sərbəst münasibət bildirir. |

# QƏDİM ROMA

## 21. QƏDİM ROMA RESPUBLİKASININ YARANMASI (1-ci dərs)

**Standartlar:** 2.1.1.; 3.1.1.
**Məqsəd:**
1. Roma dövlətinin yaranması və inkişaf amillərini izah edir;
2. Roma dövlətinin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir.

**Təlim forması:** kollektiv və qruplarla işi
**Təlim üsulu:** beyin həmləsi, müzakirə
**İnteqrasiya:** Az-t. 3.1.1.
**Resurslar:** İKT, xəritə, dərslik, iş vərəqi

**Dərsin mərhələləri**
**Motivasiya:**

– Verilmiş xəritə və illüstrasiyalar sizə nə söyləyir? Onlar hansı dövlətin tarixindən danışır? Onlar haqqında nə deyə bilərsiniz?














***Tədqiqat sualı:*** Roma dövləti necə imperiyaya çevrildi?

Bu tədqiqat sualına cavab tapmaq üçün şagirdlər qruplara bölünür.

***Tədqiqatın aparılması:*** Müəllim mühazirə üsulundan istifadə edir, şagirdlərin biliyini zənginləşdirir.

Tədqiqat materialları paylayır.

**I qrup –** Roma dövlətinin yaranmasını təsvir edin.
**II qrup –** Roma padşahlığı dövründə idarəetmə. Təsvir edin.
**III qrup –** Respublika dövründə Romanın idarə olunmasını təsvir edin.
**IV qrup –** Pun müharibələri və onun nəticələrini izah edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Bu mərhələdə müəllim yeni bilikləri möhkəmləndirmək məqsədi ilə kollektivə müraciətlə aşağıdakı sualları verə bilər.

1. Qədim Romanın şahlıq, respublika, imperiyaya çevrildiyi dövrləri zaman oxunda göstərin.

<table>
<tr><th colspan="30">Qədim dövr</th></tr>
<tr><th colspan="24">Minilliklər</th><th colspan="6">Əsrlər</th></tr>
<tr><td>24</td><td>23</td><td>22</td><td>21</td><td>20</td><td>19</td><td>18</td><td>17</td><td>16</td><td>15</td><td>14</td><td>13</td><td>12</td><td>11</td><td>10</td><td>9</td><td>8</td><td>7</td><td>6</td><td>5</td><td>4</td><td>3</td><td>2</td><td>1</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td></tr>
<tr><td colspan="24">Eradan əvvəl<br>(e.ə.)</td><td colspan="6">Bizim era<br>(b.e.)</td></tr>
</table>

2. Xəritədə İtaliyanı təsvir edin.
3. Patrisi və plebeylər kimlər idilər və onlar arasında mübarizə nə ilə nəticələndi? İzah edin.
4. Xəritədə Romanın istila etdiyi əraziləri – Karfagen, Sardiniya, Korsika, Suriya, Makedoniya və Yunanıstanı göstərin.
5. Patrisi, senat, veto, legion sözlərini izah edin.

Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Təqdimetmə | Əməkdaşlıq | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Roma dövlətinin coğrafi məkanı, yaranması, onun padşahlıq, respublika quruluşu dövrü, işğalçılıq müharibələri, imperiyaya xas xüsusiyyətləri şagirdlər tərəfindən mənimsənilir.

***Yaradıcı tətbiqetmə:*** "Romanın işğalçı müharibələri" – kiçik mətn tərtib edin.

***Ev tapşırığı:*** "Triumf" haqqında material toplayın.

***Refleksiya və qiymətləndirmə:***
***Qiymətləndirmə meyarları:***
1) izahetmə;
2) təsviretmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Roma dövləti haqqında məlumatı vardır, lakin onun inkişaf amillərini izah edə bilmir. | Roma dövlətinin yaranmasını sərbəst şərh edir, lakin köməklə inkişaf amillərini izah edir. | Roma dövlətinin yaranması və inkişaf amillərini əsasən izah edir. | Zəngin məlumatlar və xəritə əsasında Roma dövlətinin yaranması və inkişaf amillərini izah edir. |
| Roma dövlətinin idarəetmə qaydalarını bilir, sosial-iqtisadi münasibətləri təsvir edə bilmir. | Roma dövlətinin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini köməklə təsvir edir. | Roma dövlətinin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir. | Roma dövlətinin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini zəngin məlumatla təsvir edir. |

# 21. QƏDİM ROMA RESPUBLİKASININ YARANMASI (2-ci dərs)

**Standartlar:** 2.1.2.; 4.1.1.; 4.1.2.
**Məqsəd:**
1. Tarixi şəxsiyyətlərin (Tiberi Qrakx, Qay Qrakx qardaşları, Spartakın) Roma tarixində rolunu müəyyənləşdirir;
2. Mənbələr əsasında xalq tribunları Qrakx qardaşları və Romada qullar üsyanının başçısı olmuş Spartak haqqında məlumat toplayıb təqdim edir;
3. Təbii-coğrafi şəraiti əks etdirən xəritə əsasında Spartak üsyanının baş verdiyi tarixi məkanı təsvir edir.

**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə, müzakirə
**İnteqrasiya:** Az-t. 2.1.1.; 3.1.1.; 4.1.1.
**Resurslar:** İKT, xəritə, dərslik, iş vərəqi

**Dərsin mərhələləri**





**Motivasiya:**
– Bu illüstrasiyaları nəzərdən keçirin.
– Onlar kimdir? Haqqında nə bilirsiniz? – İkinci təsvir hansı hadisələri əks etdirir?
Müəllimin kiçik mühazirəsi dinlənilir. Tədqiqat materialları paylanır.
***Tədqiqat sualı:***
– Romada əhalinin sosial-iqtisadi vəziyyəti necə idi?
Tədqiqat sualına cavab tapmaq üçün şagirdlər qruplara bölünür. Aşağıdakı tapşırıqlar əsasında qruplar tədqiqata başlayır:
**I qrup –** Romada qulların vəziyyətini müəyyənləşdirin.
**II qrup –** Romada torpaq qanunlarının verilməsində Tiberi Qrakx, Qay Qrakx qardaşlarının rolunu müəyyən edin.
**III qrup –** Romada qulların üsyanının səbəb-nəticələrini müəyyən edin.
**IV qrup –** Spartak haqqında təqdimat hazırlayın.
***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər. Cavablar oxunur.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| **Qruplar** | **Təqdimetmə** | **Əmək-daşlıq** | **Mənbələrdən düzgün istifadə** | **Tapşırıqların vaxtında yerinə yetirilməsi** |
|---|---|---|---|---|
| **I** | | | | |
| **II** | | | | |
| **III** | | | | |
| **IV** | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Şagirdlər Romada əhalinin, qulların, kəndlilərin vəziyyətini, torpaq qanunlarını, Spartakın başçılığı ilə olan üsyanı, məğlubolma səbəblərini mənimsədilər.

***Yaradıcı tətbiqetmə:*** *Triumf, qladiator, arena, tribuna* sözlərindən istifadə edərək mətn tərtib edin.

***Ev tapşırığı:*** Xəritə üzərində Spartak üsyanı, Spartakın keçdiyi yolları (mənbələr əsasında) təsvir edin.

***Refleksiya və qiymətləndirmə:***

***Qiymətləndirmə meyarı:***

1) müəyyənləşdirmə; 2) təqdimetmə; 3) təsviretmə.

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Roma tarixində mühüm rol oynamış Qrakx qardaşlarını, Spartakı tanıyır, lakin onların tarixi rolunu müəyyənləşdirə bilmir. | Qrakx qardaşları və Spartakın Roma tarixindəki rolunu köməklə müəyyənləşdirir. | Qrakx qardaşları və Spartakın Roma tarixində rolunu müəyyən edir. | Zəngin faktlarla Tiberi Qrakx, Qay Qrakx və Spartakın Roma tarixində rolunu asanlıqla müəyyənləşdirir. |
| Mənbələr əsasında xalq tribunları Qrakx qardaşları və Spartak haqqında məlumat toplayır, lakin təqdim edə bilmir. | Spartak haqqında məlumat toplayıb, təqdimat edir. | Qrakx qardaşları və Spartak haqqında məlumat toplayır, təqdimat edir. | Çoxsaylı mənbələr əsasında xalq tribunları Qrakx qardaşları və Spartak haqqında məlumat toplayır və sərbəst təqdimat edir. |
| Spartak üsyanının İtaliya yarımadasında baş verdiyini bilir, lakin məkanı dəqiq təsvir edə bilmir | Spartak üsyanının baş verdiyi məkanı xəritədə köməklə təsvir edir. | Spartak üsyanının baş verdiyi tarixi məkanı xəritədə təsvir edir. | Spartak üsyanının baş verdiyi tarixi hadisələri şərh edərək məkanları xəritədə təsvir edir. |

## 22. RESPUBLİKANIN SONU. ROMA İMPERİYASININ YARANMASI VƏ SÜQUTU

**Standartlar:** 1.1.2.; 4.1.1.
**Məqsəd:**
1. Roma dövlətinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir.
2. Tarixi şəxsiyyətlərin (Y.Sezar, O.Avqust, Konstantin) Roma tarixində rolunu müəyyənləşdirir.
**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t. 2.1.1.; 4.1.1.
**Resurslar:** İKT, xəritə, dərslik, iş vərəqi, tədqiqat materialları

**Dərsin mərhələləri**

**Motivasiya:** – Bu illüstrasiyalar hansı dövlətin tarixi haqqında sizə məlumat verir? Onlar haqqında nə bilirsiniz?











Müəllim mühazirə üsulundan istifadə edir (məqsəd şagirdlərin biliklərini zənginləşdirməkdir).

Şagirdlərə tədqiqat aparmaq üçün materiallar paylanır.

***Tədqiqat sualı:*** Roma imperiyası necə yarandı və parçalandı?

Suala cavab vermək üçün qruplara müraciət olunur. Aşağıdakı tapşırıqlar əsasında iş vərəqləri qruplara paylanır.

**I qrup** – Roma dövlətinin inkişafı və tənəzzülü dövrlərini fərqləndirin.

**II qrup** – Yuli Sezarın Roma tarixindəki rolunu müəyyənləşdirin.

**III qrup** – Roma imperiyasının yaranması, inkişafı dövrlərini fərqləndirin. (Zaman oxu üzərində Roma şəhərinin salınmasını, Konstantinopolun paytaxt olmasını, imperiyanın parçalanması və Qərbi Roma imperiyasının süqutu dövrlərini qeyd edin.)

| Qədim dövr | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Minilliklər | | | | | | | | | | | | | | | | | | | | | | | | Əsrlər | | | | | |
| 24 | 23 | 22 | 21 | 20 | 19 | 18 | 17 | 16 | 15 | 14 | 13 | 12 | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Eradan əvvəl (e.ə.) | | | | | | | | | | | | | | | | | | | | | | | | Bizim era (b.e.) | | | | | |

**IV qrup** – Roma imperiyasının parçalanmasında Oktavian Avqust və Konstantinin rolunu müəyyənləşdirin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər. Cavablar oxunur.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Əməkdaşlıq | Faktların əhatəliyi və dəqiqliyi | Təqdimetmə | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|---|---|
| I | | | | | | |
| II | | | | | | |
| III | | | | | | |
| IV | | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Sezarın hakimiyyəti ələ keçirməsi, Romada vətəndaş müharibəsi, Antoni və Oktavian arasında çəkişmə, Oktavianın qalib gəlməsi, Mark Trayan dövründə imperiyanın ərazisinin böyüyərək maksimum həddə çatması, imperiyaya çevrilmiş Roma dövlətinin parçalanması, ölkədə quldarlıq təsərrüfatının inkişafı, qotların, hunların və vandalların Romaya hücumu, Qərbi Romanın süqutu şagirdlər tərəfindən mənimsənilir.

***Yaradıcı tətbiqetmə:*** "Azərbaycan–Roma münasibətləri" haqqında mətn hazırlayın.

***Ev tapşırığı:*** Tarixi şəxsiyyətlərdən birinin (Yuli Sezar, Oktavian Avqust, Konstantin) İnternet materiallarından və digər mənbələrdən istifadə edərək Roma tarixindəki rolunu dəyərləndirin.

***Refleksiya və qiymətləndirmə:***

***Qiymətləndirmə meyarları:***

1) fərqləndirmə;
2) müəyyənləşdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Roma dövlətinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrləri haqqında məlumat verir. | Roma dövlətinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini çətinliklə fərqləndirir. | Roma dövlətinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirir. | Roma dövlətinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini Yunanıstanla müqayisə edərək asanlıqla fərqləndirir. |
| Y.Sezar, O.Avqust, Konstantin haqqında məlumatı vardır, lakin onları tarixi şəxsiyyət kimi müəyyən edə bilmir. | Y.Sezar, O.Avqust, Konstantinin Roma tarixindəki rolunu çətinliklə müəyyənləşdirir. | Y.Sezar, O.Avqust, Konstantinin Roma tarixindəki rolunu müəyyənləşdirir. | Y.Sezar, O.Avqust, Konstantinin fəaliyyətlərini müqayisə edərək Roma tarixindəki rollarını müəyyənləşdirir. |

# 23. QƏDİM ROMA MƏDƏNİYYƏTİ

**Standartlar:** 5.1.3.
**Məqsəd:**
1. Roma mədəniyyətinə dair məlumat toplayır və təqdim edir.
**Təlim forması:** kollektiv və qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mühazirə
**İnteqrasiya:** Az-t. 5.1.3.
**Resurslar:** İKT, xəritə, iş vərəqi, tədqiqat materialları

**Dərsin mərhələləri**
**Motivasiya:**

– Verilmiş bu şəkillər hansı xalqın mədəniyyətindən danışır? Bu barədə nə bilirsiniz?








Mühazirə üsulundan istifadə edilir. Müəllim mühazirə oxuyur. Roma mədəniyyətinə aid tədqiqat materialı paylayır.

***Tədqiqat sualı:*** Roma dünya mədəniyyəti xəzinəsinə nə bəxş etmişdi?

Tapşırıqlar verilir. Suala cavab axtarmaq üçün qruplar yaradılır. Onlara aşağıdakı tapşırıqlar verilir:

**I qrup** – Roma şəhərinin yaranma tarixi haqqında məlumat toplayın, təqdim edin.

**II qrup** – Roma memarlığı haqqında məlumat toplayın və təqdim edin.

**III qrup** – Romada ədəbiyyat və elmin inkişaf xüsusiyyətləri haqqında məlumat toplayın və təqdim edin.

**IV qrup –** Romada xristianlıq və onun yayılması haqqında məlumat toplayın və təqdimat edin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zamanda şagirdlər cavabları hazırlayır və təqdim edirlər. Cavablar oxunur.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Bu mərhələdə müəllim yeni bilikləri möhkəmləndirmək məqsədi ilə sinfə müraciətlə aşağıdakı sualları verə bilər:

1. Termlər nədir? Bu gün termlərdən hansı ölkələrdə istifadə olunur?
2. Roma mədəniyyəti ilə yunan mədəniyyəti arasında bir əlaqə varmı?
3. Romalıların yaratdıqları latın əlifbası haqqında nə söyləyə bilərsiniz?
4. Sezar dövründə tətbiq olunan təqvim haqqında nə deyə bilərsiniz?
5. Zaman oxu üzərində Roma şəhərinin yarandığı və xristianlığa Konstantinin açıq ibadət etməyə icazə verdiyi ili qeyd edə bilərsinizmi?

| **Qədim dövr** | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Minilliklər** | | | | | | | | | | | | | | | | | | | | | | | | **Əsrlər** | | | | | |
| 24 | 23 | 22 | 21 | 20 | 19 | 18 | 17 | 16 | 15 | 14 | 13 | 12 | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Eradan əvvəl (e.ə.)** | | | | | | | | | | | | | | | | | | | | | | | | **Bizim era (b.e.)** | | | | | |

Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Təqdimetmə | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Nəticə |
|---|---|---|---|---|
| I | | | | |
| II | | | | |
| III | | | | |
| IV | | | | |

***Ümumiləşdirmə və nəticə:*** E.ə. VIII əsrdə Romada şəhərsalma mədəniyyətinin inkişafı, burada memarlığın, heykəltəraşlığın, təsviri sənətin inkişafı, xristian dininin qəbul edilməsi, ən qədim sivilizasiyanın inkişaf xüsusiyyətləri şagirdlər tərəfindən mənimsənilir.

***Yaradıcı tətbiqetmə:*** "Romada xristianlıq" mövzusunda mətn hazırlayın.

***Ev tapşırığı:*** İnternet materiallarından və digər mənbələrdən istifadə edərək Roma mədəniyyəti haqqında məlumat toplayın və təqdimat hazırlayın.

***Refleksiya və qiymətləndirmə:***
***Qiymətləndirmə meyarları:***
1) təqdimetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Roma mədəniyyətinə dair məlumat toplayır, lakin təqdim edə bilmir. | Roma mədəniyyətinə dair məlumat toplayır və çətinliklə təqdimat edir. | Roma mədəniyyətinə dair məlumat toplayır və təqdimat edir. | Roma mədəniyyətinə dair zəngin məlumat, illüstrasiyalar toplayır və yunan mədəniyyəti ilə müqayisə apararaq sərbəst təqdimat edir. |

## DƏRS NÜMUNƏLƏRİ*

### *Mövzu: Qədim Misir dövləti*

***Standartlar:***

**1)** 1.1.1. – Tarixdə il hesabından istifadə edir;
**2)** 1.1.2. – Quldar dövlətlərin meydana gəlməsini, inkişafını və tənəzzülünü fərqləndirir;
**3)** 1.1.3. – Qədim Misirdə baş vermiş mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyən edir;
**4)** 2.1.1. – Qədim Misir dövlətinin yaranması və inkişaf amillərini izah edir;
**5)** 2.1.2. – Təbii-coğrafi şəraiti əks etdirən xəritə əsasında hadisələrin baş verdiyi tarixi məkanı – Misiri təsvir edir;
**6)** 3.1.1. – Misir dövlətinin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir;
**7)** 3.1.2. – Mənbələr əsasında qədim Misir dövləti ilə bağlı məlumatlar toplayır və təqdim edir;
**8)** 4.1.1. – Tarixi şəxsiyyətləri – I Tutmos, III Tutmos, II Ramzes müəyyənləşdirir;
**9)** 4.1.2. – Mənbələr əsasında qədim dövr tarixi şəxsiyyətlər – I Tutmos, III Tutmos, II Ramzes haqqında məlumatlar toplayır, təqdim edir.



***Təlim forması:*** qruplarla iş, fərdi iş
***Təlim üsulu:*** mühazirə, beyin həmləsi
***İnteqrasiya:*** Az.-t. 2.1.2.; 3.1.1.
***Resurslar:*** İKT, dərslik, xəritə, marker
***Motivasiya:*** Sinfə müraciət olunur:

– Xəritə və xəritə üzərindəki illüstrasiyalar haqqında nə deyə bilərsiniz? Onlar hansı dövlətin tarixi ilə bağlıdır?
– Onlar haqqında nə bilirsiniz?

Şagirdlərin fərziyyələri dinlənilir.

Müəllim mühazirə üsulu ilə şagirdlərin biliklərini zənginləşdirir. Müəllim tədqiqat materialı paylayır.

---

* Müəllif tərəfindən verilmiş bu dərs nümunələri tövsiyə xarakteri daşıyır. Müəllim öz strategiyasına uyğun müxtəlif formalarda verilmiş struktura uyğun (müəllimlər istədikləri standartları) seçə bilər.

***Tədqiqat sualı:*** Misir dövlətinin yaranması və inkişaf amilləri hansılardır?

Suala cavab vermək üçün qruplarla iş aparılır. Üzərində suallar olan iş vərəqi paylanılır:

**I qrup** – Misirin coğrafi mövqeyi və Nil çayı vadisinin ona hansı imkanları yaratdığını şərh edin.

**II qrup** – Misir dövlətinin yaranmasında nomların oynadığı rolu izah edin.

**III qrup** – Misir dövlətində idarəetmə. İzah edin.

**IV qrup** – Misirdə təsərrüfat sahələrinin inkişaf xüsusiyyətlərini araşdırın.

***Məlumatın mübadiləsi:*** Qruplar müəyyən olunmuş zaman kəsiyində cavabları hazırlayırlar. Tapşırıq yerinə yetirilir, təqdim olunur.

***Məlumatın müzakirəsi:*** Qruplar cavabları oxuyurlar. Müzakirə aparılır və əlavələr edilir. Qruplar meyarlar əsasında qiymətləndirilir.

| Qruplar | Qarşılıqlı dinləmə mədəniyyəti | Əməkdaşlıq | Faktların əhatəliyi və dəqiqliyi | Mənbələrdən düzgün istifadə | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Təqdimat | Nəticə |
|---|---|---|---|---|---|---|---|
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |

***Ümumiləşdirmə və nəticə:*** Müəllimin köməyi ilə şagirdlər qədim Misirin coğrafi mövqeyi, əhalisi, dövlətin yaranması, idarə olunması, fironların yürüşü, qonşu dövlətlərlə münasibəti araşdıraraq nəticəyə gəlirlər ki, Misir Şərqdə ən inkişaf etmiş və ilk quldar dövlət olmuşdur.

***Yaradıcı tətbiqetmə:*** 1. Misir ordusunu təsvir edin (sözlə, yaxud şəklini çəkərək).

2. Verilmiş sözlərdən istifadə edib hekayə qurun.

Misirdə əhali – fironlar, azad adamlar, kiçiklər, “canlı ölülər”, I Tutmos, III Tutmos, II Ramzes.

***Ev tapşırığı:*** Qədim Misir dövləti haqqında məlumat toplayın, Misir tarixində mühüm rol oynamış şəxsiyyətlərdən birini dəyərləndirin.

***Refleksiya və qiymətləndirmə:*** Şagirdlərin fərdi qiymətləndirmə meyarları

| № | **Şagirdlərin fərdi qiymətləndirmə meyarları** | **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|---|---|
| 1. | Tarixdə il hesabından **istifadəetmə** | | | | |
| 2. | Quldar dövlətlərin meydana gəlməsi, inkişafı və tənəzzülünü **fərqləndirmə** | | | | |
| 3. | Müxtəlif ölkələrdə (Qədim Misirdə) baş vermiş mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini **müəyyənetmə** | | | | |
| 4. | Ən qədim dövlətlərin yaranması və inkişaf amillərini **izahetmə** | | | | |
| 5. | Təbii-coğrafi şəraiti əks etdirən xəritə əsasında hadisələrin baş verdiyi tarixi məkanı **təsviretmə** | | | | |
| 6. | Qədim dövlətlərin (Misir) yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini **təsviretmə** | | | | |
| 7. | Mənbələr əsasında qədim dövlətlərlə bağlı (Misir) məlumat toplama və **təqdimetmə** | | | | |
| 8. | Tarixi şəxsiyyətləri (I Tutmos, III Tutmos, II Ramzes) **müəyyənləşdirmə** | | | | |
| 9. | Mənbələr əsasında qədim dövr tarixi şəxsiyyətləri haqqında məlumatlar toplama, **təqdimetmə** | | | | |

***Qeyd:*** Əziz müəllimlər, bu dərs nümunələrində verilmiş çoxsaylı standartlar reallaşdırıla biləcək standartlardır ki, siz onlardan istədiklərinizi tətbiq edə bilərsiniz.

## *Mövzu: Qədim Hindistan*

**Standartlar:** 3.1.1.; 4.1.1.; 5.1.1.
**Məqsəd:**
1. Hindistan dövlətinin yaranması, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir;
2. Hindistan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətləri müəyyən edir;
3. Hindistan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələri dəyərləndirir.

**Təlim forması:** kollektiv iş, qruplarla iş
**Təlim üsulu:** əqli hücum, Venn diaqramı, ideyalar xalısı, BİBÖ
**İnteqrasiya:** Az-t. 2.1.1.; 4.1.1.; Ə. 2.1.3.
**Resurslar:** xəritə, paylayıcı material, iş vərəqləri, dərslik
**Təchizat:** yapışqan, qayçı, rəngli kağızlar, marker

***Dərsin gedişi:***
***Motivasiya*** – 4 dəq.
***Tədqiqatın aparılması*** – 10 dəq.
***Məlumatın mübadiləsi*** – 10 dəq.
***Məlumatın müzakirəsi və təşkili*** – 5 dəq.
***Nəticə və ümumiləşdirmə*** – 5 dəq.
***Yaradıcı tətbiqetmə*** – 5 dəq.
***Qiymətləndirmə*** – 6 dəq.
***İnteqrasiya:*** ədəbiyyat, coğrafiya

***Motivasiya, problemin qoyuluşu:*** Əqli hücum üsulundan istifadə edərək şagirdlərə aşağıdakı suallarla müraciət edirəm: – Bu geyimlərin hansı xüsusiyyətləri var? – Bu geyimlərin ortaq cəhətlərini nədə görürsünüz? – Bu geyimlər hansı xalqların tarixini əks etdirir?







Sualın cavabını aldıqdan sonra aşağıdakı tədqiqat sualı ilə sinfə müraciət edirəm.

***Tədqiqat sualı:*** Qədim Hindistan hansı özünəməxsus cəhətləri ilə seçilir?

***Tədqiqatın aparılması:*** Müxtəlif rəngli kağızlardan istifadə etməklə sinfi kiçik qruplara bölür, BİBÖ cədvəlini asaraq Qədim Hindistan haqqında şagirdlərin nəyi bilib-bilmədiklərini öyrənmək üçün aşağıdakı sualları verir.

| **Bilirəm** | **İstəyirəm biləm** | **Öyrəndim** |
|---|---|---|
| | | |

1. Biz Qədim Hindistanın təbiəti, əhalisi və mədəniyyəti haqqında nə bilirik?
2. Biz Qədim Hindistan haqqında nəyi bilmək istəyirik?
3. Biz Qədim Hindistan haqqında nələri öyrəndik?

Müəllim qoyulmuş problemi həll etmək üçün əlavə materialları və eyni iş vərəqlərini 4 qrupa paylayır.

**1** **Mövcud problem**

*Kasta quruluşunun insan haqlarına zidd olduğunu sübut edin.*



3 dəq.

Müəllim problemin həllinə doğru irəliləmək üçün yeni rəngli yarpaqları 4 qrupa paylayır.

**2** **Problemin həllinə doğru**

*Kasta quruluşu Qədim Hindistanın inkişafına necə mane olurdu?*



3 dəq.

Müəllim 3-cü mərhələdə şagirdlərin təklifini almaq üçün yeni rəngli yarpaqları 4 qrupa paylayır və sonda ən gözəl ideya olan yarpaqları saxlayaraq xalını yaradır.

**3** **Təkliflər:**

*Siz kasta quruluşuna qarşı nə təklif edərdiniz?*



3 dəq.

**4** **Mövcud problem**

*Buddizm təlimi kasta quruluşuna təsir göstərə bilərdimi?*



3 dəq.

***Məlumatın mübadiləsi:*** Qruplar öz işlərini təqdim edir, iş vərəqləri lövhədən asılır və təqdimat keçirilir.

***Məlumatın müzakirəsi və təşkili:*** Tədqiqatdan sonra müəllim cavabları ümumiləşdirir və sinfə aşağıdakı suallarla müraciət edir:

– Ari tayfalarının yürüşü Qədim Hindistanın iqtisadi vəziyyətinə necə təsir etdi?

– Qədim Hindistanda vahid dövlətin yaranması ilə hansı dəyişikliklər baş verdi?

– Qədim hindlilər elmə hansı töhfələri bəxş etmişlər?

– Padşah Aşokanın dövründə Qədim Hindistanın tarixində hansı dəyişikliklər baş vermişdi?

***Ümumiləşdirmə və nəticələrin çıxarılması:*** Müəllim şagirdlərin diqqətini yenidən tədqiqat sualına yönəldərək müzakirəni ümumiləşdirir, Hindistanın qədim dövlətçilik ənənələrinə malik olmasını, Makedoniyalı İskəndərin Hindistana yürüş etməsini, Aşokanın hakimiyyətdə gördüyü işləri, Hindistanın Azərbaycan və digər Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr saxlamasının əhəmiyyətini qeyd edir.

***Yaradıcı tətbiqetmə:*** Kasta quruluşunu fərqli formada (sxemləşdirərək) tətbiq edin.

| Qruplar | Tapşırıqların vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Mənbələrdən düzgün istifadə | Təqdimat | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| **Kasta** | | | | | |
| **Brahma** | | | | | |
| **Veda** | | | | | |
| **Qautama** | | | | | |

***Ev tapşırığı:*** "Qədim Hindistana səyahət" adlı təqdimat hazırlayın.

***Qeyd:*** Yaradıcı tətbiqetmədə bu tapşırıq müxtəlif formada həyata keçirilə bilər (esse, şəkil, şeir, arxeoloji faktların hazırlanması və s.)

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qədim Hindistan haqqında təsəvvürləri vardır, lakin dövlətin yaranması və inkişaf amillərini izah edə bilmir. | Qədim Hindistanda dövlətinin yaranması və inkişaf amillərini köməklə izah edir. | Qədim Hindistanda dövlətin yaranması və inkişaf amillərini izah edir. | Qədim Hindistanda dövlətin yaranması və inkişaf amillərini zəngin məlumat, xəritə əsasında izah edir. |
| Qədim Hindistanda əhalinin kastalara bölündüyünü bilir, lakin idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edə bilmir. | Qədim Hindistanda idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri köməklə təsvir edir. | Qədim Hindistanda idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir. | Qədim Hindistanda idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri çoxsaylı faktlarla təsvir edir. |
| Aşokanın Hindistan dövlətinə başçılıq etdiyini bilir, lakin onu tarixi şəxsiyyət kimi müəyyənləşdirə bilmir. | Köməklə Aşokanı tarixi şəxsiyyət kimi müəyyən edə bilir. | Aşokanı tarixi şəxsiyyət kimi müəyyən edə bilir. | Tarixi şəxsiyyət kimi Aşokanın Hindistan tarixində oynadığı rolu mənbələr əsasında müəyyənləşdirir. |

## TARİXƏ AİD RƏVAYƏTLƏR

**“Gilqameş haqqında dastan”.** Gilqameş (Qilqamış, Bilqames) Uruk şəhərinin qala divarlarını tikdirdikdən sonra özünü sərbəst aparır, şəhər əhalisinə qarşı zülm edir. Uruk sakinləri tanrılara müraciət edirlər. Şikayət sədası tanrı Anuya çatır. O, ana ilahəsi Arurunu yer üzərinə göndərir və deyir: “Sən onu yaratmısan, indi də onun bənzərlərini yarat”. Aruru gildən vəhşi görkəmli və təbiətli Enkidunu yaradır. Tezliklə Uruka xəbər yayılır ki, yaxınlıqda vahiməli bir əcaib insan peyda olmuşdur. Onu ancaq Gilqameş məğlub edə bilər. Lakin Gilqameş belə ona qarşı çıxmaqdan çəkinir, çünki Enkidu vəhşi təbiətə malik idi. Onun təbiətini dəyişdirmək lazım idi. Məbəd qadınlarından biri ona nəvaziş göstərir. Tədricən Enkidunun vəhşi təbiəti dəyişilir, ağlı başına gəlir. İnsana çevrilmiş Enkidu Gilqameş ilə döyüşə hazırlaşır.

Enkidu Gilqameşin zülmünə son qoymaq üçün Uruk şəhərinə daxil olur. Burada Gilqameşin yolunu kəsir. Onlar döyüşməli olurlar. Enkidu Gilqameşə üstün gəlir. Lakin Gilqameş tam basılmır. Hər ikisi əhdü-peyman bağlayıb dostlaşırlar. Bundan sonra Gilqameş və Enkidu uzaq Sidr ölkəsinə Humbabaya qarşı döyüşə gedirlər. Humbaba şər qüvvələri təmsil edirmiş. Onlar Sidr meşələrinə çatırlar və ağacları Uruka gətirmək üçün kəsirlər. Humbaba döyüşdə həlak olur. İlahə İştar Gilqameşin qəhrəmanlığını görüb ona vurulur, qəlbini ona açır. Lakin Gilqameş onun məhəbbətini rədd edir. Gilqameş yaxşı bilir ki, İştar heç bir sevgilisinə sonacan sədaqətli olmamışdır. İştar bu təhqirə dözmür. Səma tanrısı Anudan xahiş edir ki, Gilqameşə qarşı səma öküzünü göndərsin. Vəhşi öküz Urukda qabağına çıxanı dağıdır, məhv edir. Gilqameş və Enkidu güc-bəla ilə öküzü öldürürlər.

Uruk camaatı qəhrəmanların şərəfinə mahnılar qoşurlar. Lakin tanrılar Enkidunu cəzalandırmaq qərarına gəlirlər. Axı onlar Enkidunu Gilqameşə qarşı yönəltmişdilər. O isə Gilqameşlə dostluq edir, Humbabanın və səma öküzünün öldürülməsində iştirak edir. Tanrılar Enkiduya ölüm hökmü çıxarırlar. Enkidu xəstələnir və ölür. Gilqameş hədsiz pərişan olur. Həyatın, qəhrəmanlığın, şöhrətin sonunu gözü qabağında canlandırır. O, əbədi həyat axtarmağa gedir.

Gilqameş eşitmişdi ki, uzaq okean sahilində yaşayan Utnapiştimə nə vaxtsa tanrılar əbədi həyat bəxş etmişlər. Çox gedir, dağı-daşı aşır, okeanı keçir, Utnapiştimi tapır, ondan əbədi həyatın sirrini öyrənmək istəyir. Lakin o, əbədi həyat sirrini açmaq istəmir. Utnapiştim arvadının təkidi ilə sirri açmalı olur. Gilqameş onun məsləhəti ilə okeanın dibinə enir və oradan cavanlıq otunu üzür. Bu otu qaynadıb suyunu içmək lazımmış. Yolda Gilqameş soyunub göldə çimir ki, uzun yolun yorğunluğunu bədənindən çıxarsın. Bu məqamda bir ilan cavanlıq otunu aparır. Gilqameş pərişan halda Uruka qayıdır. O, insanların ölümə qarşı aciz olduğunu qəti dərk edir.

**Finikiya dəniz quldurlarının həyatından.** Bir dəfə finikiyalılar gəmilərə çoxlu Misir və Assur malları yükləyib, Yunanıstanın Arqos şəhərinə apardılar. Malların satılıb qurtarmasına az qalmışdı. Bu vaxt gəmiyə xeyli qadın yaxınlaşdı. Hökmdar qızı İo da onların arasında idi. Qadınlar gəminin göyərtəsinə qalxıb bəyəndikləri malları almağa başladılar. Finikiyalılar bir-birinə işarə verib, qəfildən onların üzərinə atıldılar. Qadınların çoxu qaçıb qurtula bildi, hökmdar qızı İo isə bir neçə qadınla ələ keçdi. Tacir-quldurlar tələsik Misirə doğru üzdülər. Yunanlar oğurlanmış qadınları axtarmağa cəhd göstərmədilər. Mahir Finikiya dənizçilərini yaxalamaq onsuz da mümkün olmayacaqdı.

Çoxlarının başına müsibətlər gətirmiş fırıldaqçı bir finikiyalı, hətta kələkbaz və cəsur Odisseyi belə aldadaraq, Finikiyaya aparmış, sonra onu başqa ölkədə satmaq istəmişdi. Yalnız təsadüf nəticəsində Odissey xilas olmuşdu.

**Corc Smitin uğurları.** XIX əsrin ortalarında arxeoloqlar Aşşurbanipalın kitabxanasını aşkar etdilər. On minlərlə gil lövhə kitabələr Britaniya muzeyinə aparıldı. Alimlər bu mixi yazıları oxumağın sirlərini öyrəndilər.

Britaniya muzeyinin işçisi Corc Smit mixi yazıların üzünü köçürməklə məşğul olurdu. O bu yazıları öyrənmək, köçürdüyü mətnlərin sirrini bilmək istəyirdi. Xüsusi təhsil almaq imkanı olmayan istedadlı gənc Smit mixi yazıları oxudu və ilk dəfə bir çox qədim kitabın sirrini açdı. Gil lövhələrin xeyli hissəsi parça-parça olmuş, bir-birinə qarışmışdı. Bir mətni bərpa etmək üçün yüzlərlə yazılı gil parçasına baxmaq, uyğun gələnlərini seçmək lazım gəlirdi.

Bir dəfə Smit Britaniya muzeyinin anbarında gil lövhə parçalarını oxumaqla məşğul idi. Növbəti lövhəni oxuyarkən o, gözlərinə inanmadı. Oxuduğu mətn "Tövrat"dan hamıya yaxşı məlum olan "Nuhun tufanı" əfsanəsinin eyni idi. Yalnız adlar bir-birindən fərqlənirdi. Smit dərhal lövhənin çatışmayan hissələrini axtarmağa başladı, lakin tapa bilmədi. O, müəyyən etdi ki, oxuduğu parça Gilqameş haqqında dastanın on birinci lövhəsinə aiddir. Bütün dastan isə on iki lövhədən ibarətdir. Smit dastanın çatışmayan hissələrini Nineva xərabələrində, Aşşurbanipalın kitabxanasının tapıldığı yerdə axtardı. Bu, çətin bir iş idi. Lakin Smitin axtarışları uğurlu oldu. Minlərlə mixi yazılı gil lövhə aşkar edildi. Onların içərisində dünya ədəbiyyatının şah əsəri olan "Gilqameş dastanı"nın çatışmayan hissələri də tapıldı.

**Əfsanəvi Semiramida.** Əfsanəvi rəvayətə görə, ən qədim zamanlardan Asiyada Nin adlı hökmdar yaşayırmış. O öz şücaəti ilə şöhrət qazanan yeganə hökmdar imiş. O, yeni bir paytaxt şəhəri saldırıb, onu öz adına uyğun olaraq Ninevia adlandırmışdı. Nin bir çox ölkələri, o cümlədən Babilistanı, Midiyanı, Qara dəniz və Xəzər dənizi ətrafındakı ölkələri, həmçinin Aralıq dənizi sahilindən Hindistana kimi çatan ərazini işğal edibmiş. Nineviada assurlardan başqa çoxlu yadelli də yaşayırmış.

Bu zaman Suriya Ninə tabe imiş. Suriya hakimi Oanisin arvadı Semiramida Suriya ilahəsi Dekratonun qızı imiş. Ninin əmri ilə Oanis Assur tərəfindən müharibəyə gedibmiş. Semiramida adi döyüşçü paltarı geyinib ərinin dalına düşmüş, döyüşlərin birində rəqib qalasını həmlə ilə tutmaqda ona kömək edibmiş. Əfsanəyə görə, guya, Babil şəhərini Semiramida saldırmış, burada məbəd, qala divarları, Fərat çayı üstündə körpü tikdirmişdi. Qədim dünyanın yeddi möcüzəsindən biri sayılan Babil "asma bağları"nı da, guya, o saldırıbmış. Əfsanədə Midiyanın paytaxtı Ekbatan şəhərinin salınmasını da Semiramidanın adı ilə bağlayırlar. Ekbatanda təmtəraqlı saraylar tikilib, şəhərə yeraltı yol vasitəsilə sərin daş suları çəkdirilibmiş. Eyni zamanda onun əmri ilə daşları oyaraq, Midiyaya yeraltı yol çəkibmişlər. Midiyanın Baqistana şəhəri yanındakı böyük qala üzərində Semiramidanın göstərişi ilə onun və yaxın adamlarının adlarını həkk edibmişlər.

Semiramida hərbi siyasətlə də məşğul imiş. O, Misiri, Liviyanı, Efiopiyanı işğal edib. Təkcə Hindistan yürüşü uğursuz olub. Bu zaman Semiramidanın oğlu anasına qarşı sui-qəsd hazırlayıbmış. Oğlunun adı Nin imiş. Əfsanəyə görə, o, padşah Ninə ərə getmiş və doğulan oğlunun adını Nin qoymuşdur. Semiramida Assura qayıtdıqdan sonra oğlunun sui-qəsdindən xəbər tutub. O, hakimiyyəti oğluna verdikdən sonra, guya, göyərçin görkəminə düşmüş və saraydan uçub getmişdir. O gündən etibarən assurlar göyərçini istəkli bir quş kimi əzizləmişlər.

**Sak (iskit) qəhrəmanı Siraq (Sirak).** Eramızın II əsrində yaşamış yunan müəllifi Polibi "Hərbi hiylə" əsərində belə məlumat verir: "Dara saklar əleyhinə qalxarkən (silahlanarkən) Saksfor, Simari, Qamiris hökmdarları öz aralarında hərbi vəziyyəti müzakirə etmək üçün birlik yaratdılar. Onların məşvərəti zamanı Siraq adlı mehtər onlara yaxınlaşaraq, fars ordusunu qırmağa söz verdi, bir şərtlə ki, onun övladları və nəvələri buna görə ev və pul ilə mükafatlandırılsınlar. Hökmdarlar söz verən kimi mehtər qoltuğundan bıçağını çıxarıb öz burnunu və qulaqlarını kəsdi, bədəninin başqa hissələrini eybəcər hala saldı və Daranın yanına gedib özünü sakların düşməni kimi qələmə verərək, onun, guya, sak hökmdarları tərəfindən bu kökə salındığı haqqında şikayət etdi".

Dara Siraqın eybəcər hala salınmasından təsirləndi və ona inandı.

Siraq türklərdə müqəddəs sayılan odu və suyu öz düşmənlərindən intiqam almaq üçün ona kömək göstərməyə çağırdı: "Mən düşmənlərimi cəzalandırmaq qərarına gəldim. Bunu belə yerinə yetirmək olar, saklar üzümüzə gələn axşam düşərgədən çıxmaq fikrindədirlər, beləliklə, əgər biz başqa kəsə yolla hərəkət etsək, onları balığı tilovla tutan kimi tutarıq. Atlara baxarkən ərazini öyrənmək mənə nəsib olmuşdur və mən sizin bələdçiniz ola bilərəm, ümumiyyətlə, sizə özünüzlə yeddi günün azuqəsini və suyunu götürmək lazımdır".

Dara dərhal Siraqın dediklərini yerinə yetirməyə, yeddigünlük azuqə tədarükü götürüb yola çıxmağa əmr verdi.

Fars ordusu Siraqı bələdçi götürüb, yeddigünlük yürüşə çıxdı.

Siraq çox çətin, keçilməsi mümkün olmayan yollardan keçib, fars qoşunlarını quru, susuz, heç bir bəhrəsi olmayan səhraya gətirdi.

Farsların sərkərdəsi aldandıqlarını başa düşdü, bununla belə, Siraqdan soruşdu:

– Bələdçi, sənin böyük şahı aldatmaqda, farsların böyük ordusunu bulaqsız, susuz, quşsuz, bitkisiz, hətta vəhşi heyvan belə olmayan belə bir səhraya gətirməkdə məqsədin nədir? Bu səhrada nə irəli, nə də geri getmək mümkündür. Səni belə bir addım atmağa nə vadar etdi?

Siraq sərkərdənin bu sözlərinə qəşş edib güldü, sonra təmkinini pozmadan sevinclə cavab verdi:

– Vətən eşqi hər şeydən ucadır. Mən qələbə qazandım, çünki doğma vətənimi, soydaşlarımı, sakları bu böyük bəladan qurtarmaq üçün siz farsları, xalqımın düşməni olan Daranın böyük qoşununu susuzluğa və aclığa məhkum etdim. Öhdəmə götürdüyüm vəzifəni, bu müqəddəs borcu layiqincə yerinə yetirdim.

Fars sərkərdəsi Ranosbat qılıncını sıyırıb, Siraqın başını bədənindən ayırdı.

Siraq peşəkar sərkərdə deyildi, o, ürəyi vətən eşqi ilə döyünən, xalqının azadlığı uğrunda canından keçən sadə bir insan, türk oğlu idi. Lakin Siraq böyük sərkərdələrin görə bilmədiyi bir işi təkbaşına yerinə yetirdi. Qədirbilən xalq həmin vaxtdan etibarən onun adını əbədi yaşadaraq, öz qəbilə birləşməsinin soykökündə bu günə gətirib çıxarmışdır.

Siraq öz qəhrəmanlığı ilə doğma xalqını fars əsarətindən, soyqırımdan xilas etdi. Bu cəhətdən türk dünyasının qüdrətli sərkərdələri ilə bir sırada dayanmağa onun mənəvi haqqı vardı. Qəhrəman Siraqın adını əbədiləşdirən Siraq qəbilə birləşmələri Qafqazın ictimai, tarixi həyatında müəyyən rol oynamışlar. Strabon siraqlıların adını çəkərək, onların çox vuruşqan olduğunu qeyd etmişdir. Bəzi yunan müəllifləri isə siraqlıların, əsasən, oturaq həyat sürdüklərini göstərmiş, Qafqaz və onun yaxınlığındakı torpaqlarda, düşmən ilə apardıqları döyüşlərdə gah qalib gəldiklərini, gah da məğlub olduqlarını qələmə almışlar. Strabonun yazdığına görə, Ön Qafqazda "Siraq düzənliyi" olmuşdur. Deməli, eramızdan əvvəl təqribən II əsrdə siraqlılar Qafqazda məskunlaşmış olan türkdilli qəbilələrdən biri olmuşdur.

**Tomiris əfsanəsi.** E.ə. 530-cu ildə Əhəməni hökmdarı II Kir Araz çayından şimalda yerləşən massaget torpaqlarını ələ keçirmək istəyir. Herodotun məlumatına görə, bu xalq çoxsaylı və cəsur idi. Massagetlərin hökmdarı Tomiris idi.

II Kir vəzirinin məsləhəti ilə əvvəlcə Tomirisə evlənmək təklif edir. Tomiris onu rədd edir. Belə olduqda II Kir müharibəyə başlayır. Qoşunların keçməsi və geri qayıtması üçün Araz çayı üzərində körpülər saldırır. Tomiris II Kirə xəbər göndərir: “Midiyalıların padşahı, öz niyyətindən əl çək! Axı sən əvvəlcədən nə bilirsən ki, bu körpülərin salınması sənin xeyrinə qurtaracaq?! Bu işdən əl çək, öz dövlətində hökmranlıq et və bizim öz ölkəmizdə hökmranlıq etməyimizə paxıllığın tutmasın!” II Kirin qoşunları bu xəbərdarlığa baxmayaraq, Arazı keçirlər. II Kir hiylə işlədərək öz qoşunlarını iki hissəyə ayırır. Ön xətdə dayanan birinci dəstəyə az qüvvə daxil edilir. Onlardan arxada ləziz yeməklərdən ibarət süfrə açılır və ona saysız-hesabsız bardaqlar dolu şərab düzülür. Bir qədər aralıda lazımi zamanda hücuma keçmək üçün daha qüvvətli ikinci dəstə yerləşdirilir.

Döyüş başlanır. Hadisələr II Kirin planlaşdırdığı şəkildə gedir. Massaget döyüşçüləri II Kirin birinci dəstəsini məğlub edirlər. Tomirisin oğlu Sparqapis başda olmaqla massaget döyüşçüləri geri çəkilən Əhəməni qoşunlarını izləyir. Onlar açılmış süfrələrlə qarşılaşırlar. Yeməkdən yeyir, şərabdan içir və yuxuya gedirlər. Kir qoşunları hücuma keçib massagetləri əsir alırlar. Bu xəbər Tomirisə çatır. Tomiris II Kirə xəbər göndərir: “Sən massaget qoşunlarının üçdə birini hiylə ilə məhv etdin. Yaxşısı budur ki, oğlumu geri qaytar və özün də nə qədər salamatsan mənim torpağımdan çıx get. Əgər belə etməsən and olsun Günəş tanrısına ki, nə qədər acgöz olsan da, səni qanla doyduracağam”.

Tomiris dediyinə əməl etdi. Massaget qüvvələri hücuma keçdi və qalib gəldilər. Döyüş zamanı II Kir öldürüldü. Tomirisin göstərişi ilə onun cəsədini tapıb gətirdilər. Tomirisin əmri ilə II Kirin başı kəsildi və içərisi qanla doldurulmuş tuluğa salındı. Tomiris II Kirin başını qanla dolu tuluğa atarkən demişdir: “Sən qana çox susamışdın, bu da qan, doyunca iç! Mən sənə döyüşdə qalib gəldim. Lakin sən mənə ağır dağ çəkdin, oğlumu (Sparqapis əsirliyi özünə ar bilib özünü öldürmüşdü) məndən ayırdın”.

**Metenin torpaq təəssübkeşliyi.** Mete hələ dünyanı fəth etməmiş belə bir hadisə ilə rastlaşmışdı. Atasının ölümündən sonra taxta çıxdığı vaxt qonşu Tunqhu dövləti onun yanına elçi göndərmişdi. Bu dövlət çox güclü idi. Teoman xan həmin dövlətə xərac verirdi.

Metenin gəncliyini və təcrübəsizliyini görən tunqhular ondan ən yaxşı atını onlara verməyi tələb edirlər.

Mete dövlətin nüfuzlu adamlarını toplayıb onlarla məsləhətləşir. Hamı atı verməyin əleyhinə olur. Lakin gənc xaqan onlara deyir:

– Biz bu atdan ötrü qonşu dövlətlə vuruşa bilmərik, minlərlə insanın qanını axıda bilmərik.

Tunqhuların elçisi atı aparır, bir qədər sonra yenə də Metenin yanına gəlib deyir:

– Mənim xaqanım bu dəfə sənin kənizini tələb edir. Mete bu dəfə də ağsaqqalları yığıb məsləhətləşir. Onlar bu dəfə də qonşu dövlətin tələbini rədd edib silaha sarılmağı məsləhət görürlər.

Lakin Mete onlara deyir:

– Bir qadından ötrü biz qonşu dövlət ilə münasibəti pozub, müharibə aparıb igidlərimizin qanını tökə bilmərik.

O, sevimli kənizlərindən birini tunqhulara göndərir.

Qonşu dövlətin hökmdarı çox təkəbbürlü və həyasız adam idi. O, aldığı qənimətlərlə kifayətlənməyib, elçilərini yenidən Hun imperatorluğuna göndərir. Elçi bildirir ki, onun xaqanı indi də sərhəd yaxınlığında çınqıllı, əkilib-becərilməyən ərazini tələb edir.

Mete bir söz deməyib ağsaqqallarla məsləhətləşir. Hamı torpağın verilməsinə tərəfdar çıxır. Ağsaqqallardan biri isə deyir:

– Xaqan sağ olsun, sən qonşu dövlətin bütün tələblərini yerinə yetirmisən. Bizə qulaq asmayıb ən gözəl, sevimli atını, yaraşıqlı kənizini tunqhulara vermisən. Bu çınqıllı, əkilməyən torpaq nədir ki, ondan ötrü qonşu dövləti özümüzdən narazı salaq, igidlərimizin qanını tökdürək.

Mete bu sözlərdən hiddətlənib deyir: "Torpaq dövlətin təməlidir, onu heç kəsə vermək olmaz. Torpağı əcdadlarımız bizə miras qoyub gediblər, orada babalarımızın sümükləri uyuyur. Torpaq mənim deyil, xalqındır. Xalqın torpağını verməyə isə heç kimin ixtiyarı çatmaz. Mən öz atımı, yaraşıqlı kənizimi tunqhulara ona görə verdim ki, onlar mənim özümün idi. Amma torpağı verə bilmərəm. Bu torpaq gələcək nəslə çatdırılmalıdır. Ya xalq məhv olmalı, ya da torpağını öz qanı hesabına qorumalıdır".

Mete torpağı düşmənə vermək istəyən şəxsin boynunu vurdurur. Sonra atına minib tunqhuların üzərinə hücuma keçir. O, düşmənə qalib gəlir və tunqhuların hökmdarını öldürüb çoxlu əsir götürür. Metenin Şərq və Qərb yürüşləri də yalnız bundan sonra başlayır.

**Spitamen.** Spitamen adlı bir sərkərdənin, daha doğrusu, İskəndərə qarşı vuruşan qoşunların başçısının adı qədim yunan mənbələrində hörmətlə yad edilir.

Spitamen əhali arasında böyük izahat aparır, yadelli işğalçıların ayaqları altında tapdağa çevrilən Vətən torpağını azad etmək üçün onları mübarizəyə səsləyirdi. Yunan mənbələrindən verilən məlumatlara görə Spitamen, əsasən, xalq kütlələrini ayağa qaldırarkən başlıca bir fikri onlara çatdırırdı. O, xalqa müraciət edərək, onları qəflət yuxusundan ayılmağa çağırır və bildirirdi ki, İskəndərin qalib gəlməsi ilə uzun illər boyu üzərlərində hiss etdikləri fars zülmündən, əsarətdən qurtulduqlarına görə sevinməsinlər. Qarşıda onları

daha dəhşətli bir zülm – yunan zülmü gözləyir. Xalq kütlələri onun bu təbliğatına inanır və öz qəhrəman övladının ardınca gedir.

Bu dövrdə sak tayfaları Sırdərya çayının sağ sahili boyunca toplaşaraq, İskəndərə qarşı güclü yürüşə hazırlaşırdılar. İskəndər bu təhlükəni aradan qaldırmaq üçün saklara qarşı döyüşə getdi. Yerli əhalinin dilini bilən Farnux adlı bir şəxsi isə qoşun başçısı kimi Spitamenin üstünə göndərdi. Qədim türk xalqlarının məskunlaşdığı Soqdiana şəhəri uğrunda Spitamen ilə İskəndərin qoşunu arasında bir neçə döyüş oldu. Spitamenin çağırışı ilə bütün şəhər əhalisi mübarizəyə qalxdı. Ətraf vilayətlərdə yaşayan əhali də axın-axın gəlib onun dəstəsinə qoşuldu.

İskəndər vəziyyətin daha təhlükəli xarakter alacağını qabaqcadan duyaraq, qoşunun bir hissəsi ilə Spitamenə qarşı vuruşmaq üçün yola düşdü. Artıq bu vaxt Spitamenin qoşunu xeyli artmışdı və o, Mərəkənd şəhərini mühasirəyə almışdı.

Spitamen yunan qoşunlarının ildırım sürəti ilə yaxınlaşdığını görüb dərhal mühasirəni dayandırdı, öz qoşununu götürüb Qərbə doğru çəkildi. İskəndər üsyançıları təqib etməyə başladı. Lakin yerli əhali bu cəsur övladının rəhbərliyi altında yunan qoşunlarına qarşı əsl partizan müharibəsi aparmağa başladı. Spitamen işğalçılara gah cinahdan zərbələr endirir, gah da gecə vaxtı qəflətən onların başlarının üstünü alaraq, yuxularına haram qatır, dincəlməyə qoymur, sonra isə əlverişli bir vaxtda hücuma keçirdi. Spitamenin bu hücumları yunanlar arasında çox böyük vahimə və ixtilaf yaradırdı. Onun bu qəfil hücumları düşmən qüvvələrini xeyli zəiflədir, xalq kütlələrinin isə inamını artırırdı. Spitamen yerli əhalinin qüvvəsinə arxalanaraq, yunanların yerləşdiyi bir qarnizonu mühasirəyə almışdı. O, İskəndərin saklarla apardığı danışıqlardan istifadə edərək, qarnizonu ələ keçirmək, yunan döyüşçülərinin silahları ilə öz dəstəsindəki vətənpərvərləri silahlandırmaq fikrində idi. İskəndər dörd günlük yolu sürətlə qət edərək, bu dəfə də özünü mühasirədə qalmış azsaylı döyüşçülərinin harayına çatdırdı. Lakin Spitamen İskəndər ilə döyüşə girmədi. Çünki yunan sərkərdəsinin ixtiyarında yaxşı silahlanmış, həm də təcrübəli döyüşçülər var idi. O öz qoşunu ilə Buxara ətrafına, oradan isə Zərəfşan çayı sahilinə çəkildi, yolda həlak olmuş döyüşçüləri burada şərəflə dəfn etdi. Sonra döyüşçüləri ilə bərabər səhraya keçdi.

Yunan tarixçisi Arrian qeyd edir ki, İskəndər soqdianalıları təqib etsə də, bu dəfə də ələ keçirə bilmədi. Geri qayıdıb Soqdiana şəhərində üsyançıları cəzalandırdı. Sonra burada 3 min nəfər döyüşçü qoyub Baktriya şəhərinə yola düşdü.

Spitamen qədim türk dövləti olan Turan ərazisində yaşamışdır. Bu ərazidə isə əhalinin çox böyük əksəriyyətini türk xalqları təşkil etmişdir. Deməli, Spitamen də türk xalqının övladıdır. Məhz buna görə də İskəndər Soqdiana və Baktriya üzərinə hücum edərkən, o, əhaliyə "fars əsarətindən qurtulduğu-

muza görə hələ sevinmək tezdir" deyə müraciət etmişdi. "Əsl məqsəd yeni işğalçıları bu ərazidən qovmaqdır" çağırışı ilə Spitamen bütün xalqı silaha sarılmağa, doğma torpağı qorumağa və istismarçılardan təmizləməyə çağırmışdı.

Spitamenin mübarizə və nüfuz dairəsinin genişlənməsi istər-istəməz İskəndəri qəti tədbirlərə əl atmağa məcbur edirdi. Lakin çox təəssüf ki, bu mübarizədə Spitamen tək idi, yəni İskəndərin fəth etdiyi digər ərazilərdə onun bu mübarizəsinə qoşulan, yunan döyüşçülərinə qarşı vuruşan ayrı-ayrı qoşun başçıları, hökmdarlar, sərkərdələr yox idi.

Spitamenin qoşununda massagetlər də İskəndərə qarşı vuruşurdu. Spitamenin massagetlərlə belə yaxınlığı bu günədək tədqiq edilməyib. Azərbaycan xalqının soykökündə iştirak edən massagetlər ilə Spitamen arasında bu yaxınlığın, şübhəsiz ki, dərin kökləri vardır. Spitamen bir neçə dəfə İskəndərin qoşunu ilə toqquşdu. Məğlub olsa da, mübarizədən dönmədi. O, döyüş meydanında həlak oldu, lakin əsl xalq qəhrəmanı kimi yaddaşlarda qaldı.

**Çində ən qədim adət.** Göy tanrısı bir dəfə qəzəblənərək güclü sel yaratdı. Bütün ərazi dənizə çevrildi. Əkin sahələri suyun altında qaldı. Kəndlər dağıldı. İnsanlar suda boğuldular. Dağlara qaçanlar isə acından ölmək təhlükəsi qarşısında qaldılar. Böyük Yuy kömək üçün tanrılara yalvarmadı. O, adamlara bəndlər tikməyi, kanallar qazmağı öyrətdi. İnsanlar öz əməkləri ilə suyu okeana axıtdılar. Torpaq sel-sularından azad edildi. İnsanlar ölümdən xilas oldular.

Bir şəhərdə hər il çay tanrısına toy edirdilər. Ağsaqqallar və kahin qadınlar ən gözəl qızı çayda batırırdılar. Əhalidən isə toy üçün külli miqdarda pul toplayırdılar. Şəhər əhalisi var-yoxdan çıxırdı, xəzinə üçün yığılan vergilər azalırdı. Vilayət hakimi bundan çox narahat oldu. O, toya gəldi. Hakim gəlinə baxıb dedi ki, bu gəlin bir o qədər də gözəl deyildir, qoy baş kahin tanrıdan daha gözəl gəlin tapılanadək gözləməyi xahiş etsin. Sonra da əmr etdi ki, baş kahini çaya atsınlar. Kahin qayıtmadığından hakim üç kiçik kahini də onun dalınca göndərdi. Sonra da dedi ki, kahinlər işin nə yerdə olduğunu tanrıya başa sala bilmirlər, buna görə də ağsaqqalların özləri tanrının yanına getməlidirlər. Onun əmriylə ağsaqqalları da çaya atdılar. Bundan sonra heç kəsin çay tanrısına toy etməyə cürəti çatmadı.

**Qədim Hindistanın ticarət əlaqələri.** Hindistan tarixin ən qədim vaxtlarında dünyanın çox geniş ərazisi ilə ticarət əlaqələri yaratmış ölkələrdən biri idi. Hind tacirləri e.ə. I minillikdə bir tərəfdən dəniz yolu ilə Yaponiya, Çin, Vyetnam, Kampuçiya, Birma və Malayya arxipelaqı ilə əlaqə saxlayır, digər tərəfdən Afrika sahillərinə, İran körfəzi və Qırmızı dənizə – Avropanın astanasına qədər gedib çıxırdılar. Onlar musson küləklərinin kö-

məyi ilə dənizdən keçməyin əsl ustaları idilər. Beləliklə, hind tacirləri dünyanın iki ən böyük okeanına – Sakit okeana və Hind okeanına yaxından bələd olmaqla, Çin və Yaxın Şərq ölkələrinin, Afrika, Hind-Çin, Malayya arxipelaqı və Yaponiya ilə ticarət əlaqələrində vasitəçilik edirdilər. Cür-bəcür ədviyyat şeyləri, habelə fil sümüyü, ətirli maddələr, şəkər qamışı, pambıq parçalar, daş-qaş və s. hələ e.ə. I minillikdə İran və Azərbaycan vasitəsilə Qara dəniz sahillərinə, Volqaboyuna, İran körfəzi və Babilistan vasitəsilə Aralıq dənizi sahillərindəki ticarət mərkəzlərinə, Cənubi Ərəbistan və Qırmızı dəniz vasitəsilə Misirə, həmçinin Efiopiya və Mozambik sahillərinə gətirilirdi.

**Qədim yunan adət-ənənələri.** Yunanlarda belə bir məsəl var idi. “Adına bir məzar-təpə ucalt, matəm saxla ona”. Söhbət kenatafdan (hərfi mənası boş məzar) gedir. İtkin düşənlərin və ya hər hansı səbəbdən cənazəsi ələ gəlməyən adamların adına məzar təpəciyi düzəltmək bir adət idi.

– Homerin zamanında əsas mübadilə vasitəsi qaramal, əksərən öngə idi, kölənin qiyməti səkkiz cöngədən iyirmi cöngəyə qədərdi.

– Qədim yunanlar qansız qurban nəziri də verirdilər. Bunlardan ən çox yayılanı Allah şərəfinə şərab, su, süd, bal kimi içkiləri qədəhlərdən yerə tökmək ayini idi.

– Qədim yunanlarda familiya yox idi; adamlar çox zaman atasının adı ilə adlanırdı. Oğlu sözünü ifadə edən “id”, “ion” şəkilçiləri idi. Laert – Laertid, Kront oğlu – Kronid və ya Kronion şəklində işlənirdi. Qadınları atasının adı ilə adlandırdıqda “ida” şəkilçisi əlavə edilirdi: Xrisey qızı – Xriseida, Brisey qızı – Briseida şəklində çağırılırdı.

– Homer dövründə yad kişi ilə qadının, xüsusilə qızın yanaşı getməsi namussuzluq hesab edilirdi.
– Homer zamanında varlı adamlar çox kölə saxlamırdılar.
– Qədim yunanlarda evin müqəddəs yeri ocaq idi.
– Orada kül üstündə oturmaq ev yiyəsindən kömək istəmək demək idi.
– Homer dövründə ticarətlə, əsasən, finikiyalılar məşğul olurdular. Yunan zadəganları bu peşəyə həqarətlə baxırdılar.
– Qədim yunanların əqidəsincə ölən adamı üç kərə çağırdıqda onun ruhu vətənə qayıdır.
– Qədim yunanlar qurban kəsiləcək heyvanın üzərinə arpa səpərlərmiş. Arpa olmadıqda heyvanın üzərinə müqəddəs hesab etdikləri palıdın yarpağını səpələyirmişlər.
– Qədim yunanlar quşun sağ tərəfdən keçməsini uğurlu hal hesab edirdilər, sol tərəfdən uçmasını uğursuzluq sayırdılar.

– Asqırmaq qədim yunanlarda yaxşı əlamət hesab olunurdu, niyyətin yerinə yetəcəyinin müjdəçisi kimi qiymətləndirilirdi.
– Mehraba sığınan adam toxunulmaz hesab olunurdu.
– O zamanın adətinə görə, cavanlar matəm əlaməti olaraq saçlarını kəsib cənazənin üzərinə qoyurdular.

**Troya atı. Yeney** – axeyli qəhrəmanlardan biri Afinanın köməyi ilə nəhəng taxta at düzəldir. Həmin taxta atın qarnında ən cəsarətli qəhrəmanlar gizlənir. Yerdə qalan axeylilər qələbədən əl üzmüş kimi gəmilərə doluşub dənizdə gözdən itirlər. Heyrətə düşmüş troyalılar taxta atı qənimət kimi qalanın içinə aparırlar. Bu yolla düşmən qalasına soxulmuş axeylilər gecə atın qarnından çıxaraq darvazaları açıb bayırdakı axeyliləri içəri buraxırlar. Beləliklə, Troya fəth olunur.

**Nəhənglər.** Yeyanın (Yerin) törəmələri olan nəhəngləri ilan ayaqlı və çox güclü məxluq kimi təsəvvür edirdilər. Onlar yer üzərində hakimiyyəti ələ almaq üçün "Olimp allahları" ilə müharibəyə girirlər. Nəhənglər allahların üzərinə böyük qayalar və iri ağaclar yağdırır. Herakl allahların köməyinə yetişir. O, Zevsin göstərişi və köməyi ilə bütün nəhəngləri qırıb tökür.

**Persefona əhvalatı.** Persefona Demetranın qızıdır. Məhsuldarlıq və bahar ilahəsidir. Persefonanı Aid qaçırdaraq, yeraltı dünyaya aparır və özünə arvad edir. Qızını tapmaq üçün bütün dünyanı əldən salan Demetranı sakitləşdirmək məqsədilə Zevs Persefonanın baharda yer üzünə çıxmasını, payızda isə yer altına, ərinin yanına qayıtmasını müəyyən edir. Yunanların bu inamına görə, bahar fəslində hər tərəf yaşıllaşır, çiçək açır.

**Heraklın igidliyi.** Tanrıların əmri ilə güclü Herakl 12 igidlik göstərməli idi. Nəhəng şir heyvanlara və insanlara hücum edirdi. Onun dərisi o qədər möhkəm idi ki, tunc ucluqlu oxlar ona dəydikdə batmayıb geri qayıdırdı. Herakl palıd ağacını sındırıb ondan elə bir dəyənək düzəltdi ki, onu 20 adam da qaldıra bilməzdi. O, şir yaşayan mağaraya böyük cəsarətlə girdi. Şir Heraklın üzərinə atıldı. Lakin Herakl dəyənəklə şiri vurub gicəlləndirdi, sonra da boğdu. Şirin dərisi Herakl üçün həm zireh, həm də dəbilqə oldu.

**Yunanların tarixindən.** ...Yunan qoşunlarının başçısı Aqamemnonla yunanların arasında ən yaxşı döyüşçü olan "yeyinayaq" Axilles arasında münaqişə baş verir. Aqamemnon döyüşdə əsir edilən və hədiyyə kimi Axillesə verilən troyalı qızı onun əlindən alır. Bundan qəzəblənən Axilles öz igidləri ilə troyalılara qarşı döyüşdən imtina edir. Nəticədə yunanlar ağır itkilər verirlər.

...İliada poeması Axillesin dostu Patrokl və troyalı Hektorun (onu Axilles öldürmüşdür) dəfn mərasiminin təsviri ilə tamamlanır. Rəvayətə görə, Patrokl və Hektorun dəfnindən az sonra Axilles də həlak olur. O, körpə olarkən anası, dəniz ilahəsi Fetida oğlunu yeraltı çayda çimdirmişdi. Buna görə də Axillesin bütün bədəninə ox batmazdı. Anası onu çimdirərkən həmişə dabanından tuturdu. Buna görə də ox yalnız onun dabanına bata bilərdi. Axilles məhz dabanına batan zəhərli ox yarasından həlak olur. "Axilles dabanı" ifadəsi buradan əmələ gəlmişdir və "ən zəif yer" deməkdir.

**Odisseya.** "Odisseya" poemasında Troya müharibəsi qəhrəmanı Odisseyin öz vətəninə – Yunanıstanın qərb sahillərindəki kiçik İtaka adasına qayıdarkən başına gələn əhvalatlardan danışılır.

İtaka döyüşçüləri vətənə qayıtmaq üçün on iki gəmidə dənizə çıxdılar. Bu zaman şimal küləyi tanrısı fırtına qaldırdı və yunanlar təpəgözlər – sikloplarla rastlaşdılar. Onlardan ən qorxulusu və nəhəngi Polifem idi. Yunanlar yalnız Polifemi kor etdikdən sonra xilas ola bildilər. Lakin onlar yeni təhlükələrlə üzləşdilər. Azman adamyeyənlər iri daşlarla on bir gəmini sındırdılar və gəmilərdəki adamların hamısını qırdılar. Yalnız Odisseya gəmisi salamat qaldı. Frinaki adasında Odisseyin yoldaşları Günəş allahı Heliosun müqəddəs öküzlərini kəsib yedilər. Bu, ildırım və şimşək allahı Zevsi qəzəbləndirdi. Zevs ildırım çaxdırıb Odisseyin gəmisini dağıtdı. Odissey xilas oldu. Dalğalar onu sahilə çıxartdı.

Onillik səyahətdən və çoxlu sərgüzəştlərdən sonra Odissey vətəni İtakaya gəlib çıxa bildi. Yad ellərdə olarkən Odissey bir an da olsa doğma vətəni unutmadı, "heç olmasa doğma elin tüstüsünü bircə kərə görüb, sonra ölməyi" arzuladı.

Odissey səfərdə olarkən İtakanın adlı-sanlı gəncləri onun evində ağalıq edirdilər. Dastan ilahə Afinanın köməyi ilə Odisseyin çağırılmamış qonaqların hamısını qırması və yenidən İtakada hökmranlıq etməsi haqqında hekayətlə bitir.

**Plutarx. İskəndər Zülqərneyn.** ...Bir dəfə yaxın adamları sürətli qaçışı ilə seçilən İskəndərdən soruşurlar ki, o, Olimpiya oyunlarının qaçış yarışlarında iştirak etmək istərdimi? İskəndər belə cavab verir: "Əgər rəqiblərim şahlar olacaqsa, istəyərəm".

Aristotel İskəndərin müəllimi idi.

...Həkimliyə olan marağı İskəndərə başqalarından daha artıq Aristotel təlqin etmişdi. Şah müxtəlif müalicə üsulları və rejimi təyin etməklə, xəstələnən dostlarının daim köməyinə gələrdi.

...İskəndər Aristotelə heyran idi, öz sözləriylə desək, müəllimini atasından az istəmirdi və deyirdi ki, o, Filippə həyatı üçün, Aristotelə isə ləyaqətlə yaşadığına görə borcludur.

...Daranın qənimət alınmış şeyləri arasında qiymətli bir mücrü tapdılar, onu şaha gətirdilər. İskəndər dostlarından soruşdu ki, bu mücrüyə nə qoysun. Müxtəlif şeylər təklif olundu, ancaq şah qərara aldı ki, onun içində "İliada"nı saxlasın.

...İskəndər Misiri alanda burada bir yunan şəhəri saldırıb, ona öz adını vermək istəyir. Memarların məsləhəti ilə o, gələcək şəhər üçün yer də ayırıb, onu hasara aldırır. Amma gecə qəribə bir yuxu görür. Görür ki, ağsaçlı bir qoca onun yanında dayanıb aşağıdakı şeiri oxuyur:

*Geniş coşqun dənizdə bir ada var*
*Faras çağırır onu adamlar.*

İskəndər həmin dəqiqə qalxıb Farasa yollanır. O vaxt Faras ada idi, sonralar torpaq töküb materiklə birləşdirdilər. İskəndər gördü ki, bura, doğrudan da, gözəl və səfalı yerdir. Bərxəz kimi yaxşı körfəzi və limanı olan geniş torpaq sahəsi var. Elə buradaca o, memarlara yeni şəhərin planını hazırlamağı tapşırdı. Təbaşir olmadığından memarlar arpa unuyla qara torpaq üzərində hərbi meydana bənzəyən şəhər planı cızdılar. İskəndər onu çox bəyəndi, amma birdən bir sürü quş bulud kimi göyün üzünü aldı, onlar yerə qonub cizgiləri pozdular. Şah bu əlamətdən narahat oldu, amma falçılar izah edəndə ki, onun əsasını qoyduğu şəhəri gəlmə adamlar abad edəcək, İskəndər rahatlaşdı. Sonra o, gözətçilərə tikintiyə ciddi nəzarət etməyi tapşırıb, Amon məbədinə getdi. Yol uzaq, ağır və yorucu idi. Yolçular ən çox suyun yoxluğundan və cənubun qum tozanağından ehtiyat edirdilər. Deyilənə görə, keçmiş zamanlarda belə bir külək Kambizin qoşunlarının dövrəsində nəhəng sədd əmələ gətirib, əlli min döyüşçünü qum altında məhv edibmiş. Bundan hamı xəbərdar idi. Amma İskəndəri qərarından döndərmək qeyri-mümkün idi. Çünki tale onun niyyətlərinə himayədarlıq edib, onu inadkar böyütmüşdü.

O, nəinki bircə dəfə də düşmənə məğlub olmamışdı, heç vaxt zaman və məkanla razılaşmamışdı. Və bu da onu ağlasığmaz niyyətlərə sövq edirdi.

...Dara ilə yenidən vuruşmaq üçün İskəndər yürüşə çıxdı və onu təqib etməyə başladı. Təqib ağır və uzun çəkdi. On bir gün ərzində onlar üç min stabi yol getdilər. Döyüşçülərdən çoxu suyun çatışmazlığı üzündən tamam əldən düşmüşdü. Belə günlərin birində İskəndər qatır üstündə tuluqda su aparan makedoniyalılara rast gəldi. Günortaçağı idi. İskəndər susuzluqdan yanırdı. Dəbilqəni cəld su ilə doldurub şah üçün gətirdilər. İskəndər onlardan soruşdu ki, suyu kimin üçün aparırlar. Makedoniyalılar belə cavab verdilər: "Oğlanlarımız

üçün aparırıq, amma biz oğlanlarımızı itirsək də, eybi yoxdur, təki sən yaşayasan, çünki bizim başqa oğullarımız da doğula bilər". Bu sözləri eşidən İskəndər dəbilqəni aldı, amma ətrafına boylanıb görəndə ki, onu əhatə edən bütün atlılar suya baxırlar, o, bir qurtum da içmədən dəbilqəni geri qaytardı. O, su gətirənlərə təşəkkür edib dedi: "Mən suyu tək içsəm, onlar ruhdan düşər".

Şahın iradəsini və alicənablığını görən süvarilər atlarını mahmızlayıb dedilər ki, qoy İskəndər tərəddüd etmədən onları irəli aparsın. Nə qədər ki, belə bir şahları var, onların yorğunluq və susuzluq hiss etməyə və hətta ölməyə belə haqları yoxdur.

...Hamı eyni qeyrətlə hərəkətə gəlsə də, yalnız altmış süvari İskəndərlə birgə düşmən düşərgəsinə girə bildi. Ətrafa səpələnmiş bol qızıla və gümüşə əhəmiyyət vermədən, təşvişə düşmüş qadınlara və uşaqlara xətər yetirmədən makedoniyalılar atlarını döyüş meydanından qaçan Daranın ardınca çapdılar. Nəhayət, onlar bədəni nizə zərbələriylə dəlik-deşik olan Daranı tapdılar. Şah su istədi və Polistrat soyuq su gətirdi. Dara yanğısını söndürüb dedi: "Mənim bu xeyirxahlığın əvəzini çıxa bilməməyim bədbəxtliyimin zirvəsidir, amma İskəndər sizi mükafatlandırar. İskəndəri isə mənim anama, arvadıma və uşaqlarıma göstərdiyi xeyirxahlığa görə allahlar mükafatlandırar. Ona mənim salamlarımı çatdırın". Bu sözlərdən sonra Dara Polistratın əlini əlinə alıb, elə o andaca öldü.

İskəndər meyitə yanaşdı, qəlbən kövrələrək plaşını çıxarıb onun üstünü örtdü. Sonralar Bessi tapıb edam etdirdi. İki nəhəng düz ağacın başlarını əyib, Bessi ona bağladılar. Sonra ağacları buraxdılar və onlar düzələndə Bess parça-parça oldu.

**Qallar Romada (**Roma yazıçılarının əsərləri əsasında). Romalılar, yunanlar tərəfindən kelt adlandırılan xalqlara "qallar" deyirdilər. Latın dilində "qallus" xoruz deməkdir. Keltlər papaqlarına xoruz lələkləri keçirtdikləri üçün romalılar onları belə adlandırırdılar.

E.ə. 390-cı ildə İtaliyanın şimalında məskunlaşan döyüşkən qallar Romanın üzərinə hərəkət etdilər. Ucaboylu, uzun dağınıq saç-saqqallı qallar vahiməli görkəmə malik idilər. Güclü və sürətli hücumla qallar Roma ordusunu pərən-pərən saldılar. Onlar Kapitoli təpəsi üzərindəki qaladan başqa bütün Roma şəhərini tutub taladılar və yandırdılar. Romalıların yalnız bir hissəsi Kapitoli təpəsi üstündəki alınmaz qalaya çəkilib qalların hücumunu dəf etdi. Gecə vaxtı tam sakitlikdə qallar Kapitoli təpəsinə dırmaşdılar. Onlar o qədər ehtiyatla hərəkət edirdilər ki, nə keşikçilər, nə də itlər təhlükəni hiss etdilər. Ancaq təpədəki qazlar düşmənin gəlişini hiss edərək, qaqqıldaşdılar və Roma döyüşçülərini yuxudan oyatdılar. Nəticədə qala təhlükədən xilas oldu. Buradan da "qazlar Romanı xilas etdi" ifadəsi yaranmışdı.

# ƏN MÜHÜM TARİXİ HADİSƏLƏR



## QƏDİM MİSİR DÖVLƏTİ

* ***E.ə. 4-cü minilliyin sonu*** –
Misirdə vahid dövlət yarandı.

* ***E.ə. 2-ci minillik*** –
Fiv şəhəri paytaxt oldu.

* ***E.ə. XIII əsrin əvvəlləri*** –
II Ramzes het tayfalarını məğlub edib onlarla sülh bağladı.



## QƏDİM MİSİRDƏ MƏDƏNİYYƏT

* ***E.ə. 4-cü minilliyin sonu*** –
Misirdə yazı meydana gəldi.




## QƏDİM ŞUMERLƏR

* ***E.ə. 7–6-cı minilliklər*** –
Şumerlər Mərkəzi Asiya və Altay dağlarının ətəklərindən gələrək Mesopotamiyada məskunlaşdılar.

* ***E.ə. 3-cü minilliyin əvvəlləri*** –
Mesopotamiyada şəhər-dövlətlər meydana gəldi.

* ***E.ə. 3-cü minilliyin əvvəlləri*** –
Şumerlilər mixi yazı növünü yaratdılar.

## BABİL DÖVLƏTİ



* ***E.ə. 2-ci minilliyin əvvəli*** –
Babil şəhər-dövləti yarandı.

## FİNİKİYA



* ***E.ə. 2-ci minillik*** – Finikiyalılar ən yaxşı gəmiqayıranlar və dənizçilər olmuşlar.
* ***E.ə. XVI əsr*** – Finikiyalılar Şimali Afrikada, Kipr, Sardiniya, Siciliya adalarında və b. yerlərdə koloniyalar salmışlar.

## ASSUR DÖVLƏTİ



* ***E.ə. 1-ci minilliyin əvvəlləri*** –
Assur Ön Asiyanın ən qüdrətli dövləti oldu.
* ***E.ə. VIII–VII əsrlər*** –
Assur dövləti Babili, Suriyanı, Fələstini işğal etdi.
* ***E.ə. 612-ci il*** –
Nineva Midiya və Babil qoşunları tərəfindən tutuldu.
* ***E.ə. 605-ci il*** –
Assur dövləti süqut etdi.



## MİDİYA DÖVLƏTİ

* *E.ə. VIII əsrin sonu* –
  Deyok Midiyada dövlət yaratmağa təşəbbüs etdi.
* *E.ə. VII əsr* –
  Zərdüştilik meydana gəldi.
* *E.ə. VII əsrin 50-ci illəri* –
  Assur dövləti ilə Midiya arasında toqquşma oldu.
* *E.ə. 605-ci il* –
  Assur dövləti süqut etdi.
* *E.ə. 550-ci il* –
  II Kir Ekbatan şəhərini tutdu. Midiya dövləti süqut etdi.



## ƏHƏMƏNİLƏR DÖVLƏTİ

* *E.ə. 2-ci minilliyin sonları* –
  Ari tayfaları indiki İran ərazisində məskunlaşdı.
* *E.ə. 525-ci il* –
  Əhəmənilər dövləti Misiri özünə tabe etdi.
* *E.ə. 522-ci il* –
  Midiyalı maq Qaumata Əhəmənilər dövlətində hakimiyyəti ələ keçirdi.
* *E.ə. 330-cu il* –
  Əhəmənilər imperiyası süqut etdi.

## PARFİYA DÖVLƏTİ



* *E.ə. 247-ci il* –
  Parfiya dövləti yarandı.
* *E.ə. 53-cü il* –
  Şimali Mesopotamiyada parfiyalılar romalı Krassı ordusu ilə birlikdə məğlub etdilər.
* *E.ə. 38-ci il* –
  Romalılar parfiyalılar üzərində qələbə qazandılar.

## QƏDİM TÜRKLƏR




* Əhəmənilər imperiyasının mövcud olduğu zamanlar.
* Əhəmənilər imperiyası süqut edəndə Xarəzm müstəqillik qazandı.
* Makedoniyalı İskəndərin ölümündən sonra Mərkəzi Asiya Selevki dövlətinin tərkibinə daxil oldu.

## İSKİT DÖVLƏTLƏRİ



* *E.ə. VII əsrin əvvəlləri* –
  Kimmer, iskit və sak tayfaları
  Cənubi Qafqaza, Ön Asiyaya köç etdilər.
* *E.ə. VII əsrin ortaları* –
  Ön Asiyada Kimmer–İskit–Sak padşahlığı yarandı.
* *E.ə. VI əsrin əvvəlləri* –
  Kimmer – İskit–Sak padşahlığı süqut etdi.
* *E.ə. IV əsrdə*–
  Şərqi Avropada İskit dövləti yarandı.
* *III əsrin 2-ci yarısı* – İskit dövləti süqut etdi.



## BÖYÜK HUN DÖVLƏTİ

* ***E.ə. 58-ci il*** –
  Anası çinli olan şahzadə hökmdar seçildi.
* ***E.ə. 36-cı il*** –
  Qərb hunları Tanrı dağlarının şimalını, İssık gölünün ətrafını, Mərkəzi Asiyanı tutdular.

## QƏDİM ÇİN

* ***E.ə. VI əsrdə*** – Çinlilər dəmir emal etməyi öyrəndilər.
* ***E.ə. 221-ci il*** – Sin dövlətinin padşahı imperator titulunu qəbul etdi.
* ***E.ə. II əsrdə*** – İpək Yolu Çindən Şimali Afrikaya, İspaniyaya qədər uzandı.
* ***I əsrin əvvəli*** – "Qırmızıqaşlılar" üsyanı baş verdi.
* ***184-cü il*** – "Sarısarıqlılar" üsyanı baş verdi.



## QƏDİM HİNDİSTAN



* ***E.ə. 3-cü minillik*** –
Hindistanda qədim şəhərlər yaranmışdır.
* ***E.ə. 2-ci minillik*** –
Ari tayfaları Hindistanda məskunlaşdı.
* ***E.ə. III əsrin 2-ci yarısı*** –
Hindistanda vahid dövlət yarandı.
* ***E.ə. I əsr*** –
Hindistanda daş darvaza hazırlanmışdı.

## AVROPADA ƏN QƏDİM DÖVLƏT. QƏDİM YUNAN ŞƏHƏR-DÖVLƏTLƏRİ



* ***E.ə. 3–2-ci minilliklər*** –
Avropada ən qədim dövlət yarandı.
* ***E.ə. 2-ci minilliyin ortaları*** –
Krit mədəniyyəti məhv oldu.
* ***E.ə. 2-ci minilliyin sonları*** –
Dori tayfaları Mikena mədəniyyətini məhv etdilər. Cənubi Yunanıstanda Lakonikanı tutdular.
* ***E.ə. VIII əsrdə*** –
Yunan şəhər-dövlətləri yarandı.
* ***E.ə. VII əsr***
  – Afinada pul kəsildi.
  – Afinada bütün məsələləri aristokratlardan ibarət ağsaqqallar şurası həll edirdi.
  – Demosla aristokratlar arasında mübarizə kəskinləşdi.
  – Dorilər Messeniyanı tutdular.
* ***E.ə. 594-cü il*** – Solon islahat keçirdi.
* ***E.ə. VI əsrdə*** – Afinada strateqlər seçilməyə başlandı.




## YUNANLAR İŞĞALÇILARA QARŞI. AFİNA QULDARLIQ DEMOKRATİYASI

* ***E.ə. 479-cu il*** –
  Plateya döyüşü oldu.
* ***E.ə. 443-cü il*** –
  Perikl strateq seçildi.



## QƏDİM YUNANISTAN MƏDƏNİYYƏTİ

* ***E.ə. VIII əsr*** –
  Homer “İliada” və “Odisseya” dastanlarını yaratdı.
* ***E.ə. 776-cı il*** –
  İlk Olimpiya oyunları keçirildi.
* ***E.ə. V əsrin sonları*** –
  Yunanıstanda teatr tikildi.
* ***E.ə. V əsr*** –
  Yunanıstanda tarix elminin əsası qoyuldu.



## YUNAN ŞƏHƏR-DÖVLƏT-LƏRİNİN TƏNƏZZÜLÜ. MAKEDONİYA DÖVLƏTİNİN GÜCLƏNMƏSİ

* ***E.ə. 431–404-cü illər*** –
  Afina–Sparta müharibələri.
* ***E.ə. 338-ci il*** – Xeroneya döyüşü.
* ***E.ə. 336–323-cü illər*** –
  Makedoniyalı İskəndərin hakimiyyət illəri.
* ***E.ə. 330-cü il*** –
  Əhəminilər imperiyası süqut etdi.

## QƏDİM ROMA RESPUBLİKASININ YARANMASI



* *E.ə. 753-cü il* – Roma şəhərinin əsası qoyuldu.
* *E.ə. V əsrin əvvəli* – Plebeylər xalq tribunlarını seçmək hüquqlarını qazandılar.
* *E.ə. 146-cı il* – Yunanıstan Romanın itaəti altına düşdü.
* *E.ə. 133-cü il* – Tiberi Qrakx xalq tribunu seçildi.
* *E.ə. 123-cü il* – Qay Qrakx xalq tribunu seçildi.
* *E.ə. 74–71-ci illər* – Spartak üsyanı baş verdi.

## RESPUBLİKANIN SONU. ROMA İMPERİYASININ YARANMASI VƏ SÜQUTU



* *E.ə. 49-cu il* – Sezar qoşunları Roma üzərinə hərəkət etdi.
* *E.ə. 44-cü il* – Sezar öldürüldü.
* *E.ə. 30-cu il* – Oktavian qoşunları İskəndəriyyə şəhərini tutdular. Misir Romanın əyalətinə çevrildi.
* *330-cu il* – Paytaxt Vizantiyə (Bizans) köçürüldü və Konstantinopol adlandı.
* *395-ci il* – Qərbi və Şərqi Roma imperiyaları yarandı.
* *476-cı il* – Qərbi Roma imperiyası süqut etdi.



## QƏDİM ROMA MƏDƏNİYYƏTİ

* ***E.ə. I əsr və b.e.-nın I əsrinin başlanğıcı*** –
  Roma poeziyasının "qızıl dövrü" adlanır.
* ***I əsr*** –
  Fələstində xristianlıq meydana gəldi.
* ***313-cü il*** –
  İmperator Konstantin xristianlara açıq ibadət etməyə icazə verdi.



## “AŞOKA”

***I qrup***

*Hindistanda vahid dövlətin meydana gəlməsində Aşokanın rolunu müəyyənləşdirin.*



## “BRAHMAN”

***II qrup***

*“Hindistanda kastalar” – onların ictimai vəziyyətini təsvir edin.*

## “HARAPPA”

### *III qrup*

*Hindistanda memarlığın inkişafı haqqında nə deyə bilərsiniz?*



## “RAMAYANA”

### *IV qrup*

*Hindistan dünya mədəniyyəti xəzinəsinə hansı töhfələri vermişdi?*



## SUMMATİV QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TEST NÜMUNƏLƏRİ

**1. Əhəmənilər dövlətində imperiya üçün vahid pul sistemi yaratdı:**

a) II Kambiz b) I Dara c) II Kir d) Deyok

**2. Əhəmənilər imperiyası əhatə edirdi:**

a) Lidiyadan Misirə qədər, Fars körfəzindən Aral gölünə, Hindistandan Qara dənizə qədər ərazini
b) Misirdən Hindistana, Fars körfəzi və Hind okeanından Böyük Qafqaz dağlarına qədər ərazini
c) Misirdən Aral gölünə, Qafqaz dağlarından Fars körfəzinə qədər ərazini
d) Fars körfəzindən Balxaş gölü, Hindistandan Misirə qədər ərazini

**3. Qaumatanı xalq kütlələri hansı səbəbdən müdafiə edirdi?**

a) Qaumata üsyana başçılıq etdiyindən
b) Qaumata bütün kəndlilərə torpaq sahələrinin verilməsini istəmişdi
c) O bütün xalqların 3 il müddətinə vergilərdən və hərbi mükəlləfiyyətlərdən azad olunduğunu elan etmişdi
d) Qaumata üsyançıları silahlandırmışdı

**4. "Darik" kəsilmişdi:**

a) tuncdan b) misdən c) qızıldan d) dəmirdən

**5. Əhəmənilər imperiyası süqut etmişdi:**

a) E.ə. 550-ci ildə b) E.ə. 330-cu ildə c) E.ə. 321-ci ildə d) 331-ci ildə

**6. Böyük Türküstan əhatə edirdi:**

a) Şimalda Şimal Buzlu okeandan cənubda Hindistana qədər, şərqdə Aral gölü, qərbdə Xəzər dənizinə qədər torpaqları
b) Şimalda Sibir ərazisindən cənubda Himalay dağlarına, şərqdə Xinqan dağlarından qərbə Xəzər dənizinə və Ural dağlarına qədər torpaqları
c) Şimalda Sibir ərazisindən cənubda Aral gölünə qədər, şərqdə Xinqan dağlarından Volqa çayına qədər olan torpaqları
d) Şimalda Sibir ərazisindən cənubda Balxaş gölünə, şərqdə Aral gölündən qərbdə Xəzər dənizinə qədər torpaqları

**7. Böyük Hun imperatorluğunun yaranmasından neçə il sonra Çin səddi quruldu?**

a) 6 il b) 11 il c) 13 il d) 8 il

**8. E.ə. 221-ci ildə Sin dövlətinin tarixində ən mühüm hadisə nə olmuşdu?**

a) Sin imperiyası süqut etdi
b) Sin dövlətinin padşahı imperator titulu aldı
c) Çin vilayətlərə bölündü
d) İpək yolu salındı

**9. Çin səddi nə vaxt tikildi?**

a) Makedoniyalı İskəndərin Şərqə yürüşü dövründə
b) Xan sülaləsinin dövründə
c) Sin Şixuandi dövründə
d) Hun dövləti parçalandığı dövrdə

**10. Parfiya dövləti Hun imperatorluğunun yaranmasından neçə il əvvəl yaradılmışdı?**

a) 19 il b) 14 il c) 27 il d) 15 il

**11. "Şahlar şahı", "böyük" titulunu kim qəbul etmişdi?**

a) I Dara b) II Mitridat c) Teoman tanhu d) III Dara

**12. Hadisələri xronoloji ardıcıllıqla düzün:**

1) Manna dövləti süqut etdi 2) Əhəmənilər dövləti süqut etdi
3) Assur dövləti süqut etdi 4) İskit dövləti süqut etdi

a) 3, 2, 1, 4 b) 1, 2, 3, 4 c) 2, 4, 3, 1 d) 3, 1, 4, 2

**13. II Kir işğal etdi:**

1) Midiyanı 2) Mannanı 3) Lidiyanı 4) Assuru

a) 2, 4 b) 1, 3 c) 2, 3 d) 1, 4

**14. E.ə. VI–IV əsrlərdə Mərkəzi Asiyada mövcud olmuş vahə dövləti deyil:**

a) Lidiya b) Xarəzm c) Margiana d) Soqdiana

**15. Əhəmənilər dövləti süqut etmişdi:**

a) Baş vermiş üsyanlar nəticəsində
b) II Kirin məğlub edilməsi nəticəsində
c) Makedoniyalı İskəndərin Şərqə yürüşü nəticəsində
d) I Daranın yürüşləri nəticəsində

**16. Vahə nədir?**

a) Səhra və ya çöldə salınmış müvəqqəti yaşayış yeri
b) Səhra və ya çöldə karvanların dayanacaq yeri
c) Səhra və ya çöldə suyu və yaşıllığı olan sahə
d) Karvan yolları üzərində qurulmuş dayanacaq

**17. E.ə. IV əsrdə Mərkəzi Asiyada yaşayan əhali:**

a) Bütpərəst idi
b) Zərdüştilik dininə sitayiş edirdi
c) İslam dininə sitayiş edirdi
d) Vahid Allaha sığınırdı

**18. Mərkəzi Asiyada yaranmış ilk türk dövləti idi:**

a) Xarəzm dövləti
b) Böyük Hun dövləti
c) Yunan–Baktriya dövləti
d) Çin dövləti

**19. Atropatena və Albaniyadan nə üçün Parfiya pulları tapılmışdı?**

a) Parfiyada gümüş pul kəsən çoxsaylı zərbxanalar olduğu üçün
b) Parfiya İpək yolunun fəaliyyətində mühüm rol oynadığı üçün
c) Parfiyada zəngin gümüş mədənləri olduğu üçün
d) Parfiya pulları daha dəyərli olduğu üçün

**20. Aşoka Hindistanda nəyə nail olmuşdu?**

a) Tayfa başçılarını vahid ittifaqda birləşdirməyə nail olmuşdu
b) Hindistanı vahid dövlətdə birləşdirməyə nail olmuşdu
c) Baş verən üsyanları yatırmağa nail olmuşdu
d) Hindistanda müstəqil dövlətlər yaratmağa nail olmadı

**21. Kastalar nədir?**

a) Bərabər hüquq və vəzifələri olmayan insan qrupları
b) Qəti müəyyənləşdirilmiş hüquq və vəzifələri olan insan qrupları
c) Hüquq və vəzifələri olan insan qrupları
d) Heç bir hüququ olmayan insan qrupları

**22. Budda nədir?**

a) "yad, düşmən"
b) "həqiqətlə işıqlanmış bilici"
c) "dindən dönən"
d) "hökmdar nəslindən olan"

**23. Avropada ən qədim sinifli cəmiyyət yaranmışdı:**

a) Nilin deltasında
b) İkiçayarasında
c) Krit adasında
d) Qədim Hindistanda

**24. Krit dövləti ticarət əlaqəsi yaratmışdı:**
a) Misir, Babil və Assurla
b) Misir, Finikiya və Babillə
c) Misir, Urartu və Şumerlə
d) Urartu, Assur və Finikiya ilə

**25. Aristokratiya nədir?**
a) azlığın hakimiyyəti
b) yerlilərin hakimiyyəti
c) "yaxşıların hakimiyyəti"
d) güclülərin hakimiyyəti

**26. Akropol nədir?**

a) "Liman şəhər"
b) "Yuxarı şəhər"
c) "Aşağı şəhər"
d) "Gözəl şəhər"

**27. Mikena mədəniyyətini məhv etmişdir:**

a) dori tayfaları
b) alan tayfaları
c) sarmat tayfaları
d) vulkan püskürməsi

**28. E.ə. VII əsrdə Afinada bütün məsələləri həll edirdi:**

a) aristokratlardan ibarət ağsaqqallar şurası
b) sənətkar, günəmuzdçu, dənizçilərdən ibarət demos
c) aristokrat və siyasətçi Solon
d) senat və demos

**29. E.ə. 594-cü ildə:**

a) Solon islahat keçirmişdi
b) Aşoka islahat keçirmişdi
c) Hind dini etiqadları "Veda"da toplanmışdı
d) Daş darvaza qurulmuşdu

**30. Afina–Sparta müharibələri davam etmişdi:**

a) E.ə. 431–404-cü illərdə
b) E.ə. 441–404-cü illərdə
c) E.ə. 404–331-ci illərdə
d) E.ə. 430–404-cü illərdə

**31. Yunan şəhər-dövlətləri arasında gedən rəqabətin səbəblərindən biri:**

a) başqa ölkələrlə iqtisadi əlaqələr saxlamaq
b) dəniz ticarətində üstünlük qazanmaq
c) çoxsaylı koloniyalar salmaq
d) koloniyadan gələn gəliri mənimsəmək

**32. Makedoniyalı İskəndərin Şərq yürüşündə baş vermiş döyüşləri ardıcıllıqla yazın:**

1) Qavqamel döyüşü
2) İss döyüşü
3) Qranik döyüşü

a) 1, 2, 3  b) 2, 3, 1  c) 3, 2, 1  d) 3, 1, 2

**33. Makedoniyalı İskəndərin yaratdığı imperiya əhatə edirdi:**

a) Balkan yarımadasından Mərkəzi Asiyaya qədər olan əraziləri
b) Balkan yarımadasından Aral gölünə qədər olan əraziləri
c) Balkan yarımadası və Misirdən başlayaraq Hindistana qədər olan əraziləri
d) Balkan yarımadasından Misirə, Balxaş gölünə qədər ərazilər

**34. Hansı şəhəri "Əbədi şəhər" adlandırırlar?**

a) Roma  b) Babil  c) Nineva  d) Mikena

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

*Azərbaycan dilində*


1. **Allahverdiyev S., Haqverdiyev Ə.** Türk dünyası xalqlarının tarixi. Bakı, 1996.
2. **Göyüşov R.** Azərbaycan arxeologiyası. Bakı, 1983.
3. **Qeybullayev Q.** Qədim türklər və Ermənistan. Bakı, 1992.
4. **Qüdrətov D.** Türk xalqlarının tarixi. Bakı, 2000.
5. **Həsənov Y.** Qədim Roma tarixi. Bakı, 1968.
6. **Həsənov İ., Rüstəmova A., Babayeva N.** Kurikulum, metodika, pedaqogika. Bakı, 2020.
7. **Mustafazadə T.** Ümumi tarix. I hissə. Bakı, 1995.
8. **Nehri C.** Ümumdünya tarixinə bir nəzər. Bakı, 1990.
9. **Özdək Rafiq.** Türkün qızıl kitabı. I hissə. Bakı, 1991.
10. **Plutarx.** İskəndər Zülqərneyn. Bakı, 1989.


*Rus dilində*


1. **Алиев В.Г.** Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
2. **Алиев И.** История Мидии. Баку, 1960.
3. **Арриан Ф.** Поход Александра. Москва, 1962.
4. **Белявский В.А.** Вавилон легендарный и Вавилон исторический. Москва, 1971.
5. **Бонгард – Левин Г., Ильин Г.** Индия в древности. Москва, 1985.
6. **Бурасин А.А., Годер Г.И., Свенцицкая И.С.** История древнего мира. Москва, 1999.
7. **Гумилев Л.Н.** Тысячелетие вокруг Каспия. Баку, 1990.
8. **Дмитриева Н.А., Виноградова И.А.** Искусство древнего мира. Москва, 1986.
9. **Дьяконов И.** Очерк истории Древнего Ирана. Москва, 1961.
10. **Коровкин Ф.И.** История древнего мира–5. Москва, “Просвещение”, 1988.
11. **Крамер Н.** История начинается в Шумере. Москва, 1965.
12. **Парандовский Я.** Верования и легенды греков и римлян. Москва, 1958.
13. **Редер Д.Г., Черкасова Е.А.** История древнего мира. В 2-х томах. Том I. Москва, 1979.
14. **Рубинштейн Р.** Загадки пирамид. Москва, 1966.
15. **Садаев Д.** История Древней Ассирии. Москва, 1979.
16. **Семенев С.А.** Происхождение земледелия. Ленинград, 1974.
17. **Семенев С.А.** Развитие техники в каменном веке. Ленинград, 1968.
18. **Сергеенко М.** Ремесленники Древнего Рима. Москва, 1968.
19. **Чизхолм Д.** Мировая история в датах. Москва, 1999.
20. **Энн Миллард.** Атлас древнего мира. Лондон, 1974.
21. Всемирная история. В 24-х томах. Том I. Москва, 1996.
22. История Древнего Востока. Москва, 1979.
23. Мифы народов мира. Энциклопедия. В 2-х томах. Москва, 1980; 1982.

**BURAXILIŞ MƏLUMATI**

**ÜMUMİ TARİX 6**

*Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün*
*Ümumi tarix fənni üzrə dərsliyin (qrif nömrəsi: 2021-055)*
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəllif **Aidə Əkbər qızı Məmmədova**

Redaktor **Gülər Mehdiyeva**
Bədii və texniki redaktor **Abdulla Ələkbərov**
Dizaynerlər **Səadət Quluzadə, Təhmasib Mehdiyev**
Korrektor **Mətanət Kərimova**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 7,85. Fiziki çap vərəqi 8,0. Formatı 70x100 1/16.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 128.
Şriftin adı və ölçüsü: jurnal qarnituru, 10-12 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj . Pulsuz. Bakı–2021.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: _________**

Çap məhsulunu nəşr edən:
**“Aspoliqraf LTD” MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 151)

Çap məhsulunu istehsal edən:
**“Radius” MMC**
(Bakı, AZ 1054, Binəqədi şosesi, 53)

**PULSUZ**